# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 243 (8559) ŞƏNBƏ, 21 noyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az


# İLHAM ƏLİYEV: "Ağdam bizimdir!"



## Prezident İlham Əliyevin xalqa müraciəti

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət edib. AZƏRTAC müraciəti təqdim edir.**

- Əziz həmvətənlər.

Mən sizi Ağdam rayonunun işğaldan azad olunması münasibətilə ürəkdən təbrik edirəm. Bütün ağdamlıları ürəkdən təbrik edirəm. Əziz ağdamlılar, siz artıq köçkün deyilsiniz. Siz doğma dədə-baba torpağınıza qayıdacaqsınız.

Ağdam rayonunun işğaldan azad olunması noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatın nəticəsidir. Mən dəfələrlə demişdim ki, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli həm siyasi, həm hərbi yollarla mümkündür. Biz uzun illər ərzində bu məsələni siyasi yollarla həll etməyə çalışırdıq. Ancaq bütün dünya gördü ki, məhz Ermənistanın mövqeyinə görə bu məsələ öz həllini tapmamışdır və məsələnin hərbi yollarla həll edilməsi bizim qanuni hüququmuz idi. Bu hüququ beynəlxalq norma və prinsiplər tanıyır. Bu hüquq bizə BMT Nizamnaməsi tərəfindən verilibdir. Hər bir ölkə özünü müdafiə edələr və biz də özümüzü müdafiə etmişik.

Ağdam rayonunun işğaldan azad olunması tarixi hadisədir. Deyə bilərəm ki, işğal edilmiş rayonların arasında əhalinin sayına görə Ağdam ən böyük rayondur. İşğaldan əvvəl Ağdam rayonunda 143 min insan yaşayırdı. Hazırda Ağdam rayon sakinlərinin sayı 204 mindir. Rayonun 73 faizi işğal edilmişdi və qalan ərazilərdə - bizim nəzarətimizdə olan ərazilərdə biz son illər ərzində böyük quruculuq, abadlıq işləri aparmışıq. Biz Quzanlı kəndinə qəsəbə statusu verdik və Quzanlını faktiki olaraq Ağdam rayonunun mərkəzinə çevirdik. Mənim göstərişimlə Quzanlıda sosial obyektlər, infrastruktur və sənaye müəssisələri yaradılmışdır. İnsanlar üçün iş yerləri yaradıldı. Quzanlı təbii qazla təchiz edildi, orada bütün digər infrastruktur layihələri icra olundu, böyük Olimpiya İdman Kompleksi, xəstəxana, məktəblər, Muğam Mərkəzi inşa edilmişdir. Bütün bu obyektlərin açılışlarında mən şəxsən iştirak etmişəm. Onu da bildirməliyəm ki, son illər ərzində mənim göstərişimlə Ağdam rayonunun bizim nəzarətimizdə olan hissəsində 18 köçkün şəhərciyi salınmışdır və biz Ağdam rayonuna 93 min köçkünü yerləşdirə bildik. Görülmüş işlər və böyük investisiyalar hesabına bu gün Ağdam rayonunun əhalisinin 45 faizi Ağdam rayonunun ərazisində yaşayır.

İndi isə Ağdam üçün yeni dövr başlayır. Bizim böyük planlarımız var. İşğal edilmiş torpaqlarda hər şey dağıdılıb. Mənim Füzuli və Cəbrayıla səfərlərim mətbuat tərəfindən işıqlandırılıb və hər kəs, bütün dünya gördü ki, hansı vəhşi düşmənlə biz üz-üzə qalmışdıq. Nə Cəbrayılda, nə Füzulidə bir dənə də salamat bina qalmayıb, yalnız hərbi hissə və hərbi hissəyə aid olan bəzi tikililər. Qalan bütün infrastruktur, bütün binalar, evlər, tarixi abidələr, dini abidələrimiz vəhşi düşmən tərəfindən dağıdılıb.

Mən orada o dağıntılar arasında Azərbaycan xalqına müraciət edərək demişdim ki, biz bu torpaqları, bu şəhərləri, bu kəndləri bərpa edəcəyik. Ermənilər hesab edirdilər ki, bu dağıntılardan sonra heç vaxt Azərbaycan əhalisi bu torpaqlara qayıtmayacaq. Səhv etdilər. Onlar bilmirlər ki, Azərbaycan xalqının ürəyində - bizim xalqımızın qəlbində doğma torpaqlar əbədi yaşayır və yaşayacaq. Bizim bütün köçkünlərimiz bu illər ərzində bir arzu ilə yaşayıblar ki, öz doğma torpaqlarına qayıtsınlar, dövlətin dəstəyi və köməyi ilə orada özləri üçün yeni həyat qursunlar.

Biz Ağdam şəhərini də bərpa edəcəyik. Əlbəttə ki, bunun üçün biz bütün işləri əsaslı şəkildə etməliyik. Baş plan hazırlanacaq, mütəxəssislər cəlb olunacaq, infrastruktur layihələri planlı şəkildə icra ediləcək, inzibati binalar, sosial obyektlər, yollar və digər lazım olan işlər görüləcək. Vətəndaşlara oraya qayıtmaq üçün dövlət tərəfindən kömək göstəriləcək. Ona görə Ağdam rayonunun bərpası bizim gələcək planlarımızda xüsusi yer tutacaq. Çünki həm ərazi baxımından böyük rayondur, eyni zamanda dediyim kimi, əhali baxımından ən böyük rayondur.

Əslində, bizim bərpa işlərimiz artıq başlanıb. Füzulidə olarkən Füzulidən Şuşaya yeni yolun çəkilişi ilə bağlı bütün müvafiq göstərişlər verilib, Prezidentin Ehtiyat Fondundan vəsait ayrılıb, ilkin olaraq 50 milyon manat. Ancaq bu vəsait kifayət etməyəcək. Gələn il əlavə vəsait ayrılacaq. Mənim göstərişimlə Əhmədbəyli-Alxanlı-Füzuli-Şuşa yolu bir neçə hissəyə bölünüb. Göstəriş vermişəm, bir neçə şirkət cəlb edilsin ki, biz vaxt itirmədən və qısa müddət ərzində bu yolu çəkək. Çünki Azərbaycan vətəndaşları bilirlər ki, əvvəllər Şuşaya gedən yol Ağdam-Xankəndi yolu idi, indi isə hələlik bu yoldan istifadə etmək mümkün deyil. Noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanatda göstərilir ki, bütün kommunikasiyalar açılacaq, o cümlədən hesab edirəm ki, Ağdam-Xankəndi-Şuşa avtomobil yolu da müəyyən müddətdən sonra açılacaqdır. Hesab edirəm ki, kommunikasiyaların açılması, eyni zamanda Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın əsas hissəsini birləşdirən yollar və kommunikasiyalar gələcəkdə bölgədə uzunmüddətli sülhə də öz töhfəsini verəcəkdir.

Bu işlər planlı şəkildə öz həllini tapacaq. Biz artıq birinci böyük layihəyə start verdik. Eyni qayda ilə biz Ağdam şəhərini və onun bütün infrastrukturunu bərpa etmək üçün ardıcıl addımlar atacağıq. Ağdamlılar və işğaldan azad edilmiş bütün başqa rayonların sakinləri əmin ola bilərlər ki, Azərbaycan dövləti hər zaman onların yanında olacaqdır.

Ağdamın işğaldan azad edilməsi şanlı hərbi Qələbə nəticəsində mümkün olmuşdur. Əgər Azərbaycan Ermənistanı döyüş meydanında məğlub etməsəydi, Ermənistan öz xoşu ilə bizim torpaqlarımızdan çıxmayacaqdı. Bunu deməyə əsas verən bir çox amillər var. İlk növbədə, o bölgələrdə - işğal edilmiş torpaqlarda qurulmuş istehkamlar, oraya böyük vəsait xərclənib. O istehkamlar elə qurulub ki, Azərbaycan Ordusu oradan keçə bilməsin. Amma yenə də səhv etdilər. Bizim gücümüzü düzgün hesablaya bilmədilər. Bilmirdilər ki, bu gün Azərbaycan Ordusu, Azərbaycan vətəndaşı nəyə qadirdir. Bilmirdilər ki, bizi o Qələbəyə aparan həm gücümüzdür, texniki təchizatımızdır, həm də mənəvi ruhumuzdur. Bilmirdilər ki, Azərbaycan xalqı bütün bu illər ərzində bir arzu ilə yaşayır ki, öz dədə-baba torpağına qayıtsın. Bütün bu amillər və digər amillər bu Qələbəni şərtləndirdi.

Ona görə onlar bu istehkamları qurarkən və eyni zamanda digər addımları atarkən bir məqsədi güdürdülər ki, bu işğalı əbədi etsinlər. Əks təqdirdə onlar bizim tarixi şəhərlərimizin, kəndlərimizin adlarını dəyişdirməyəcəkdilər. Ağdama bir eybəcər ad veriblər, Füzuliyə başqa bir eybəcər ad veriblər. Yeni xəritələr tərtib ediblər və bu xəritələrdə qondarma "Dağlıq Qarabağ respublikası" keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətini yox, işğal edilmiş digər bütün torpaqları da əhatə edirdi və bunu onlar beynəlxalq ictimaiyyətə təqdim edirdilər.

Mən bu məsələ ilə məşğul olan vasitəçilərə dəfələrlə demişdim ki, siz buna diqqət yetirin. Siz indi bu məsələnin sülh yolu ilə həll olunmasından danışırsınız. Amma biz bunun tam əksini görürük. Görürük ki, Azərbaycan irsi bu torpaqlarda silinir, Azərbaycan abidələri, tarixi abidələr erməniləşdirilir, Azərbaycan məscidləri dağıdılır, bizim bütün tarixi-mədəni irsimiz silinir, yeni xəritələr tərtib edilir. Ermənistan məktəbləri üçün hazırlanan dərsliklərdə qondarma "Dağlıq Qarabağ respublikası"nın xəritələri dərc edilərkən orada işğal edilmiş bütün torpaqlar bu qondarma quruma aid edilir.

*Ardı 2-ci səh.*

## Birinci vitse-prezident Mehriban Əliyeva Ağdamın işğaldan azad edilməsi münasibətilə xalqımızı təbrik edib



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Ağdam rayonunun işğaldan azad olunması ilə bağlı rəsmi "Instagram" səhifəsində paylaşım edib. AZƏRTAC paylaşımı təqdim edir:**

"Əziz həmvətənlər!

Sizi Ağdam rayonunun işğaldan azad edilməsi münasibətilə səmimi-qəlbdən təbrik edirəm və hər birinizə ən xoş arzularımı çatdırıram! Qoy Azərbaycanda daim sülh, sabitlik, əmin-amanlıq və təhlükəsizlik hökm sürsün! Qoy ölkəmizdə hər bir ev nur, xeyirxahlıq və səadətlə dolsun! Uca Tanrı xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!"

## Həsrətin sonu varmış



### Bu həsrətə Ali Baş Komandan İlham Əliyev son qoydu

**Ağdam da azad edildi!**

**Şanlı Azərbaycan Ordusu tərəfindən!**

**İlham Əliyevin rəhbərliyi ilə!**

*Nə yaxşı ki, Ağdamı döyüşərək azad etdik!*

*ATƏT-in Minsk qrupu "sülh yolu ilə" onu bizə qaytarmadı!*

*Belədə Ağdam uğrunda vuruşaraq həlak olan oğullarımızın ruhu narahat olardı!*

**Heç bilirsiniz Ağdamda necə oğullar itirmişik?**

**Ürəyinin hökmü ilə respublikanın hər yerindən könüllü olaraq gəlmiş, doğma Azərbaycanımızın coğrafiyasını əks etdirən igid, nər oğullar!**

**Biz ağdamlılar onların hamısını öz ağdamlımız hesab edirik, xatirələrini əziz tuturuq, heç zaman unutmuruq və unutmayacağıq da!**

*Ardı 5-ci səh.*

## Qarabağ zəfəri yeni orden və medallarla əbədiləşdiriləcək

**Noyabrın 20-də parlamentin növbəti plenar iclası keçirildi. Milli Məclisin Sədri Sahibə Qafarova ilk olaraq Vətən müharibəsi ilə bağlı fikirlərini bildirdi. Qeyd etdi ki, noyabrın 10-da Azərbaycan Prezidentinin, Ermənistanın baş nazirinin və Rusiya Prezidentinin imzaladığı birgə Bəyanatla Ermənistan-Azərbaycan münaqişəsinə son qoyuldu. Hazırda bu bəyanatın şərtləri yerinə yetirilməkdədir. Bəyanata uyğun olaraq Azərbaycan Ordusunun bölmələri Ağdam rayonuna daxil olub.**

Bu münasibətlə təbriklərini çatdıran Sahibə Qafarova əminliyini bildirdi ki, biz tezliklə Şuşanı, Ağdamı, Laçını, Kəlbəcəri, işğalçılar tərəfindən dağıdılmış digər şəhərlərimizi, yaşayış yerlərimizi yenidən qurub-yaradacağıq və tamamilə bərpa edəcəyik!

Milli Məclisin Sədri dedi ki, noyabrın 10-da imzalanan Bəyanat bütün regional ölkələr və bir çox dövlətlər tərəfindən dəstəklənib və alqışlanıb. Lakin çox təəssüflər olsun ki, bu Bəyanatdan narahat olan qüvvələr də var və onlar prosesin müsbət məcrada davam etməsinə maneçilik törətmək istəyirlər. Bu qüvvələr sırasında Fransanın bəzi siyasi dairələri də var və bu münaqişəyə münasibətdə onların ortaya qoyduğu mövqe heç də qəbuledilən deyil.

Spiker xatırlatdı ki, Fransa rəhbərliyi Azərbaycanın öz torpaqlarını beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində işğaldan azad etməsinə münasibətdə qərəzli yanaşma ortaya qoyur.

*Ardı 4-cü səh.*

# İLHAM ƏLİYEV: “Ağdam bizimdir!”



## Prezident İlham Əliyevin xalqa müraciəti

*Əvvəli 1-ci səh.*

Ermənistan xarici dillərdə nəşr etdiyi kitablarda, bukletlərdə qondarma qurumu təqdim edərkən işğal olunmuş bütün torpaqlar əhatə edilir. Onlar qanunsuz yollarla beynəlxalq sərgilərdə iştirak edərkən də eyni hərəkətləri edirlər. Yaxşı, bəs, necə olacaq, siz deyirsiniz ki, bu, sülh yolu ilə həll ediləcək.

İndi nə oldu bu xəritələr? İndi bu xəritələr cəhənnəmə getdi, bu xəritələr artıq yoxdur. İndi Kəlbəcər rayonunu boşaldan işğalçılar bütün evləri, binaları, məktəbləri dağıdırlar, sökürlər, öz vəhşiliklərini göstərirlər. Bütün beynəlxalq aparıcı media qurumları bunu lentə alır və dünyaya yayır, biabır edir onları. Onlar özləri özlərini biabır edirlər, qorxaqcasına qaçıblar bizim qabağımızdan. Bizim qabağımızda duruş gətirə bilmədilər. Özlərini yenilməz ordu adlandıranlar, döyüşkən xalq adlandıranlar, bəs nə oldu sizin döyüşkən ordunuz? Haradadır bu? Pərən-pərən oldu, vurduq, dağıtdıq, məhv etdik. Yoxdur Ermənistan ordusu, biz onu məhv etmişik. Bizim döyüş meydanındakı qələbəmiz siyasi qələbəmizi də şərtləndirdi. Ağdam rayonu bizə bir güllə atmadan, bir nəfər də şəhid vermədən qayıdır. Bu, böyük siyasi uğurumuzdur. Amma əgər o hərbi qələbə olmasaydı, bu da mümkün olmazdı.

Ağdamlılar Birinci Qarabağ müharibəsində qəhrəmancasına vuruşmuşlar, çoxlu şəhidlər vermişlər. İkinci Qarabağ müharibəsində - Vətən müharibəsində də cəsarətlə vuruşmuşlar, şəhidlər vermişlər. Mən fürsətdən istifadə edərək bu Qələbəni bizə bəxş edən bütün şəhidlərimizi yad etmək istəyirəm, Allah onlara rəhmət eləsin, Allah onların yaxınlarına səbir versin. Şəhidlərimizin valideynlərinə, yaxınlarına bir daha müraciət edərək onlara öz təşəkkürümü bildirirəm ki, belə gözəl, igid övladlar yetişdiriblər dövlətimiz üçün, xalqımız üçün. Yaralı əsgərlərimizə, zabitlərimizə tezliklə normal həyata qayıtmağı arzu edirəm. Allah onlara şəfa versin. Onların reabilitasiyası ilə bağlı artıq tədbirlər planı hazırlanır, müvafiq göstərişlər verilib. Onlar daim diqqət mərkəzində olacaqlar.

Beləliklə, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi artıq arxada qalır və bunu beynəlxalq ekspertlər də qeyd edirlər. Azərbaycan döyüş meydanında parlaq Qələbə qazanaraq siyasi meydanda da istədiyinə nail ola bilmişdir. Bu torpaqların abadlaşdırılması ilə bağlı tədbirlər görüləcək. İlk növbədə, minalardan təmizləmə işləri aparılmalıdır. Bu da çox vaxt aparan bir məsələdir. Çünki mənfur düşmən böyük əraziləri minalaşdırıb. Ondan sonra infrastruktur layihələri ilə bağlı işlər aparılmalıdır. Artıq göstəriş verilib, mövcud infrastruktur təhlil edilir. Bizim indi peyk imkanlarımız və digər imkanlar var. Mən Füzuli və Cəbrayıl rayonlarına səfər edərkən artıq qısa müddət ərzində salınmış yeni yoldan istifadə etdim. O müvəqqəti yoldur, amma hər halda, bu yoldan istifadə etmək olar. Yəni bütün bu işləri biz görəcəyik və bizim böyük qayıdış planımız hazırda tərtib edilir.

Müharibəyə gəldikdə, bir daha deməliyəm ki, Azərbaycan əsgəri, zabiti qəhrəmanlıq göstərib. Lakin Ermənistan ordusundan fərarilik edənlərin sayı 10 mini ötüb, özü də bunu onlar özləri deyirlər, onların rəsmi şəxsləri deyirlər - 10 mindən çox fərari olub. İndi bu, bir daha göstərir ki, hansı ordu yenilməz ordudur? Hansı ordu qəhrəman ordudur? Onların ordusu, əslində, o quldur dəstəsi yalnız mülki, əliyalın insanlara qarşı müharibə apara bilərdi. Xocalı qatilləri, kəndlərimizi yandıran, insanlarımızı, mülki şəxsləri öldürən digər qatillər hərbçi sayıla bilməz. Onların ordusu oğrulardan ibarətdir. Son iki il ərzində nə qədər oğru erməni generalı həbs edildi?! Tuşonka satan, əsgərin payını satan generallar oğrudurlar. Onların “qəhrəmanları” qorxaqdırlar, onların rəhbərləri cinayətkardırlar. Ermənistan rəhbərliyi artıq özü bunu deyir ki, 20 il ərzində - 1998-ci ildən 2018-ci ilə qədər bu ölkəyə quldurlar, oğrular, qorxaqlar, fərarilər rəhbərlik edib. Son iki il yarım ərzində isə kim rəhbərlik edib? Artıq bütün dünya görür və bu ölkəyə hansı ad vermək olar? Ancaq bir ad - uğursuz ölkə. Bu uğursuzluğun səbəbi nədir? İşğal! Mən bunu dəfələrlə demişəm. Hər kəs baxa bilər mənim çıxışlarıma, müsahibələrimə. Demişəm ki, bu işğal Ermənistanı uçuruma aparacaq. Demişəm ki, biz heç vaxt bu işğalla barışmayacağıq, gec-tez torpağımızı qaytaracağıq. Ancaq Ermənistan o tarixi şansı itirəcək. Ermənistan bu 30 ilə yaxın müddətdə müstəqil ölkə ola bilmədi, bu gün də müstəqil deyil. Ermənistan faktiki olaraq müstəmləkədir. Bu idimi erməni xalqının arzuları? Bu idimi onların gözləntiləri? Onlar nə üçün müstəqil ölkə ola bilmədilər? İşğala görə. İşğaldan nə qazandılar? Heç nə. Biabır oldular siyasi müstəvidə, bütün beynəlxalq təşkilatlarda biz fəal iş apararaq onları biabır etdik və bizə lazım olan, beynəlxalq hüququ tələb edən qətnamələr, qərarlar qəbul olundu. Onlar döyüş meydanında məğlub olaraq bütün dünya qarşısında rəzil oldular. Bundan sonra bu damğa ilə yaşayacaqlar, “məğlub edilmiş ölkə” damğası ilə yaşayacaqlar. Onlar Bakıda, Gəncədə, bizim başqa şəhər, rayonlarımızda yaşayırdılar. Onlara söz deyən var idi? Yox. Onlar bundan məhrum oldular. Bizim xalqımızı oradan qovaraq, etnik təmizləmə siyasəti apararaq buradan da getməli oldular. Nə qazandılar? Heç nə. İndi isə bax, bu rəzil durumda bir-birini didirlər, olan-qalan dövlətçiliyi də məhv edirlər. Mən o vaxt demişdim ki, onlar ağıllarını başlarına yığsınlar, bu işğala son qoysunlar. Bu işğal davam etdikcə Ermənistan inkişaf edə bilməz və bilmədi. Siyasi cəhətdən asılı, hərbi cəhətdən asılı, iqtisadi cəhətdən natamam. İdeologiya baxımından çox ziyanlı bir ideoloji əsaslar formalaşdırıblar. Bunların ideoloji əsasları yalan üzərində qurulub, tarixi saxtakarlıq üzərində qurulub və keçmiş üzərində qurulub. Saxtalaşdırılmış keçmişdən əl çəkə bilməyən ölkə necə qabağa gedə bilər? Baxın, dünyada nə qədər müharibələr olub. Elə bu son 100 ili, 200 ili götürün. Nə qədər insanlar həlak olub müharibələrdə. Kim bu ədavəti, kim bu kini-küdurəti yaşadıb öz ürəyində illərlə? Kim öz uşaqlarını nifrət hissi ilə böyüdüb? Budur, bunun gələcəyi, budur, bunun reallıqları. Sovet İttifaqı Almaniya ilə müharibə zamanı on milyonlarla insan itirib, 10 il, 20 il keçəndən sonra artıq barışıq olub. İndi Rusiya ilə Almaniya arasındakı münasibətlər normal inkişaf edir. Avropa ölkələri özləri. Fransa İtaliya ilə nə qədər müharibə aparıb. Almaniya ilə Fransa nə qədər müharibə aparıb. Hansı ölkənin xalqı bu nifrəti öz ürəyində yaşadır, bunu, necə deyərlər, alovlandırır. Bax, budur, Ermənistanı bu günə salan. Onlar bütün öz bəlalarında da özləri günahkardır. Digər tərəfdən, qonşularla normal münasibət qura bilməyən ölkə necə inkişaf edə bilər? Türkiyəyə qarşı ərazi iddiası. Heç ağlı yoxdur. Türkiyə kimi böyük bir ölkəyə qarşı ərazi iddiası irəli sürmək özünəqəsd deməkdir. Azərbaycana qarşı ərazi iddiası. Onlar bu iddianı müəyyən müddət ərzində reallaşdıra bilmişdilər, bizim torpaqlarımızı işğal etmişdilər, qonşu xalqı didərgin salmışdılar. Hesab edirdilər ki, onlar haqlıdır və saxta tarix yaradırdılar. İndi onlar bütün başqa ölkələrdən yardım gözləyirlər. Elə bil ki, bütün dünya bunlara borcludur. Müstəqil ölkəsən, müstəqil ölkə kimi yaşa. Müstəqil ölkə kimi yaşaya bilmirsən, get başqa ölkənin tərkibinə gir. Endir o bayrağı dirəkdən, bük, qoy cibinə, get başqa ölkənin tərkibində yaşa. Onlar özləri öz bəlalarının səbəbkarlarıdır. Onlara vurulmuş bu zərbə, onların başına gələn bu hadisələr bəlkə də onları ayıltdı ki, onlar normal ölkə kimi bundan sonra yaşaya bilsinlər, əgər düzgün seçim etsələr, əgər qonşularla münasibətləri normallaşdırsalar.

Mən nə üçün bu barədə danışıram?! Çünki biz bu bölgədə yaşayırıq və istər-istəməz bu qonşuluq davam edəcək, istəsək də, istəməsək də. Mən ölkə Prezidenti və Ali Baş Komandan kimi maraqlıyam ki, bölgəmizdə, Cənubi Qafqazda ədavətə artıq son qoyulsun və normal, işgüzar münasibətlər qurulsun. Hər halda, biz bunu istəyirik. Mən müharibə dövründə demişəm, bir daha deyirəm, bizim erməni xalqı ilə heç bir problemimiz yoxdur. Biz erməni xalqına qarşı enik təmizləmə aparmamışıq, necə ki, onlar bizə qarşı aparıblar. Biz onların tarixi abidələrini dağıtmamışıq, biz onları qoruyuruq və bildiyiniz kimi, bu məsələ ilə bağlı önəmli addımlar atmışıq.

Biz onların şəhərlərini dağıtmamışıq, halbuki dağıda bilərdik. Şuşanı götürəndən sonra Xankəndini dağıtmaq nə böyük problem idi. Bir gün ərzində dağıda bilərdik. Biz etdikmi bunu? Yox. Amma onlar nə günə saldılar bizim şəhərlərimizi. Ona görə bizim erməni xalqı ilə problemimiz yoxdur. Bir daha demək istəyirəm ki, vahid Azərbaycan dövlətində yaşayan bütün xalqlar bərabər hüquqlara malikdir, o cümlədən erməni xalqı. Azərbaycanda minlərlə erməni yaşayır. Onlara bir söz deyən var ölkəmizdə? Yox. Azərbaycan vətəndaşları kimi normal yaşayırlar. Əminəm, bu gün Dağlıq Qarabağda yaşayan ermənilər də gün gələcək başa düşəcəklər ki, onlar üçün yeganə yol Azərbaycan xalqı ilə yanbayan yaşamaq, qonşuluq şəraitində yaşamaq və bütün bu çirkin əməllərdən əl çəkməkdir.

O ki qaldı, bu gün Ermənistan tərəfindən növbəti bir uydurmanın ortalığa atılmasına, mən ona da aydınlıq gətirmək istəyirəm. İndi belə bir rəqəm səsləndirirlər ki, guya, Dağlıq Qarabağdan 90 min erməni qaçıb, qaçqın olub. Yalandır. Dağlıq Qarabağ ərazisində və işğal edilmiş bizim torpaqlarda İkinci Qarabağ müharibəsinə qədər maksimum 60-65 min insan yaşayıb. Biz bunu haradan öyrənmişik? Bizdə operativ məlumat var. Bizim o bölgədə bir çox informasiya mənbələrimiz var və bizim uğurlarımızın səbəblərindən biri də məhz bundadır. Biz tam dəqiqliklə bilirdik və bilirik indi orada nə baş verir, onların xunta başçısı harada gizlənir. Yəqin o da bilir ki, biz bilirdik. Ona görə burnunu çıxara bilmirdi küçəyə, bunkerdə oturURdu. Bizim məlumatımız var, mənbələrimiz var, peyk görüntüləri var. Ona görə mən tam əminliklə deyirəm ki, Dağlıq Qarabağda, o cümlədən işğal edilmiş torpaqlarda maksimum 65 min insan yaşayıb. Yaxşı, belə olan halda 90 min qaçqın haradan gəldi? Yenə saxtakarlıq, yenə yalan. İndi yenə məliyə-məliyə, sürünə-sürənə onun-bunun ətəyindən yapışacaq ki, mənə kömək edin. “Mənə kömək edin” onların ideologiyasının əsas prinsipidir. Bu ideologiya ilə hansı xalq inkişaf edə bilər? Ancaq kimdənsə, nə isə gözləmək, ummaq və ondan sonra küsmək, incimək, tələb irəli sürmək kimə xeyir gətirib bu günə qədər?

Biz qaçqınların sayı ilə bağlı bu yalanları ifşa edəcəyik və əgər bu qaçqınlar olubsa, o, bizim günahımız deyil. Çünki biz mülki əhaliyə qarşı vuruşmamışıq. Onlar mülki əhaliyə qarşı vuruşublar. Bizim mülki vətəndaşlar arasında 94 şəhidimiz var, 400-dən çox yaralı mülki şəxs var, 3000-dən çox evimiz dağıdılıb. Onlarda mülki şəxslər arasında itkilər qat-qat aşağıdır. Amma onlar bizim mülki əhalini məqsədyönlü şəkildə vururdular. Gəncəni ballistik raketlərlə vurmuşdular. Kasetli bombalarla Bərdəni vurmuşdular, fosforlu bombalarla. Bu, hərbi cinayətdir. Tərtər şəhəri demək olar ki, dağıdılıb. Ən çox mərmi düşən Tərtər idi. Hər səhər mənə məlumat verilirdi nə qədər mərmi düşür. Gün var idi ki, bir şəhərə, özü də balaca şəhərə iki min mərmi düşürdü. Bu, erməni vəhşiliyi deyilmi? Xocalı soyqırımının təkrarı deyilmi? Görün biz kimlərlə üz-üzə idik və biz kimi məğlub etmişik? Yenə də deyirəm, bu, təkcə ərazi bütövlüyümüzün bərpası deyil, erməni faşizminin belinin qırılmasıdır. Biz bölgəni erməni faşizmindən xilas etdik, dünyanı erməni faşizmindən xilas etdik. Amma baş qaldıra bilər. Ancaq biz imkan verməyəcəyik. Hər kəs bunu bilsin. Özümüzü müdafiə etmək üçün istənilən addımı atacağıq. Öz vətəndaşlarımızı müdafiə etmək üçün istənilən addımı atacağıq və heç kim bizi saxlaya bilməz. Bu 44 gün ərzində bütün dünya gördü. Heç kim bizim qabağımızda dura bilməz, bizə şərt qoya bilməz. Bizə müharibənin ilk günlərində şərt qoymaq istəyən, hədələmək istəyən, şərləmək istəyən ölkələrin, bəzi Qərb ölkələrinin nümayəndələri sərt cavabımızı aldılar. Gördülər, biz o ölkələrdən deyilik ki, kiminsə qabağında baş əyək və mən də o liderlərdən deyiləm ki, kimdənsə nə isə qəbul edim, hansısa sözü. Artıqlaması ilə cavab vermişəm və verəcəyəm lazım gəldikdə. Ona görə əgər erməni faşizmi bir də baş qaldırsa, əgər bizə qarşı hər hansı bir təxribat törədilərsə, 10 qatını alacaqlar, 10 qatını və heç kim bizi dayandıra bilməz.

Hazırda Qarabağ bölgəsində mövcud olan coğrafi vəziyyət, əlbəttə ki, bizim imkanlarımızı qat-qat artırıb. Sadəcə olaraq, xəritəyə baxmaq kifayətdir, hər kəs görsün ki, kimin əlində hansı imkanlar var. Ona görə mən bir daha sözümü demək istəyirəm. İndi Ermənistanda daxili böhran hökm sürür. Bu da təbiidir. Çünki hərbi məğlubiyyət, özü də belə biabırçı məğlubiyyət, əlbəttə ki, istənilən ölkədə təlatümlərə gətirib çıxara bilər. Ona görə yəqin ki, indi bu böhran da keçəndən sonra əgər Ermənistanda sağlam qüvvələr hakimiyyətə gələrsə, biz o sağlam qüvvələrlə normal münasibətlər qurmağa hazırıq. Ancaq cəlladlarla, Azərbaycan xalqının qanını tökənlərlə bizim heç bir əlaqəmiz ola bilməz. Bunu hər kəs bilsin! Bundan sonra təbii ki, bu bölgədə Azərbaycanın imkanları genişlənəcək, o cümlədən təsir imkanları. Amma bizim imkanlarımız yalnız əməkdaşlığa hesablanıb. Bu günə qədər yaşadığımız bu bölgədə gördüyümüz bütün işlər əməkdaşlığa təkan verib. Bütün layihələrimiz - energetika, nəqliyyat, humanitar layihələrimiz əməkdaşlığı dərinləşdirir. Biz bir dənə də səhv addım atmamışıq, misal üçün qonşumuza hansısa problem yarada biləcək bir dənə də addım atmamışıq. Ona görə qonşu ölkələrlə münasibətlərimiz normaldır, yaxşıdır. Deyə bilərəm ki, bir çoxları üçün nümunə ola bilər. Ermənistanın qonşuları ilə münasibətləri necədir? Azərbaycanla belə işğal, Türkiyəyə qarşı ərazi iddiası. Rusiyaya indi, necə deyərlər, narazılıq ifadə edir. Mən bunu bilirəm ki, nə üçün İran üzərindən silahları gətirə bilməyiblər. Ona görə ki, İran bizim dost, qardaş ölkəmizdir. Ona görə ki, bizim xahişimizi nəzərə alaraq öz hava məkanını bağlayıb. Ona görə ki, istəməyib, onlar gəlib azərbaycanlıları öldürsünlər. Gürcüstana da eyni iddia irəli sürür. Çünki Gürcüstan da müharibə dövründə öz hava sahəsini bağlayıb və quru yollarla silahların daşınmasına imkan verməyib. O da istəməyib ki, vəhşi düşmən mülki vətəndaşlarımızı öldürsün. Onlar Rusiyaya qarşı iddia qaldırırlar ki, Rusiya bunlara kömək etməyib. Rusiya Prezidenti öz müsahibəsində kifayət qədər açıq və tam dəqiq məlumat verdi, öz mövqeyini bildirdi. Azərbaycan beynəlxalq hüquq tərəfindən tanınmış öz ərazisində müharibə aparırdı. Ona görə burada hansısa bir müttəfiqlik münasibətlərinin qarışmasına imkan yaradılmasından söhbət gedə bilməz. Ancaq bunlar hamıya irad tuturlar, hamıdan narazıdırlar. Belə təfəkkürlə necə yaşamaq olar?

Biz isə bundan sonra inkişaf yolumuzla daha sürətlə gedəcəyik. Biz döyüş meydanında istədiyimizə nail olduq. Əsgər və zabitlərimiz öz gücünü göstərdi. Biz siyasi müstəvidə gücümüzü göstərdik və üçtərəfli Bəyanat bizim maraqlarımıza tam cavab verir. Məhz buna görə bu Bəyanat dünyanın gözü qarşısında imzalandı, Rusiya Prezidenti və mən. Amma Ermənistanın baş naziri bunu harada imzalayıb onu hələ ki, yəqin etmək mümkün deyil. Amma o qədər də önəmli deyil. Hansısa anbarda, ya qapalı bir yerdə, ya yaşadığı bunkerdə, fərqi yoxdur. Onun imzası orada var. O, əslində, kapitulyasiya aktıdır. Bu, Azərbaycanın Qələbəsidir, torpaqlarımızın qayıtmasıdır, bayrağımızın ucaldılmasıdır. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Hadrut, Suqovuşan, Murov dağı, Şuşa döyüş meydanında işğalçılardan azad edilib, o cümlədən Laçın rayonunun bir neçə kəndi, Kəlbəcər rayonunun bir hissəsi. Bu, şərtləndirib bizim qələbəmizi. Bizim qələbəmiz artıq Ermənistanda böyük problemlər yaratdı. Amma baxın beynəlxalq təşkilatların buna reaksiyası nədir? Varmı reaksiya? Yoxdur. Ermənistanda gündə hansısa müxalifət lideri həbs olunur, özü də tamamilə əsassız. Bir Qərb ölkəsi buna reaksiya veribmi? Yox. Bunu qınayıbmı? Yox. Əsas müxalifət partiyalarının rəhbərləri həbs olunub. Bir nəfər də söz demir. Avropa Şurası haradasan? Azərbaycana xor gözlə baxan, bizi qaralamağa çalışan, haradasan Avropa Şurası, niyə susursan? Yaxud da ki, monitorinq komitəsi. Orada bizim Azərbaycan üzrə bir neçə məruzəçi təyin ediblər. Ermənistan monitorinq altında olmalıdır. Niyə susursan Avropa Şurası? Hanı sənin rəhbərlərin, hanı sənin monitorinq komitən, siyasi komitən. Görmürsünüz ki, Ermənistanda repressiya baş alıb gedir? Görmürsünüz ki, diktator at oynadır? Özü də məğlub edilmiş diktator, rəzil vəziyyətdə olan diktator. Bəs, niyə səsinizi çıxarmırsınız? Bəs, hanı sizin demokratiyanız, insan haqlarınız? Cavab var? Yoxdur. Olmayacaq. Mənim sözlərimdən sonra bax, görərsiniz, olmayacaq. Ört-basdır edəcək, ört-basdır. Avropa Parlamenti Azərbaycana qarşı 10-dan çox eybəcər, yalan üzərində qurulmuş qətnamə qəbul edib. Niyə susursan Avropa Parlamenti? Özünü guya dünyanın demokratiya mərkəzi sayırsan. Bir səs çıxar, açıqlama ver, bəyanat ver, qına bunu. Dünyanın gözü qarşısında diktator bütün müxalifəti məhv edir. Bir adamı öldürüb. O parlamenti zəbt edənlər arasında bir nəfər artıq ölü tapılıb. Nə üçün səs qaldırmırsınız? Niyə? Müntəzəm olaraq bizə qarşı çirkin kampaniya aparan qeyri-hökumət təşkilatları, niyə susursunuz, niyə söz demirsiniz? Yaxşı, ballistik raketlə bizi vurdu susdunuz, kasetli bombalarla, fosforlu bombalarla bizi vurdu susdunuz. Böyük ölkələr, özlərindən Avropanın lideri düzəldən ölkələr, siz niyə susursunuz? Deyin, cavab verin. Yoxsa, yerindən duran burada bizə mız qoymaq istəyir, sataşmaq istəyir. Hamısının cavabını verirəm, hamısının, artıqlaması ilə.

Ermənistan diktatoru bunkerdə otura-otura özünü tamamilə dünyadan, öz xalqından təcrid edib, Azərbaycanda xalq-iqtidar birliyi. Bax, budur fərq. Budur bizim gücümüz. Bizim gücümüz birliyimizdədir. Güc və birlik. Yəqin, Azərbaycan xalqı xatırlayır, son 3-4 il ərzində mən öz çıxışlarımda dəfələrlə demişdim ki, dünya dəyişir, münasibətlər dəyişir, beynəlxalq hüquq işləmir, güc amili önə çıxır, “kim güclüdür o da haqlıdır prinsipi üstünlük təşkil edir. Bütün bunları mənim çıxışlarımda görmək olar. Çünki mən beynəlxalq vəziyyəti düzgün təhlil etmişəm. Demək istəmirəm ki, biz də bu yolla gedək. Yox. Bizim yolumuz ədalət yoludur və beynəlxalq hüquq yoludur. Biz beynəlxalq hüququn kənarında bir iş görməmişik. Ancaq demişəm ki, güc amili ön plana çıxır və biz buna hazır olmalıyıq və hazırlıq işləri gedirdi, bütün bu illər ərzində, həm iqtisadi sahədə, həm beynəlxalq münasibətlər sahəsində, ilk növbədə, ordu quruculuğu sahəsində. Bu gücü topladıq, lazım olan anda vurduq, əzdik düşmənin başını. Elə əzdik ki, onu əbədi yadda saxlayacaq, əbədi. O damğanı vurduq. Azərbaycan xalqı müzəffər xalqdır. Azərbaycan Ordusu müzəffər ordudur. Biz döyüş meydanında qələbə qazanmışıq, siyasi müstəvidə qələbə qazanmışıq, torpaqlarımızı işğalçılardan azad etmişik.

Mən bu gün Ağdamın azad olunması xəbərini xalqıma böyük qürur hissi ilə çatdırıram, bu müjdəni verirəm. Bu gün bizim yaşadığımız günlər, yaşadığımız anlar, əminəm ki, hər bir azərbaycanlının yaddaşında əbədi qalacaq. Biz tarix yazırıq, yeni tarix. Xalqımızın, ölkəmizin yeni şanlı tarixini yazırıq. Bu, Zəfər tarixidir. Bundan sonra biz, ilk növbədə, işğaldan azad edilmiş torpaqlara vətəndaşlarımızın qaytarılmasını təmin etməliyik. Bütün gücümüzü səfərbər etməliyik. Bütün maddi imkanlarımızı səfərbər etməliyik ki, tezliklə vətəndaşlarımızı doğma torpaqlarına qaytaraq.

Əziz xalqım, əziz ağdamlılar, sizi bu gözəl tarixi hadisə münasibətilə bir daha ürəkdən təbrik etmək istəyirəm. Sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Ağdam bizimdir! Qarabağ Azərbaycandır!

## K.Ə.Seyidova general-mayor ali hərbi rütbəsinin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Kənan Əlihüseyn oğlu Seyidova general-mayor ali hərbi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 20 noyabr 2020-ci il*

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Cənab Ali Baş Komandan!

Zati-alinizin rəhbərliyi ilə qardaş Azərbaycanın işğal altındakı ərazilərini azad etmək üçün başlatdığı mübarizəni böyük fəxr və həyəcanla izlədik. Azərbaycanın ərazi bütövlüyünü təmin etmək üçün həyata keçirdiyiniz inamlı, qətiyyətli və cəsarətli mübarizənin Azərbaycanla yanaşı, türk xalqlarına da yeni coşqu və ümid gətirdiyini qeyd etmək istəyirəm. Böyük dövlət xadimi, mərhum Prezident Heydər Əliyevin hədəf və ideyaları Sizin liderliyinizdə reallaşıb. Belə ki, Azərbaycan torpaqlarının 30 illik işğalı başa çatıb, Türkiyə-Azərbaycan birliyinin təməli daha da möhkəmlənib.

Əziz Qardaşım, "Bir millət, iki dövlət" şüarı ilə hərəkət edən Azərbaycan xalqına və zati-alinizə olan mənəvi dəstəyimizi dünyaya göstərmək məqsədilə noyabrın 2-də ölkənizə səfərimiz zamanı yüksək qonaqpərvərliklə qarşılandıq. Məni və dostlarımı qəbul etdiyinizə görə Sizə səmimi-qəlbdən təşəkkür edirəm. Bununla yanaşı, görüşlərimizin Azərbaycan, Türkiyə və hətta beynəlxalq mediada geniş işıqlandırılması "Bir millətin iki diasporu olmaz" fikrinin bariz nümunəsi oldu.

Başda Prezidentimiz Rəcəb Tayyib Ərdoğan olmaqla, Anadoludakı türk qardaşlarınızın haqlı mübarizənizdə daim yanınızda olduğunu və bundan sonra da hər zaman olacağını bilməyinizi istəyirəm.

Siz Azərbaycan Ordusunun gücünü nümayiş etdirdiniz və işğalçı erməni ordusunu qarşınızda diz çökdürdünüz. Bununla da "Qarabağ Azərbaycandır!" ifadəsinin həqiqiliyini bütün dünyaya göstərdiniz.

Qələbəniz mübarək olsun! Allah Azərbaycanı və azərbaycanlı bacı-qardaşlarımızı qorusun!

*Cənab Prezidentim, dərin hörmət və ehtiramla,*

***Binəli YILDIRIM,***
***Türkiyə Respublikasının sabiq Baş naziri,***
***Türkiyə Böyük Millət Məclisinin (TBMM) sabiq sədri, millət vəkili***

❖❖❖

Hörmətli cənab Prezident!

Böyük Britaniya-Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri kimi Sizi tarixi sülh razılaşmasının imzalanması münasibətilə təbrik edirəm.

Böyük Britaniya-Azərbaycan parlamentlərarası dostluq qrupu Azərbaycanın tarixi torpaqlarının geri qaytarılmasını nəzərdə tutan bu sülh razılaşmasını ürəkdən alqışlayır.

Biz həmçinin yeni razılaşmaya əsasən Dağlıq Qarabağın Azərbaycana qaytarılması və Ermənistanın silahlı qüvvələrini bir neçə həftə ərzində ətraf ərazilərdən çıxarması barədə xəbərdən məmnunuq.

Cənab Prezident, münaqişə müddətində təmkinli və qətiyyətli davranmağınız münasibətilə Sizi və Azərbaycan xalqını təbrik edirik. Biz Azərbaycanın Böyük Britaniya parlamentindəki dostları olaraq bu münaqişə ilə bağlı təbliğat aparılması və Azərbaycanın haqlı mövqeyinin dünyaya çatdırılması istiqamətində səylərimizi bundan sonra da davam etdirəcəyimizi bir daha vurğulayırıq.

*Hörmətlə,*

***Bob BLƏKMƏN,***
***Böyük Britaniya parlamentinin İcmalar Palatasının üzvü,***
***Azərbaycanla dostluq qrupunun sədri***

❖❖❖

Hörmətli cənab Prezident!

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qəyyumlar Şurasının 17-ci beynəlxalq toplantısında yekdilliklə qəbul olunan müraciəti şəxsən öz adımdan, həmsədrimiz İsmail Serageldinin və Qəyyumlar Şurasının bütün üzvləri adından zati-alinizə çatdırmaqdan şərəf hissi duyuram.

Biz Ermənistanın beynəlxalq hüquqa zidd olaraq 30 ilə yaxındır işğal altında saxladığı Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin və ona bitişik ərazilərin azad edilməsi münasibətilə Azərbaycan xalqına, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi Sizə səmimi təbriklərimizi çatdırırıq. Azərbaycanın ərazi bütövlüyünün bərpası istiqamətində göstərilən əhəmiyyətli səylər nəticəsində qazandığınız inamlı qələbə, vəziyyətin sabitləşdirilməsi, eləcə də daha çox qan tökülməsinin qarşısını almaq məqsədilə Ermənistan və Rusiya Federasiyası ilə birgə üçtərəfli razılaşma imzalamağınız münasibətilə Azərbaycanı təbrik edirik.

Son qarşıdurmalar zamanı baş verən insan tələfatı, həmçinin münaqişə zonasından kənarda yerləşən tarixi Gəncə şəhərində qətlə yetirilmiş mülki şəxslər ilə əlaqədar Sizə dərin hüznlə başsağlığı veririk. İşğal olunmuş əraziləri tərk edən ermənilər tərəfindən qəsdən törədilən dağıntıları və vandalizm aktlarını təəccüb və böyük narahatlıqla qarşılayırıq. Biz inanırıq ki, bu qeyri-insani hərəkətlərə və onların səbəb olduğu acınacaqlı nəticələrə baxmayaraq, Sizin müdrik və humanist rəhbərliyinizlə yenidənqurma, insanların öz doğma torpaqlarına qayıdışı, eləcə də sülhün və əmin-amanlığın bərpası ölkənizin gündəliyində duran əsas məsələ olacaq.

2020-ci ilin bu çətin dönəmində biz dünya ictimaiyyətinə bununla bağlı mesajlarımızı çatdırmaq məqsədilə Nizami Gəncəvi Beynəlxalq Mərkəzində beynəlxalq onlayn müzakirələr təşkil edir, məqalələr və onlayn bəyanatlar yayırıq. Biz beynəlxalq səviyyədə apardığımız təbliğat işlərimizi ən yüksəksəviyyəli təmaslarımızda da davam etdiririk, Nizami və Azərbaycan adını daim ən yaxşı şəkildə dünya ictimaiyyətinin diqqətinə çatdırırıq.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin bütün üzvləri adından zati-alinizə möhkəm cansağlığı, dövlətinizə təhlükəsizlik və firavanlıq arzulayırıq.

*Dərin hörmətlə,*

***Vayra VİKE-FREYBERQA,***
***1999-2007-ci illərdə Latviyanın Prezidenti,***
***Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin həmsədri***

❖❖❖

Əs-səlamu-əleykum və rəhmətullahi və bərəkətuhu.

Zati-aliləri.

Qələbə günü və torpaqlarınızın işğaldan azad olunması münasibətilə Azərbaycan xalqını və Sizi təbrik edirik.

Dost Azərbaycan xalqına layiqli və firavan həyat arzulayırıq.

*Hörmətlə,*

***Muxtar Mahmud əl-MUSƏVİ,***
***İraq parlamentinin deputatı***

❖❖❖

Zati-aliləri cənab Prezident!

Ermənistanın işğalı altında olan ərazilərinizin azad edildiyi bu tarixi dönəmdə Sizi və Azərbaycan xalqını təbrik etməkdən şərəf və məmnunluq duyuram.

Sizin əzmkarlığınız, ərazi bütövlüyünüzün təmin edilməsi ilə bağlı qətiyyətiniz, diplomatik və hərbi sahələrdə göstərdiyiniz cəsarət hazırda Azərbaycanın müasir tarixini müəyyən edir. Heç şübhəsiz, Siz xalqınızın tarixində xilaskar kimi əbədi qalacaqsınız.

Bundan başqa, Azərbaycan xalqı bütün dünyaya əzəmətli xalq olmağın əsas xüsusiyyətlərini - rəşadət və yüksək vətənpərvərlik hisslərini nümayiş etdirdi.

Çoxsaylı insan tələfatı ilə əlaqədar Sizə və həlak olanların ailə üzvlərinə dərin hüznlə başsağlığı verirəm.

Azərbaycanın rumıniyalı dostu olaraq bütün dünyaya göstərdiyiniz nümunəyə görə Sizi bir daha təbrik edirəm və zati-alinizə təşəkkürümü bildirirəm.

*Dərin hörmətlə,*

***Ramona Nikol MANESKU,***
***Rumıniyanın sabiq Xarici İşlər naziri,***
***Avropa Parlamentinin sabiq üzvü***

♦Prezidentə yazırlar

# "Cənab Prezident, inanırıq ki, Siz qısa müddətdə Ağdamı bütün Qafqazın ən inkişaf etmiş, ən abad mərkəzlərindən birinə çevirəcəksiniz"

## Ağdam ictimaiyyətinin Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan zati-aliləri cənab İlham Əliyevə müraciəti



**Möhtərəm cənab Prezident!**

Müzəffər sərkərdəlik məharətinizlə şanlı Ordumuzun Qarabağ cəbhəsində qazandığı möhtəşəm hərbi zəfər münasibətilə Sizi ürəkdən təbrik edirik.

İki əsr davam edən münaqişəyə, 30 ildən artıq sürən amansız ayrılığa Siz ədalətli Vətən savaşı ilə birdəfəlik son qoydunuz. Qarabağı işğaldan azad edərək tariximizin ən müqəddəs səhifəsini yazdınız və bu şərəfli salnamənin müəllifinə çevrildiniz. Şuşada dövlətçilik rəmzimiz olan Azərbaycan bayrağını ucaltmaqla isə artıq bütün Qarabağın sahibinin məhz Azərbaycan xalqı olduğunu dünyaya məğrurcasına bəyan etdiniz.

**Cənab Ali Baş Komandan!**

Vətən savaşının zəfərləri silsiləsində Ağdam rayonunun da adının olması bütün ölkə ictimaiyyətinə hədsiz sevinc, iftixar yaşatdı. Biz ağdamlıların hisslərini isə sözlə ifadə etmək mümkün deyil. 27 illik həsrətdən sonra qüdrətli Ordumuzun Ağdam rayonunun işğal edilmiş ərazilərinə daxil olması sakinlərimizin həyatlarının ən xoşbəxt, ən qürurlu günləri oldu.

Ağdamlılar hər zaman Heydər Əliyev dövlətçilik xəttinə - Prezident İlham Əliyev siyasi kursuna sadiq olublar. Ulu Öndərin böyük himayədarlığı sayəsində ötən əsrin 70-80-ci illərində Ağdam misli görünməyən inkişaf və quruculuq mərhələsi yaşadı. Heydər Əliyev Ağdamı güclü, alınmaz qalaya çevirdi. Təsadüfi deyildir ki, ötən əsrin 90-cı illərinin əvvələrində ölkəmiz xaos və müharibəyə sürüklənəndə, Ulu Öndərin hakimiyyətə dəvət edilməsi məqsədilə ilk mitinqlərdən biri də məhz "Nicatımız, xilasımız yalnız Heydər Əliyevlədir" çağırışı ilə Ağdamda keçirildi.

Ədalətsiz müharibə başlanandan Ağdam sakinləri az qala yalın əllə, primitiv silahlarla döyüşə atıldı, 6 mindən artıq övladımız şəhid oldu, minlərlə insanımız əlillik qazandı. Lakin dövlətimizin sahibsizliyi həm də düşmənlə üz-üzə qalan Ağdamın himayəsiz qalmasına səbəb oldu. Təəssüf ki, ölkədəki məlum siyasi oyunlardan, hərc-mərclikdən sui-istifadə edən təcavüzkar Ermənistan havadarlarının yardımı ilə Ağdamı - Qarabağın alınmaz saydığımız giriş qapısını işğal etdilər.

Ulu Öndərin hakimiyyətə gəlişindən sonra artıq məcburi köçkün statusunda olan ağdamlılara böyük qayğı, dəstək göstərildi. Ağdamlılara Heydər Əliyev yenə də sahib çıxdı, onların üzləşdikləri problemlərin həllinə daim yardım göstərdi.

Ulu Öndərimizin özü qədər inandığı Sizə biz də inandıq, seçkilərdə daim yekdil dəstəyimizi nümayiş etdirdik. Siz də Ümummilli Liderin bu himayədarlıq ənənəsini təəssübkeşliklə davam etdirdiniz. On minlərlə ağdamlı Sizin sayənizdə yeni salınmış şəhərciklərdə mənzillə, dövlətin müavinəti, sosial yardımları ilə təmin olundu, daha güvənli həyat sürdü...

Və nəhayət, Siz bizləri indi öz doğma ata-baba yurdumuza, Ağdamımıza qaytarırsınız!

**Möhtərəm Prezident!**

Ağdam camaatının Sizə, həmçinin bizə çox dəyərli olan Mehriban xanım Əliyevaya olan məhəbbətini, ehtiramını ifadə etməyə söz də yetişmir. Siz biz ağdamlıların həyatında artıq yeni bir mərhələnin - ən müqəddəs dövrün müəllifisiniz.

Sizin sərkərdəlik şücaətiniz, liderlik bacarığınız, diplomatik istedadınız nəticəsində ağdamlıların taleyində yeni bir həyat başlayır. Biz yalnız köçkünlük həyatımıza son qoymuruq, həm də öz yurdumuzu yenidən qurmağa imkan qazanırıq.

Əminik, Ulu Öndər Heydər Əliyev necə ki, ötən əsrin 70-80-ci illərində Ağdamı Azərbaycanın ən abad, ən rifahlı bölgələrindən birinə çevirmişdi, Siz də qısa müddətdə Ağdamı bütün Qafqazın ən inkişaf etmiş, ən abad mərkəzlərindən biri kimi yenidən yaradacaqsınız.

**Hörmətli Prezident!**

Sizə və hörmətli Mehriban xanım Əliyevaya doğma yurdumuzu bizə zəfərlə qaytardığınıza görə Ağdamın yüz minlərlə sakini adından əbədi minnətdarlığımızı və borcumuzu bildiririk.

Ağdamlılar hər zaman Sizinlə, Heydər Əliyev dövlətçilik xətti ilə bir olublar, bundan sonra da bu yolla daim sədaqətlə, fədakarlıqla gedəcəklər.

*Ağdam ictimaiyyəti adından:*

***Vaqif HƏSƏNOV,***
*Ağdam Rayon İcra Hakimiyyətinin başçısı*
***Adilə NAMAZOVA,***
*akademik, Əməkdar elm xadimi*
***Nərgiz AXUNDOVA,***
*akademik*
***Dilqəm TAĞIYEV,***
*AMEA-nın vitse-prezidenti, Kataliz və Qeyri-üzvi Kimya İnstitutunun direktoru, akademik*
***Bəxtiyar SADIQOV,***
*Milli Məclisin deputatı, "Azərbaycan" qəzetinin baş redaktoru, Əməkdar jurnalist*
***Bəxtiyar ƏLİYEV,***
*Milli Məclisin Elm və təhsil komitəsinin sədri, AMEA-nın müxbir üzvü, Bakı Dövlət Universitetinin kafedra müdiri*
***Ədalət MURADOV,***
*Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, iqtisad elmləri doktoru, professor*
***Lətif HÜSEYNOV,***
*Avropa İnsan Hüquqları Məhkəməsinin hakimi, hüquq elmləri doktoru, professor*
***Natiq CAVADOV,***
*Milli Aerokosmik Agentliyin baş direktoru, professor, Beynəlxalq və Azərbaycan Mühəndislik Akademiyasının həqiqi üzvü*

***Həbib HƏSƏNOV,***
*Bakı Hərbi Məhkəməsinin sədri*
***Arif BABAYEV,***
*professor, Xalq artisti, Milli Konservatoriyanın Muğam kafedrasının müdiri*
***Mənsum İBRAHİMOV,***
*professor, Xalq artisti, Prezident mükafatçısı*
***Ramiz QULİYEV,***
*Xalq artisti, Dövlət Mükafatı laureatı*
***Nazim ƏLİYEV,***
*hüquq elmləri doktoru*
***Habil QURBANOV,***
*hüquq elmləri doktoru, professor, AMEA Həmkarlar Təşkilatının sədri*
***Mürsəl ƏLİYEV,***
*texnika elmləri doktoru*
***Şahin RÜSTƏMOV,***
*Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin Aparat rəhbərinin müavini*
***Fikrət ƏLİYEV,***
*hakim*
***Çingiz İSKƏNDƏROV,***
*hakim*
***Şahin BAYRAMOV,***
*Mingəçevir Dövlət Universitetinin rektoru, iqtisad üzrə fəlsəfə doktoru*
***Toğrul RƏHİMOV,***
*"Azərişıq" ASC sədrinin müşaviri*
***İxtiyar HÜSEYNLİ,***
*Azərbaycan Respublikasının Əməkdar jurnalisti*

***Baxşeyiş ƏSGƏROV,***
*hüquq elmləri üzrə fəlsəfə doktoru*
***Aygün BAYRAMOVA,***
*Xalq artisti*
***Nəzakət TEYMUROVA,***
*Xalq artisti*
***Allahverən ƏLİYEV,***
*YAP Ağdam rayon təşkilatının sədri*
***Əvəz MİKAYILOV,***
*Rayon Ağsaqqallar Surasının sədri*
***Arzu RƏHİMOVA,***
*Rayon Qadınlar Şurasının sədri*
***Həmzə ƏLİYEV,***
*ağsaqqal*
***Aybəniz CƏFƏROVA,***
*ağbirçək, ziyalı*
***Gülnurə MURADOVA,***
*Əməkdar müəllim*
***Tünzalə VƏLİMƏMMƏDOVA,***
*Əməkdar müəllim*
***Elmir MƏMMƏDOV,***
*ağsaqqal*
***Tapdıq QARAŞOV,***
*ağsaqqal*
***Nizami SADIQOV ,***
*ağsaqqal*
***Zülfü QASIMOV,***
*ağsaqqal*
***Misirxan MİSİRXANOV,***
*ağsaqqal*
***Marif HÜSEYNOV,***
*ağsaqqal*
***Səlim ƏZİMOV,***
*ağsaqqal*

***Mir Yusif ƏLİYEV,***
*ağsaqqal*
***İlyas BAĞIROV,***
*ağsaqqal, həkim*
***Ceyran ƏLİYEVA,***
*Xalçaçılıq müəssisəsinin direktoru*
***Hüseynalı HÜSEYNOV,***
*kimya elmləri namizədi*
***Xudu XUDİYEV,***
*həkim*
***Elza İSAYEVA,***
*Əməkdar müəllim*
***Gülyaz QURBANOVA,***
*ağbirçək, ziyalı*
***Çimnaz ƏLİYEVA,***
*ağbirçək, ziyalı*
***Şahin QASIMOV,***
*ağsaqqal*
***Rövşən CAVADOV,***
*psixologiya elmləri namizədi*
***Təyyar BAYRAMOV,***
*Əməkdar artist*
***Fehruz MƏMMƏDOV,***
*Əməkdar artist*
***Səbuhi İBAYEV,***
*Əməkdar artist*
***Elnur ZEYNALOV,***
*Əməkdar artist*
***Cabir ABDULLAYEV,***
*Əməkdar artist*
***Mustafa MUSTAFAYEV,***
*yazıçı-publisist*
***Elza QAYBALIYEVA,***
*xanəndə*

## Milli Məclisin iclasında

# Qarabağ zəfəri yeni orden və medallarla əbədiləşdiriləcək



*Əvvəli 1-ci səh.*

Bir müddət öncə isə Fransa Senatında təmsil olunan 5 ən böyük siyasi fraksiyanın liderləri tərəfindən Ermənistanın işğalı altında olan Azərbaycan ərazilərində yaradılmış qeyri-qanuni rejimin tanınması məqsədilə qətnamə layihəsi irəli sürülüb. Cari ilin oktyabr ayında Fransa parlamentinin Aşağı Palatasında bənzər qətnamənin irəli sürüldüyünü xatırladan Sahibə Qafarova onu da bildirdi ki, bəzi fransız parlamentarilər hərbi əməliyyatların aktiv mərhələsində qanunsuz olaraq Azərbaycanın işğal olunmuş ərazilərinə səfər etmiş və cinayətkar xunta rejimi ilə həmrəylik nümayiş etdirmişlər.

Parlament rəhbəri dedi ki, sadalanan faktlar Fransanın siyasi rəhbərliyinin ATƏT-in Minsk qrupunun həmsədri kimi vasitəçilik prinsiplərini pozaraq açıq şəkildə qərəzli mövqe ortaya qoyduğunu təsdiq edir. Belə anlaşılır ki, bu ölkənin bəzi siyasi dairələri tərəfindən atılan addımlar və hərəkətlər Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə qarşı yönəlib. Bu addımlar Fransanın beynəlxalq hüquq, BMT Nizamnaməsi və ATƏT-in Helsinki Yekun Aktına uyğun müəyyən edilmiş öhdəlikləri ilə də ziddiyyət təşkil edir və Fransanın neytrallığına, ATƏT-in Minsk qrupunun üzvü kimi münaqişənin həllinə vasitəçilik mandatına kölgə salır. Vasitəçi mandatı beynəlxalq hüquqla müəyyənləşdirilmiş prinsiplərə söykənməli, məsuliyyətli və etibarlı davranışlarla müşayiət olunmalıdır. Vasitəçilər ölkələrin suverenliyinə hörmətlə yanaşmalı, qərəzsiz, obyektiv və ədalətli olmalıdırlar. Bu məsələlər beynəlxalq hüquqi sənədlərdə də aydın şəkildə əks olunubdur.

Milli Məclisin Sədri Azərbaycan-Fransa parlamentlərarası əlaqələr üzrə işçi qrupu ilə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi üzvlərinin bu məsələyə diqqət yetirməsini vacib saydı.

Məsələ ətrafında müzakirələrdə parlamentin komitə sədrləri Səməd Seyidov, Zahid Oruc, deputatlar Cavanşir Feyziyev, Məlahət İbrahimqızı, Sevil Mikayılova, Nigar Arpadarai, Fəzail Ağamalı, Arzu Nağıyev, Tural Gəncəliyev, Ceyhun Məmmədov, Aydın Mirzəzadə, Vahid Əhmədov çıxış edərək Fransanın tutduğu qərəzli mövqeyi tənqid etdilər. Çıxışlarda vurğulandı ki, ATƏT-in Minsk qrupunun həmsədri olaraq neytrallığını qoruya bilməyən və işğalçı Ermənistanın tərəfini tutan Fransanın mandatının ləğv edilməsi üçün hüquqi prosedurlara başlanılmalıdır.

Sonra gündəlikdəki məsələlərin müzakirəsi başladı. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Əli Məsimli "Azərbaycan Respublikasının iqtisadi müstəqilliyinin əsasları haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununda dəyişiklik edilməsi barədə (ikinci səsvermə) məsələni təqdim etdi. Bildirdi ki, Azərbaycan Konstitusiyasının 156-cı maddəsini rəhbər tutaraq adı çəkilən qanunun 19-cu maddəsində "əlillərin" sözünün "əlilliyi olan şəxslərin" sözləri ilə, "əlilin" sözünün isə "əlilliyi olan şəxsin" sözləri ilə əvəz edilməsi nəzərdə tutulur.

Məlumat dinlənildikdən sonra deputatlar bununla bağlı qanun layihəsinə ikinci oxunuşda səs veriblər.

Plenar iclasda çıxış edən Siyavuş Novruzov və Aydın Hüseynov noyabrın 21-də 28 yaşı tamam olan, Ümummilli Lider Heydər Əliyev tərəfindən yaradılmış Yeni Azərbaycan Partiyasının ölkəmizin müstəqilliyi tarixindəki və qazanılan nailiyyətlərdəki rolundan söz açaraq YAP üzvlərinə təbriklərini və xoş arzularını çatdırdılar.

Gündəlikdəki növbəti iki qanun layihəsini - "Vətən Müharibəsində qələbə münasibətilə" Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə (birinci oxunuş) və "Azərbaycan Respublikasının "Vətən Müharibəsi Qəhrəmanı" adının təsis edilməsi haqqında" qanun layihəsini (birinci oxunuş) təqdim edən Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirdi ki, Ali Baş Komandan İlham Əliyev birinci xanım Mehriban Əliyeva ilə 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşdə bu müjdəni vermişdi. Azərbaycan Prezidenti bildirmişdi ki, "mən bütün bu 44 gün ərzində, ondan əvvəl və ondan sonra döyüş meydanında, arxa cəbhədə qəhrəmanlıq göstərmiş hərbçilərimizi təltif edəcəyəm. Azərbaycanda yeni ordenlər və medallar təsis ediləcək. Məhz Vətən müharibəsində fərqlənmiş hərbçilərə və mülki şəxslərə bu orden və medallar veriləcək. Bu orden və medalların adlarını da mən təklif etmişəm. Hesab edirəm ki, bu adlar da sizin xoşunuza, Azərbaycan xalqının xoşuna gələcək".

Əli Hüseynli vurğuladı ki, təsis olunan yeni orden və medallar birmənalı şəkildə dövlətçilik atributlarını, hərbi və milli atributları əks etdirir. Hazırda Azərbaycanın 10 ordeni və 64 medalı var. Cənab Prezident tərəfindən isə yeni 2 orden - "Zəfər" və "Qarabağ", 15 yeni medal təklif edilib.

İclasda spiker Sahibə Qafarovanın təşəbbüsü ilə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin canlı yayımda xalqa müraciəti birbaşa olaraq Milli Məclisin plenar iclas zalında yayımlandı. Deputatlar müzəffər Azərbaycan Ordusunun Qarabağda əldə etdiyi zəfərdən sonra imzalanan bəyanat çərçivəsində Ağdama daxil olması ilə əlaqədar Ali Baş Komandanın xalqa müraciətini qürur hissi ilə, diqqətlə dinlədilər.

"Vətən Müharibəsində qələbə münasibətilə" Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi və "Vətən Müharibəsi Qəhrəmanı" adının təsis edilməsi ilə əlaqədar qanun layihələri birinci oxunuşda qəbul edildi.

İclasda işğaldan azad edilmiş rayonlarda yaşayış məntəqələrinin adlarının dəyişdirilməsi barədə iki qanun layihəsi də müzakirə edildi. "Azərbaycan Respublikasının Xocalı rayonunun Quşçubaba kəndinin Baharlı kəndi adlandırılması haqqında" və "Azərbaycan Respublikasının Xocavənd rayonunun Tsakuri kəndinin Hünərli kəndi adlandırılması haqqında" qanun layihələrini təqdim edən Milli Məclisin Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov dedi ki, hər iki məsələyə Toponimiya komissiyasında da baxılıb və müsbət dəyərləndirilib. Komitə sədri bildirdi ki, torpaqlarımızın işğal altında qaldığı dövrdə erməni vandalları tərəfindən Azərbaycanda 403-dək tarixi-dini abidə dağıdılıb ki, onlardan 67-si məscid, 114-ü məbəd, 192-si isə ziyarətgahlardır.

Qanun layihələri təsdiq edildi.

Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev Azərbaycan Respublikasının Meşə Məcəlləsində, Torpaq Məcəlləsində, Mülki Məcəllədə, "Torpaq islahatı haqqında", "Torpaq bazarı haqqında", "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında", "Dövlət rüsumu haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında" və "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə sənədi üçüncü oxunuşda parlamentin müzakirəsinə təqdim etdi. Qanun layihəsi üçüncü oxunuşda təsdiqləndi.

Azərbaycan Respublikasının Əmək Məcəlləsində və Ailə Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə (üçüncü oxunuş) Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev məlumat verdi. Bildirdi ki, təqdim olunan layihə "Tibbi sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə" 2019-cu il 3 dekabr tarixli qanunun icrası ilə əlaqədar olub, uyğunlaşdırma xarakteri daşıyır. Qanun layihəsi üçüncü oxunuşda qəbul olundu.

Plenar iclasda "Hərbi qulluqçuların statusu haqqında", "Əhalinin sağlamlığının qorunması haqqında", "Yol hərəkəti haqqında", "Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında", "Avtomobil yolları haqqında", "Özəl tibb fəaliyyəti haqqında", "Dövlət qulluğu haqqında", "Psixiatriya yardımı haqqında", "Onkoloji yardım haqqında" və "Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi haqqında (üçüncü oxunuş) Parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərovun məlumatı dinlənildi.

Müzakirələr zamanı deputatlar bildirdilər ki, Vətən müharibəsində Qələbənin qazanılmasında müstəsna və əvəzsiz rol oynayan, Azərbaycan xalqının ürəyində bu gün xilaskar və qəhrəman şəxsiyyət kimi yer tutan Ali Baş Komandanımızın da təltif olunması vacibdir. Deputatlar bu mənada daha bir ordenin təsis edilməsi barədə təkliflərini irəli sürdülər. Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda təsdiq olundu.

"Tibbi sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) təqdim edən parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov diqqətə çatdırdı ki, qanuna edilən dəyişiklik "Əhalinin sağlamlığının qorunması haqqında" qanuna uyğunlaşdırma xarakteri daşıyır. Qanun layihəsi qəbul edildi.

"Dövlət qulluğu haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ikinci oxunuşda müzakirəyə çıxarıldı. Bildirildi ki, birinci oxunuşda olan təkliflərlə əlaqədar Dövlət İmtahan Mərkəzinin nümayəndəsinin iştirakı ilə geniş komitə iclası keçirilib. Dövlət qulluğu sisteminin təkmilləşməsini hədəfləyən təkliflər Dövlət İmtahan Mərkəzinə təqdim olunub, Dövlət Qulluğu Məcəlləsinin layihəsi hazırlanarkən həmin təkliflər nəzərə alınacaq.

Qanun layihəsi ikinci oxunuşda qəbul olundu.

Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Ətraf mühitin mühafizəsi haqqında" qanuna (birinci oxunuş) təklif edilən dəyişikliklər barədə ətraflı məlumat verdi. Qeyd etdi ki, layihə ölkə Prezidentinin "Azərbaycanda plastik qablaşdırma tullantılarının ətraf mühitə təsirinin azaldılmasına dair 2019-2020-ci illər üçün Tədbirlər Planı"na əsasən hazırlanıb.

Komitə sədri statistik məlumatlara istinadən plastik tullantıların ətraf mühitə vurduğu ziyan barədə geniş məlumat verdikdən sonra çıxış edənlər məsələ ilə bağlı rəy və təkliflərini bildirdilər. Qanun layihəsi birinci oxunuşda qəbul olundu.

İnzibati Xətalar Məcəlləsinə dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) haqqında Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli məlumat verdi. Bildirildi ki, sənəd uyğunlaşdırma xarakteri daşıyır və ekoloji təhlükəsizliyi pozan həm vəzifəli şəxslər, həm də hüquqi şəxslər üçün ciddi məbləğdə cərimələr nəzərdə tutulub. Deputatlar qanun layihəsinə birinci oxunuşda müsbət münasibət bildirdilər.

İclasda son olaraq "Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin 100 illiyi (1920-2020)" Azərbaycan Respublikasının yubiley medalının təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə (birinci oxunuş) məsələ müzakirə olundu. Deputat Aydın Mirzəzadə belə bir yubiley medalının təsis olunmasını təqdirəlayiq hal kimi dəyərləndirdi. Layihə səsə qoyularaq təsdiq edildi.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# MDB dövlətlərinin Təhlükəsizlik şuraları katiblərinin toplantısında Azərbaycanın koronavirusla mübarizə və digər sahələrdə uğurlu fəaliyyətindən danışılıb

Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi Ramil Usubov noyabrın 18-də Rusiya tərəfinin təşkilatçılığı ilə videokonfrans formatında keçirilən Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Təhlükəsizlik şuraları katiblərinin səkkizinci görüşündə iştirak edib.



Azərbaycan Respublikası Təhlükəsizlik Şurası Katibinin Xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ramil Usubov tədbirdə çıxış edərək koronavirus infeksiyasının yayılmasına qarşı mübarizədə Azərbaycanda görülmüş işlər, o cümlədən bu sahədə ölkənin səhiyyə sistemi tərəfindən həyata keçirilmiş effektiv tədbirlər barədə məlumat verib. O, qeyd edib ki, Azərbaycan koronavirus infeksiyasının yayılmasına qarşı mübarizədə ilk günlərdən başlayaraq qlobal həmrəylik nümayiş etdirib, Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon dollar məbləğində maliyyə vəsaiti ayırıb, 30-dan çox ölkəyə maddi və humanitar yardım göstərib. Pandemiya dövründə ölkədə iqtisadi sabitliyin təmin olunması istiqamətində görülmüş tədbirlər barədə məlumat verilərkən ölkədə məşğulluğun təmin olunması və səhiyyə üçün dövlət tərəfindən 1,5 milyard dollar məbləğində maliyyə vəsaitinin ayrıldığı, 5 milyon insanı əhatə edən sosial paketin reallaşdırıldığı bildirilib.

Yoluxma hallarının sayında artım tempinin müşahidə olunduğunu qeyd edən R.Usubov cari il dekabrın 3-4-də pandemiya ilə mübarizəyə həsr olunmuş BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsi barədə Qoşulmama Hərəkatının sədri qismində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən irəli sürülmüş təşəbbüsün bütün dünya dövlətləri tərəfindən müsbət qarşılandığını vurğulayıb.

Həmçinin tədbir iştirakçıları əhalinin infeksion xəstəliklərdən qorunması məqsədilə ölkədə biotəhlükəsizliyin təmin olunması istiqamətində həyata keçirilən preventiv tədbirlər barədə məlumatlandırılıb.

R.Usubov çıxışında Azərbaycanın rəqəmsal iqtisadiyyat və innovasiyaların tətbiqi sahəsində fəaliyyəti, Avropa ilə Asiya arasında "Rəqəmsal İpək yolu"nun yaradılması məqsədilə Mərkəzi Asiya dövlətlərinin telekommunikasiya operatorları ilə əlaqələrin qurulması üzrə yeni layihə barədə məlumat verib.

Eyni zamanda Azərbaycan ilə Mərkəzi Asiya dövlətləri arasında mövcud olan siyasi dialoq, ölkəmizin bu dövlətlər üçün Avropa məkanına etibarlı körpü rolunu oynaması qeyd olunub.

Əfqanıstanda sülhün və təhlükəsizliyin qorunmasının bütün region üçün vacibliyini vurğulayan R.Usubov Azərbaycanın həmin dövlətlə iqtisadi, ticarət, enerji, nəqliyyat və digər sahələrdə əməkdaşlıq həyata keçirməklə sabitliyin qorunması işinə daim öz töhfəsini verdiyini bildirib.

İnformasiya təhlükəsizliyi məsələsinə toxunan R.Usubov müvafiq sahədə zəruri qanunvericilik bazasının formalaşdırıldığını, bu istiqamətdə ölkəmizin milli təhlükəsizliyinə yönələn təhdidlər haqqında məlumat verib.

O, işğal olunmuş ərazilərimizin azad edilməsi uğrunda həyata keçirilən hərbi əməliyyatlar zamanı Azərbaycanın informasiya təcavüzünə məruz qaldığını, mövcud vəziyyəti düzgün anlamağa imkan verməyən yalan məlumatların müxtəlif xarici kütləvi informasiya vasitələri və internet saytlar vasitəsilə ictimaiyyətə catdırıldığını qeyd edib.

Sonda qlobal çağırış və müasir təhdidlərə qarşı mübarizədə ümumi səylərin birləşdirilməsinin zəruriliyi vurğulanıb.

Görüşdə Rusiya, Belarus, Qazaxıstan, Moldova, Ermənistan, Tacikistan, Türkmənistan, Özbəkistan Təhlükəsizlik şuralarının katibləri, eləcə də MDB İcraiyyə Komitəsinin sədri və Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının baş katibi də iştirak ediblər.

# *Əli ƏHMƏDOV:* "Yeni Azərbaycan Partiyası Azərbaycanın şərəfli tarixinin yaşıdı, möhtəşəm uğurlarımızın ilham mənbəyidir"

Azərbaycan Respublikası Baş Nazirinin müavini, YAP sədrinin müavini - icra katibi Əli Əhmədov Yeni Azərbaycan Partiyasının yaranmasının 28-ci ildönümü münasibətilə özünün rəsmi "Facebook" səhifəsində paylaşım edib. AZƏRTAC Əli Əhmədovun qeydlərini təqdim edir.



Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi altında Yeni Azərbaycan Partiyasının təsis olunmasından 28 il keçir. Yeni Azərbaycan Partiyası müstəqilliyinə qovuşan ölkəmizin həyatının ən təlatümlü, həyəcanlı zamanında, torpaqlarımızın erməni işğalçıları tərəfindən zəbt edildiyi günlərdə yaradılırdı. Təsis edilməsinin 28-ci ildönümünü isə partiyamız ölkəmizin tarixinin ən şanlı anlarında - işğal edilmiş torpaqlarımızın azad edildiyi dövrdə qeyd edir. Yəqin ki, Yeni Azərbaycan Partiyasının builki ildönümü onun ən şərəfli, yaddaqalan ad günü olacaqdır. Partiyamızın yaradıcısı Ümummilli Lider Heydər Əliyev ötən əsrin 90-cı illərinin əvvəllərində total böhran içində boğulan, parçalanmaqda olan Azərbaycanı qurtuluşa qovuşdurub qüdrətli, müstəqil Azərbaycan dövlətini qurduğu kimi, onun layiqli davamçısı Prezident İlham Əliyev ölkəmizi torpaqlarımızın 30 illik işğalından xilas etdi. Yeni Azərbaycan Partiyası Azərbaycanın şərəfli tarixinin yaşıdı, möhtəşəm uğurlarımızın ilham mənbəyidir. Müasir Azərbaycanın həyatının ən möhtəşəm anları, ən nəhəng uğurları və tarixi qələbələri onun liderləri olan Heydər Əliyevin və İlham Əliyevin adları ilə bağlıdır. 1990-cı illərin əvvəllərində böhranların ağır mənqənəsində boğulan Azərbaycanın çiçəklənən gənc dövlətə, məğlub ölkədən qalib ölkəyə çevrilməsi yaşadığımız və şahidi olduğumuz tarixin heyrətamiz inkişafıdır.

Yeni Azərbaycan Partiyası ecazkar siyasi taleyi olan təşkilat sayıla bilər və sayılmalıdır. Yaradılmasından cəmi 6 ay sonra hakim partiyaya çevrilməsindən tutmuş, Azərbaycanın həyatında baş verən ən nəhəng uğur və nailiyyətlərə qədər mütərəqqi və qürurverici nə varsa, ona rəhbərlik etmiş iki dahi şəxsiyyətin - Heydər Əliyevin və İlham Əliyevin sayəsində mümkün olub. Bu sırada xalqımızın tarixinin və taleyinin ən şərəfli hadisəsi - 30 illik işğaldan sonra doğma Qarabağın azad edilməsi xüsusi yer tutur. Torpaqlarımızın azad edilməsi ölkəmizin həyatında keyfiyyətcə yeni mərhələnin başlanğıcını qoyur. Bu, yeni imkanlar, yeni uğurlar, yeni zirvələr mərhələsi olacaq.

Yeni Azərbaycan Partiyasının yaradılmasının növbəti ildönümündə böyük hörmət və ehtiramla Ümummilli Lider Heydər Əliyevin əziz xatirəsini yad edirəm. Əlamətdar gün və tarixi qələbə münasibətilə Yeni Azərbaycan Partiyasının sədri, Prezident, Ali Baş Komandan İlham Əliyevi səmimi-qəlbdən təbrik etmək istəyirəm. Eləcə də Yeni Azərbaycan Partiyasının yaradılmasının 28-ci ildönümü və tarixi qələbələr münasibətilə partiyamızın bütün üzvlərini təbrik edirəm.

# Uşaq Hüquqları haqqında Konvensiyanın 31-ci ildönümü münasibətilə beynəlxalq konfrans keçirilib

Noyabrın 20-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin dəstəyi və Uşaq Səfirlər Məclisinin təşəbbüsü ilə BMT-nin Uşaq Hüquqları haqqında Konvensiyasının 31-ci ildönümü münasibətilə "Uşaq hüquqları: uşaqlar müzakirəyə qoşulur" mövzusunda onlayn beynəlxalq konfrans keçirilib.

AZƏRTAC xəbər verir ki, 20 Noyabr-Uşaq Hüquqlarının Müdafiəsi Günü münasibətilə uşaqları təbrik edən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova hər bir ölkənin gələcəyinin uşaqların düzgün tərbiyə olunmasından, təhsil səviyyəsindən, milli-mənəvi, eləcə də insani keyfiyyətlərinin püxtələşməsindən asılı olduğunu bildirib.

Azərbaycanda uşaq hüquqlarının tam şəkildə reallaşması məqsədilə mükəmməl hüquqi bazanın yaradıldığını qeyd edən komitə sədri bu günün dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da yüksək səviyyədə qeyd edildiyini, eyni zamanda Uşaq Hüquqları üzrə Konvensiyanı 1992-ci ildə ratifikasiya edən ilk dövlətlərdən birinin elə məhz ölkəmiz olduğunu diqqətə çatdırıb. B.Muradova Konvensiyanın BMT tərəfindən qəbul edilmiş bir saziş kimi uşaqların yaşaması və inkişafı üçün zəruri olan minimum standartları müəyyən etdiyini və uşaq hüquqlarının təmin edilməsi sahəsində ilk universal kodeks olduğunu vurğulayıb.

Bahar Muradova Komitənin bütün tərəfdaşlarla birgə uşaq siyasətinin həyata keçirilməsi istiqamətində üzərinə düşən öhdəlikləri yerinə yetirməyə çalışdığını və bu işdə uşaqların da yaxından iştirak etdiyini, maraqlı fikir və təkliflərini bölüşərək ümumi işə böyük töhfələr verdiklərini bildirib. Azərbaycan Respublikası Prezidentinin 2020-ci ilin "Könüllülər ili" elan edilməsi ilə əlaqədar Komitə tərəfindən yaradılan Uşaq Səfirlər Məclisinin fəaliyyətinin əhəmiyyətini qeyd edən B.Muradova deyib ki, Məclisin yaradılmasında məqsəd uşaqların öz hüquqlarının müdafiəsində iştirakının təmin olunması, eləcə də onlarda müstəqil özünüifadəetmə bacarığının, idarəetmə mədəniyyətinin formalaşdırılmasıdır.



Müxtəlif ölkələrdən uşaqların iştirakı ilə keçirilən beynəlxalq konfransda Azərbaycanı təmsil edən Yunis Quliyev, Rifah Zeynalov və Rüfət Məmmədov ölkəmizdə uşaq hüquqlarının müdafiəsi, onların hərtərəfli inkişafının təmin olunması istiqamətində həyata keçirilən vacib tədbirləri və atılan mühüm addımları diqqətə çatdırıblar. Bildirilib ki, Azərbaycanda uşaq hüquqlarının müdafiəsi təkcə müvafiq qanunvericilik aktlarının qəbul edilməsi ilə yekunlaşmır, eyni zamanda bu istiqamətdə konkret tədbirlərin təşkil olunması yolu ilə reallaşdırılır və bu işdə uşaqların iştirakının təmin olunması üçün əlverişli şərait yaradılır.

Konfrans çərçivəsində uzun illər davam edən Ermənistan-Azərbaycan münaqişəsi haqqında məlumat verən çıxışçılar bu münaqişədən xüsusilə uşaqların əziyyət çəkdiyini, sentyabrın 27-dən başlayan və ölkəmizin Qələbəsi ilə bitən Vətən müharibəsi zamanı mülki əhaliyə qarşı yönələn erməni terroru nəticəsində 12 uşağın qətlə yetirilməsinin, 50 uşağın yaralanmasının uşaq hüquqlarının pozulmasının bariz nümunəsi olduğunu diqqətə çatdırıblar.

Konfransda 14 ölkədən, ümumilikdə, 25 uşaq iştirak edib.

Böyük Britaniya, Türkiyə, Latviya, Macarıstan, Qırğızıstan, Özbəkistan, Qazaxıstan, Pakistan, Gürcüstan, Rusiya, Hindistan, İran, Birləşmiş Ərəb Əmirliklərinin təmsilçiləri çıxışlarında bütün uşaqlar üçün bərabər imkanların yaradılması, təhsil, səhiyyə və ictimai xidmətlərə çıxışın təmin edilməsi, uşaqların zorakılıqdan müdafiəsi, erkən nikahların, uşaq əməyinin, uşaq istismarının qarşısının alınması, eyni zamanda uşaqlar üçün təhlükəsiz dünyanın yaradılması, uşaq hüquqlarını əhatə edən məsələlərlə bağlı qərarların qəbulunda onların iştirakçılığının təmin olunmasının əhəmiyyətini vurğulayıblar.

Pakistan və Böyük Britaniyanı təmsil edən iştirakçılar xüsusilə münaqişə nəticəsində uşaqların zərər çəkməsi, onların doğma evlərindən ayrı düşməsi məsələsinə diqqət çəkib, azyaşlıların hüquqlarının pozulmasının onları təəssüfləndirdiyini vurğulayıblar.

Konfrans beynəlxalq uşaq platformasının yaradılması ilə bağlı təkliflərin müzakirəsi ilə davam edib.

# Həsrətin sonu varmış






## Bu həsrətə Ali Baş Komandan İlham Əliyev son qoydu






*Əvvəli 1-ci səh.*

*Düşmən torpaqlarımıza soxulanda Ağdam Qarabağın qeyri-rəsmi mərkəzinə çevrilmişdi.*

*Azərbaycanın nəbzi burada döyünürdü!*

*Əsl Azərbaycanın, vətənpərvər Azərbaycanın!*

O biri Azərbaycanın, siyasiləşmiş, "Xalq Cəbhəsi"ndə birləşsə də, xalqın düşmənə qarşı müharibə cəbhəsində iştirak etməyən Azərbaycanın yox!

Onları hakimiyyət düşündürürdü, vəzifə ehtirası idarə edirdi!

İşğal olunmuş torpaqlar isə belələrinə ölkə rəhbərliyinə qarşı mübarizədə, onu hakimiyyətdən kənarlaşdırmaqda gərək idi!

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi hərbi müstəviyə keçəndə, silahlandırılmış düşmən torpaqlarımıza hücuma başlayanda "Həyat" və "Azərbaycan" qəzetinin Qarabağ bölgəsi üzrə xüsusi müxbiri - hərbi müxbiri olmuşam.

O zaman nə internet vardı, nə də email poçt. Yazılarımızı ya kiminləsə Bakıya göndərər, ya da özümüz gətirərdik.

Bir ayağımız paytaxtda, biri bölgədə olardı. Odur ki, paytaxtda və döyüş cəbhəsində vəziyyəti şəxsən müşahidə edib öyrənmək, müqayisəli şəkildə təhlil etmək imkanımız vardı.

Yekun qənaət isə daim belə olardı: Bakının müharibədən xəbəri yoxdur!

Qarabağda qanlı döyüşlər gedir, paytaxtda isə hakimiyyət uğrunda mübarizə!

İqtidara gələndən sonra müxtəlif partiyalara parçalanan AXC Bakıda "ikinci cəbhə" açmaqla əsl xəyanət yolu tutmuşdu.

1992-ci ildə Parlament çevrilişi edərək hətta Laçını və Şuşanı müdafiə etməli olan zirehli texnikanı, döyüşçüləri Bakıya gətirərək müdafiəni zəiflətmişdilər. Düşmən isə belə vəziyyətdən dərhal istifadə edirdi.

**Əslində müharibə dövlət səviyyəsində aparılmırdı: nə ordu yaradılmışdı, nə də lazım olan silah-sursat vardı!**

Xalq öz gücü, öz vəsaiti hesabına könüllü özünümüdafiə dəstələri yaradırdı. Müxtəlif adlar daşıyan belə hərbi birləşmələr şəxsi igidliyə və şücaətə arxalanır, adətən bir-birləri ilə əlaqəli şəkildə hərəkət etmir, vahid komandanlığa tabe olmurdular.

Silah, sursat, ərzaq təchizatı sistemi hərbin tələblərinə uyğun deyildi.

Ancaq ozamankı ölkə başçıları müdafiəni təşkil etmədiklərindən, öz haylarına qaldıqlarından başqa çarə yox idi.

Ağdamın sayılıb-seçilən, sözü keçən igid oğlanlarının təşəbbüsü ilə müxtəlif könüllü özünümüdafiə dəstələri yaradılmışdı. Sonralar bu işə yeni yaradılan Müdafiə Nazirliyi də qoşuldu. Rayonun yaşayış məntəqlərini müxtəlif istiqamətlərdən aşağıdakı dəstələr qoruyurdu:

Milli Qəhrəman Şirin Mirzəyevin komandiri olduğu 836 nömrəli özünümüdafiə alayı;

Milli Qəhrəman Allahverdi Bağırovun özünümüdafiə batalyonu;

Milli Qəhrəman Asif Məhərrəmovun (Fred Asif - B.S.) özünümüdafiə batalyonu;

Yaqub Rzayevin (Qatır Məmməd) özünümüdafiə batalyonu;

Ərşad Nadirovun "Kötəl" batalyonu;

Ədalət Zeynalovun "Qıyaslı" batalyonu;

Həsən Sarıyevin komandiri olduğu Papravənd rotası və başqaları uzun müddət Ağdamın müdafiəsində dayandılar.

Lakin düşmənin nizami ordu hissələrinin mövcudluğu, daha üstün silahlar və texnika ilə təmin edilməsi, AXC - Müsavat cütlüyünün ölkəni vətəndaş müharibəsinə sürükləməsi, igid oğul və batalyonların vahid ordu şəklində birləşdirilməməsi acınacaqlı nəticəsini verdi.

**Göstərilən kütləvi qəhrəmanlıqlara, verilən çoxsaylı şəhidlərə baxmayaraq, Ağdamı qoruyub saxlamaq mümkün olmadı!**

**Batalyon komandirlərinin bir qismi isə xəyanət əməlləri nəticəsində şəhid oldu! Qeyd edək ki, Qarabağ müharibəsi dövründə ölkə üzrə verilən iyirmi min şəhidin altı minə yaxını Ağdamın payına düşür.**

*Ölkədəki hərki-hərkilik və sahibsizlik üzündən çəkilən bütün əziyyətlərə, verilən qurbanlara baxmayaraq, müharibədə mühüm strateji mövqeyə malik Ağdam düşmən əlinə keçdi və beləliklə, 27 illik ayrılıq, həsrət, torpaq dərdi qövr etməyə başladı.*

Havadarlarının köməyi ilə hücuma keçən düşmən 23 iyul 1993-cü ildə Ağdamı ələ keçirdi.

Həmin vaxtlarda yazdığım və "Azərbaycan" qəzetinin 28 iyul 1993-cü il tarixli nömrəsində dərc olunmuş "Müharibə ya qeyrətlə udular, ya siyasətlə" adlı yazımdan bir parçanı xatırladıram:

*"Düşmən Ağdama çoxdan dişini qıcatmışdı. Lakin beşillik müharibə dövründə Ağdamın qazandığı təcrübə, coğrafi mövqeyi elə idi ki, onu digər rayonlar kimi "bir həmləyə almaq" olmazdı. Həm də Ağdam Qarabağ uğrunda (əslində isə "Böyük Ermənistan"ın yaradılması yolunda) müharibədə sonuncu və həlledici nöqtə olduğundan məqam gözləmək, geniş hazırlıq görmək lazım idi. Şuşa, Laçın, Kəlbəcər alınandan, Ağdərə qaytarılandan sonra növbə Ağdama çatmışdı. "Gəncə əməliyyatı" nəticəsində (Surət Hüseynovun məlum qiyamı - B.S.) respublikada yaranan gərgin vəziyyət isə əsl məqam idi.*

*Ermənistan Rusiyadan aldığı bütün silahı və zirehli texnikanı, habelə güclü təlim keçmiş külli miqdarda canlı qüvvəni Ağdamın üzərinə göndərmiş, hücum əməliyyatı diqqətlə hazırlanmışdı. "Gəncə əməliyyatı" ərəfəsində döyüş texnikası və canlı qüvvənin Gəncəyə və Bakıya göndərilməsindən istifadə edən düşmən mühüm strateji yüksəklikləri ələ keçirərək orada möhkəmlənmişdi. 24 kənd alındıqdan sonra mühasirə vəziyyətinə düşən Ağdam şəhərinin müdafiəçiləri qaçmaq və təslim olmaq niyyətində deyildilər. Ağdam 40 gün döyüşdü, 40 gün müdafiə olundu. Şəhərə saysız-hesabsız top və "Qrad" mərmiləri yağdırılsa da, müxtəlif növ silahlardan fasiləsiz atəşə tutulsa da, hətta dinc sakinlər oranı tərk etmir, kömək gələcəyinə, Ağdamın saxlanılacağına ümidlərini itirmirdilər! Heyhat! Rafaellinin (ATƏT-in o zaman fəaliyyətdə olan sədri - B.S.)gəlib-getməsi də ermənini ağıllandırmadı!*

*Ağdamın da düşmən əlinə keçməsi, yandırılıb-dağıdılması "bizim apardığımız" müharibənin qanuni və məntiqi yekunudur.*

*Müharibə ya qeyrətlə udular, ya siyasətlə!"*

❖❖❖

**Biz Ağdamdan çıxanda abad şəhər, kənd və qəsəbələr, işlək vəziyyətdə olan fabrik, zavod, müəssisələr, barlı-bəhərli bağlar, üzüm plantasiyaları, içi zəruri əşyalarla dolu evlər, mənzillər qoymuşduq.**

İndi isə xatabalıqlara, dağıdılıb viranə qalmış, bayquşlar ulayan məkana qayıtdıq.

Ağdamın erməni faşistləri tərəfindən xarabazara çevrilməsini bilirdim. Ara-sıra sosial şəbəkələrə sızan şəkil və video çəkilişlərini görmüşdüm. Dostlarımın, qohumlarımın Google vasitəsilə Ağdamdakı xaraba qoyulmuş evlərini tapıb baxdıqlarından da xəbərdardım. Dəfələrlə mənə internet vasitəsilə ruhlar şəhərinə çevrilmiş Ağdama baxmağı tövsiyə də etmişdilər. Amma heç vaxt ürəyim gəlməmişdi, baxa bilməmişdim və baxmırdım! Düşünürdüm ki, düşmən nə etməlidir, xüsusən faşist xislətli düşmən?! Həm də istəyirdim ki, Ağdam yadımda əvvəlki kimi, abad, yaraşıqlı, döyüşkən, yağıya toy tutan şəhər tək qalsın!

❖❖❖

*Erməni hər şeyi öz xislətinə, murdar mahiyyətinə uyğun dəyişmişdir.*

*Bizə heç zaman unutmayacağımız və unudulması mümkün olmayan yaralar vurub qaçmışdır.*

*Bəli, biz güclü, arxalı-köməkli düşmən qarşısında doğma yurd-yuvamızı məcburən tərk etmişdik.*

*O dövrün ən varlı, ən abad yaşayış məntəqələrindən sayılan Ağdamı boşaltmışdıq.*

*Çünki zəif idik, nə ordumuz vardı, nə rəhbərimiz, nə də sərkərdəmiz!*

**İndi isə cənab İlham Əliyevin simasında məğrur sərkərdə və müdrik rəhbəri olan qüdrətli ordu ilə geri qayıtdıq!**

**Dağıdılmış, xarabalıqlara çevrilmiş, tanınmaz vəziyyətə düşmüş Ağdama qədəm qoyduq!**

**Düşmən arxasına baxmadan qaçırdı!**

**Çünki onu İlham Əliyev Qarabağdan iti qovan kimi qovurdu!**

❖❖❖

Uzun sürən ayrılıqdan, doğma el-oba həsrətindən sonra, nəhayət, biz Ağdama qayıtdıq!

**Əsl həqiqət budur ki, bizi Ali Baş Komandan İlham Əliyev Ağdama qaytardı!**

Açıq desək, çoxumuz "Biz tezliklə doğma yurda qayıdacağıq" söyləsək də, əslində qayıdışa ümidimizi tamamilə üzmüşdük.

**Bu, İlham Əliyev möcüzəsi oldu!**

**Həm də bu möcüzəni Prezidentimiz ölkəyə rəhbərlik etdiyi 17 ildə yaratmış, bizi qələbəyə, qayıdışa addım-addım yaxınlaşdırmışdı!**

*Həmin möcüzəli addımlar hansılardır:*

Dövlətin gücü onun büdcəsi, maliyyə imkanları ilə ölçülür.

- *Ən əvvəl, İlham Əliyev uğurlu daxili və xarici siyasəti, həyat vəsiqəsi verdiyi transmilli layihələri hesabına Azərbaycana çoxlu pul qazandırdı.*
- *Elə həmin siyasətlə də dostlarımızın, sıx əməkdaşlıq etdiyimiz ölkələrin sayını artırdı.*
- *Güclü ordu qurdu, qazanılan vəsait və dostlar hesabına Azərbaycan Ordusunu ən yeni silahlarla təchiz etdi.*
- *Ordumuz ən yeni, hədəfi dəqiq vuran silahlarla, müasir taktiki variantlardan istifadə etməklə hərbi əməliyyatlar aparmağı da öyrəndi.*
- *Ermənistanın küçədən hakimiyyətə gəlmiş baş naziri Paşinyanın naşı hərəkətlərindən, məsuliyyətsiz bəyanatlarından onun öz əleyhinə məharətlə istifadə etdi.*
- *Beynəlxalq qurum və təşkilatlarla sıx və səmərəli əməkdaşlıq etdi, BMT-nin tribunasından bacarıqla bəhrələndi.*
- *Qabaqcadan informasiya müharibəsinə hazırlaşaraq bu sahədəki uğuru da təmin etdi.*
- *Şəxsən özü dünya informasiya məkanında Azərbaycanın haqq işinin təbliği və Paşinyanın ifşası ilə bağlı intensiv və səmərəli fəaliyyət göstərdi.*
- *Ənənəvi müttəfiqlərinin Ermənistanı açıq-aşkar dəstəkləməsinin, kömək göstərməsinin qarşısını irəlicədən aldı.*
- *Türkiyə və Azərbaycan dostluğunu, qardaşlığını indiyədək olmamış səviyyəyə yüksəltdi.*
- *İldırım sürətli əks-hücum əməliyyatı ilə düşməni tar-mar etdi!*

**Beləliklə, Prezident İlham Əliyev Azərbaycan tarixinin yeni, ən şərəfli səhifəsini yazdı!**

❖❖❖

Ağdam aran Qarabağın qapısıdır.

Bu qapı həm də Dağlıq Qarabağa açılır.

Ağdamın geriyə qaytarılması müharibənin həlledici mərhələsi, strateji uğurudur!

*Qarabağa qayıdışın, torpaqların işğaldan azad edilməsinin banisi və müəllifi isə məhz cənab İlham Əliyevdir!*

*Qədirbilən xalqımız bunu heç zaman unutmayacaq!*

*Ümidləri çiçəkləndirdiyinə, doğma yurda dönüşü təmin etdiyinə görə ağdamlılar da Ali Baş Komandana qəlbən minnətdardırlar!*

**Səni min yaşa, Ali Baş Komandanım!**

**Qələbən mübarək, mənim Prezidentim!**

**Gözün aydın, Azərbaycanım!**

**Qarabağ Azərbaycandır!**

**Bəxtiyar SADIQOV**









# Ordumuz Ağdama Azərbaycan Bayrağını sancdı





**Azərbaycan Respublikasının Prezidenti, Ermənistan Respublikasının baş naziri və Rusiya Federasiyasının Prezidentinin imzaladığı üçtərəfli Bəyanata əsasən, noyabrın 20-də Ağdam rayonuna daxil olan Azərbaycan Ordusunun bölmələri ərazidə bir sıra tədbirləri həyata keçirib.**



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qoşunlarımızın bu istiqamətdə təhlükəsiz hərəkətinin təmin edilməsi məqsədilə ərazilər gecə saatlarında minalardan təmizlənib, mühəndis-istehkam işləri başa çatdırılıb, hərəkət marşrutu üzrə yollar istifadəyə hazır vəziyyətə gətirilib. Hazırda bölmələrimizin şəxsi heyəti və zirehli texnikasının ərazidə dislokasiya olunması üçün zəruri tədbirlər icra olunur.

İşğaldan azad olunan Ağdam rayonu tamamilə Azərbaycan Ordusunun nəzarəti altına keçib. Ağdam şəhərinin mərkəzində Azərbaycanın Dövlət Bayrağı ucaldılıb, Dövlət Himni səsləndirilib və Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə məruzə olunub. Ağdam şəhərindəki Cümə məscidi və ərazisi hərbçilərimiz tərəfindən təmizlənib, məsciddə azan oxunub və cümə namazı qılınıb.

# Ağdam Cümə məscidində 27 ildən sonra ilk dəfə azan oxunub



**Ermənistanın işğalından azad edilən Ağdam şəhərindəki Cümə məscidində 27 ildən sonra ilk dəfə azan oxunub.**

AZƏRTAC xəbər verir ki, bir qrup din xadimi noyabrın 20-də Ağdam şəhərindəki Cümə məscidinə gediblər. Dindarlar məsciddə azan verib, namaz qılıblar.

# Ermənistanın təcavüzü nəticəsində cəbhə xəttindən kənarda yerləşən yaşayış məntəqələrində həlak olmuş şəxslər şəhid hesab olunur

## Nazirlər Kabinetinin 453 №-li Qərarına dair izah




Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1994-cü il 15 yanvar tarixli 10 nömrəli Qərarı ilə təsdiq edilmiş "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlərin tətbiqi qaydaları"nın 1.2.4-cü yarımbəndinə əsasən, yalnız Ermənistanla sərhəd rayonlarında və Qarabağda erməni təcavüzü nəticəsində həlak olmuş və itkin düşmüş mülki vətəndaşlar şəhid hesab edilir.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, 2020-ci il sentyabrın 27-dən etibarən Ermənistan silahlı qüvvələri cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini müxtəlif silahlardan atəşə tutması ilə yanaşı, təmas xəttindən aralıda yerləşən Naftalan və Gəncə şəhərlərində dinc əhaliyə qarşı hərbi təxribat törətmiş və Qarabağdan kənarda yerləşən bu yaşayış məntəqələrində onlarca mülki vətəndaş həlak olmuş, yüzlərlə vətəndaş isə yaralanmışdır.

Respublikada yaranmış mövcud vəziyyətlə əlaqədar sözügedən ərazilərdə həlak olmuş mülki vətəndaşların şəhid hesab edilməsi məqsədilə müvafiq qanunvericiliyə dəyişiklik edilməsi zərurəti yaranmışdır.

Qərarda Ermənistanla sərhəd rayonlarında və Qarabağda erməni təcavüzü nəticəsində həlak olmuş və itkin düşmüş mülki vətəndaşlar, habelə ölkənin digər ərazilərində erməni hərbi təxribatı (hücumu, zərbəsi) nəticəsində həlak olmuş və itkin düşmüş mülki vətəndaşların şəhid hesab edilməsi əks olunub.

# Bu ilin ötən dövrü ərzində muxtar respublikadakı 8 müdafiə mövqeyimizdə yeni əsgəri-məişət kompleksi tikilib

**Naxçıvan Qarnizonu Qoşunlarında hərbi təyinatlı obyektlərin tikintisi, şəxsi heyətin xidməti və mənzil-məişət şəraitinin yaxşılaşdırılması tədbirləri 2020-ci ilin ötən dövrü ərzində də uğurla davam etdirilib.**

Əlahiddə Ümumqoşun Ordunun birləşmə və hissələrində, hərbi şəhərciklərində yeni binalar inşa olunub, istirahət parkları salınıb, hərbi obyektlərdə əsaslı və cari təmir işləri aparılıb.

Əlahiddə Ümumqoşun Ordunun Mətbuat xidmətindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, hər tərəfdən dağ silsilələri ilə əhatə olunan Naxçıvan Muxtar Respublikasının qışı soyuq və qarlı keçən yüksək dağlıq zonalarında etibarlı müdafiə sistemi qurulub. Çətin dağlıq şəraitdə yerləşən müdafiə mövqelərimizdə şəxsi heyətin nümunəvi xidməti üçün hərtərəfli şərait yaradılıb. Bütün bunların nəticəsidir ki, uca zirvələrin hakimi olan hərbi qulluqçularımız Vətənimizin etibarlı müdafiəsini təmin edirlər. Hərbi hissələrdə infrastrukturun müasirləşdirilməsi istiqamətində görülən işlərin davamı olaraq 2020-ci ilin ötən dövrü ərzində 8 müdafiə mövqeyində yeni əsgəri-məişət kompleksi tikilib. Müasir kazarmalarda yaşayan əsgərlərimiz mənəvi-psixoloji ruh yüksəkliyi və vətənpərvərlik hissləri ilə xidmət edirlər.









Əsgər Gündüz Mehdizadə bildirib ki, 3 min metrdən çox yüksəklikdə əsgər yoldaşları ilə birgə ön xətdə xidmət aparır: "Əsgər yoldaşlarımla biz qardaş kimiyik. Bizim burada rahat şəkildə xidmət aparmağımız üçün hər cür əlverişli şərait yaradılıb və biz ayıq-sayıq şəkildə döyüş növbətçiliyini yerinə yetiririk. Azərbaycan Respublikasına xidmət edirəm!" Əlahiddə Ümumqoşun Ordunun möhkəm müdafiə potensialına malik birinci eşelon bölmələrində inşa olunan binalar keyfiyyətli mebel dəstləri, müxtəlif növ dayanıqlı rabitə, daimi işıq və istilik sistemi ilə təchiz edilib. Əsgər və zabitlərin rahat şəkildə istirahəti, qidalanması və nümunəvi xidməti üçün tikilən hərbi obyektlərdə qış tədarükü görülərək isti geyim, yanacaq, içməli su və ərzaq təminatı yaradılıb.

Yaradılan şəraitdən razılıq edən əsgər Cabbar Cabbarlı deyib: "Gördüyünüz kimi bizim üçün burada müasir tələblərə cavab verən kazarmada hərbi xidmətimizin təşkili üçün bütün tələblərə cavab verən şərait yaradılıb. Biz hər zaman fəxr edirik ki, Vətən müharibəsində qalib gəlmiş müzəffər Azərbaycan Ordusunun əsgərləriyik!"

Qüdrətli ordumuzun işğal altındakı torpaqlarımızın azadlığı uğrunda həyata keçirdiyi uğurlu əks-hücum əməliyyatı ilə qazandığı qələbə hər birimizi qürurlandırdığı kimi əsgərlərimizdə də böyük ruh yüksəkliyi yaradıb. Dövlət-xalq-ordu birliyindən güc alaraq xidmətini davam etdirən əsgərlərimiz bu gün qazanılan qələbənin sevincini yaşayırlar.

Əsgər Seymur Fərhadlı uca zirvələrdə xidmət aparmağı ilə qürur duyduğunu bildirib: "Son zamanlar ərzində müzəffər ordumuzun apardığı uğurlu əməliyyatlar mən və əsgər yoldaşlarımın döyüş əzmini daha da yüksəltdi. Bütün Azərbaycan torpaqlarında Azərbaycan bayrağı dalğalanacaq. Qarabağ Azərbaycandır!"

Əsgər Cavidan Şükürzadə deyib: "Ayıq-sayıq döyüş növbətçiliyi aparmağımız üçün hər cür şəraitimiz var. Biz burada sadəcə əsgər yoldaşı deyil, bir ailəyik, qardaşıq. Qarşımızdakı düşmənin hər hansı bir təxribatı olarsa onlar qarşılarında bizim kimi cəsur, mərd əsgərlər görəcəklər. Necə ki, Dağlıq Qarabağda gedən döyüşlərdə bizim digər əsgər yoldaşlarımızın cavablarını gördülər. Düşmənin hər hansı bir təxribatına adekvat cavab verməyə hazırıq. Biz fəxr edirik ki, Azərbaycan əsgəriyik. Qarabağ Azərbaycandır!"

Yaradılan nümunəvi xidmət şəraitinə görə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevə və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbova minnətdarlıq edən Əlahiddə Ümumqoşun Ordunun şəxsi heyəti Ümummilli Lider Heydər Əliyev ideyalarına sadiq qalaraq Vətənimizin müdafiəsi və ərazi bütövlüyümüzün təmin olunması yolunda tarixi zəfərlər qazanır.

# Anar Kərimov ICESCO-nun baş direktoru ilə onlayn görüş keçirib

**Mədəniyyət nazirinin birinci müavini, nazirin vəzifələrini müvəqqəti icra edən Anar Kərimov İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) baş direktoru Salim bin Məhəmməd əl-Malik ilə onlayn görüş keçirib.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, görüş zamanı tərəflər bir sıra məsələlər barəsində fikir mübadiləsi aparıblar. Anar Kərimov son 30 il ərzində Ermənistan tərəfindən işğal altında saxlanılan ərazilərin, xüsusilə də Azərbaycan mədəniyyətinin beşiyi hesab edilən Şuşa şəhərinin müzəffər Ordumuz tərəfindən azad edilməsi və bunun dünya və islam mədəniyyəti üçün əhəmiyyəti barədə məlumat verib. Qeyd edib ki, Qarabağ bölgəsinin işğalı nəticəsində bir sıra şəhərlər tamamilə məhv edilib, bütün mədəni mülkiyyət talan olunub, tarixi abidələr və mədəniyyət müəssisələri vəhşicəsinə dağıdılıb, xüsusilə islam irsinə aid olan abidələr və məscidlər təhqir edilib.

Nazir müavini hazırda azad edilmiş ərazilərdə mədəni mühiti canlandırmaq, abidələri, muzeyləri və müxtəlif mədəniyyət müəssisələrini bərpa etmək üçün Mədəniyyət Nazirliyi tərəfindən xüsusi fəaliyyət planının hazırlandığını bildirib. Salim bin Məhəmməd əl-Malik Azərbaycan xalqını bu tarixi qələbə münasibətilə təbrik edərək ICESCO-nun bu məsələdə ilk günlərdə bəyanat verərək Azərbaycana tam olaraq öz dəstəyini ifadə etdiyini bildirib və eyni zamanda və bu sahədə əməkdaşlığa dair birgə İş Planının hazırlanmasının tərəfdarı olduğunu qeyd edib.

ICESCO ekspertlərinin sözügedən ərazilərə araşdırma səfərinin təşkilinə də hazır olduğu baş direktor tərəfindən ifadə olunub. A.Kərimov Azərbaycan və ICESCO arasında artıq uzun illərdir davam edən əməkdaşlığın önəmindən bəhs edib və bu iş birliyinin ölkəmiz üçün böyük əhəmiyyət kəsb etdiyini vurğulayıb. Anar Kərimov qeyd edib ki, hazırda Azərbaycan qarşı bəzi media orqanları və təşkilatlar tərəfindən qərəzli və qarayaxma kampaniyasının aparıldığını və buna qarşılıq olaraq ICESCO kimi beynəlxalq təşkilatın Azərbaycanın haqlı mövqeyinin dəstəkləməsində daha fəal olmasının arzu olunduğunu diqqətə çatdırıb.

Qeyd olunub ki, Azərbaycan ölkə rəhbərliyinin müvafiq tapşırıqlarına uyğun olaraq ICESCO-nun bu günə qədər həyata keçirdiyi bütün layihələrə dəstək verib və bundan sonra da bu dəstəyi əsirgəməyəcəkdir.

Görüşdə mədəni irsin qorunması, yaradıcı sənayelərin inkişafı, "Bakı Prosesi" təşəbbüsünün daha da inkişaf etdirilməsi, ICESCO baş direktorunun Azərbaycana səfəri və digər məsələlər ətrafında müzakirələr aparılıb.

# Azərbaycan Pakistanla enerji sektorunda investisiya imkanlarını müzakirə edib

**Energetika naziri Pərviz Şahbazov Pakistan İslam Respublikasının Azərbaycandakı səfiri Bilal Haye ilə görüşüb.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, səfiri ölkəmizdə diplomatik fəaliyyətə başlaması münasibətilə təbrik edərək ona uğurlar arzulayan nazir Azərbaycan və Pakistan arasındakı möhkəm dostluq münasibətlərini qeyd edib, Ermənistanın hərbi təcavüzünə qarşı həyata keçirdiyi əks-hücum əməliyyatları zamanı Pakistanın daim Azərbaycanın yanında olmasını və haqlı mübarizəsini dəstəkləməsini yüksək qiymətləndirdiyini bildirib, beynəlxalq səviyyədə tanınmış sərhədlər daxilində ölkəmizin ərazi bütövlüyünün bərpa olunmasında Pakistanın verdiyi mühüm siyasi, mənəvi dəstəyə və qəti mövqeyinə görə təşəkkürünü bildirib.

Səfir B.Haye öz növbəsində Azərbaycan hökumətini və xalqını böyük qələbə münasibətilə təbrik edib, Pakistanın hər zaman Qarabağ məsələsində Azərbaycanın haqlı və ədalətli mövqeyini dəstəklədiyini bildirib. Səfir hərbi əməliyyatların dayandırılması barədə tərəflər arasında imzalanmış bəyanatı alqışladığını, bu sənədin bölgədə sabitliyə və inkişafa yol açacağına inamını vurğulayıb.

Görüşdə iki ölkə arasında müxtəlif sahələrdə əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparılıb, Azərbaycan Respublikası hökuməti ilə Pakistan İslam Respublikası hökuməti arasında enerji sahəsində əməkdaşlıq haqqında Sazişdən irəli gələn məsələlər nəzərdən keçirilib, enerji sektorunda investisiya imkanları və ikitərəfli əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

# Azərbaycanın Baş Prokurorluğu “SolovyovLive” verilişində ölkəmiz əleyhinə fikirlər səsləndirən şəxslərlə bağlı Rusiyanın müvafiq qurumuna müraciət edib

Bəzi kütləvi informasiya vasitələrində və sosial media səhifələrində “WarGonzo” layihəsinin müəllifi, Rusiya Federasiyasının vətəndaşı Semyon Vladimiroviç Peqovun “SolovyovLive” verilişində Yaxın Şərq və Orta Asiya Araşdırmaları Mərkəzinin direktoru, Rusiya Federasiyasının vətəndaşı Semyon Arkadeviç Baqdasarovla “Dağlıq Qarabağ və ətraf rayonların işğaldan azad edilməsi” mövzusunda birgə apardıqları videoformatlı müzakirə zamanı ermənilərin məğlubiyyətlə barışmayaraq, Qarabağdakı Azərbaycan əsgərlərinə hücumlar edilməsi, müxtəlif döyüş əməliyyatlarının hazırlanması, partizan müharibəsinin başlayacağı barədə proqnozlar verməleri, bununla bağlı müəyyən məlumatlarının olması və müxtəlif üsullarla təxribat xarakterli ifadələrə yol verməleri müəyyənləşdirilib. Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Semyon Peqovun və Semyon Baqdasarovun əməllərində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 214-2-ci (terrorçuluğa açıq çağırışlar), 281.2-ci (bir qrup şəxs tərəfindən Azərbaycan Respublikasının ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar), 283.2.1-ci (zor tətbiq etmə hədəsi ilə milli düşmənçiliyin salınmasına yönələn açıq çağırışlar kütləvi informasiya vasitələrindən istifadə edilməklə törədildikdə) maddələrinin əlamətləri mövcud olduğundan toplanmış materiallar Baş Prokurorluğunun İstintaq idarəsində Semyon Peqovun Azərbaycan Respublikasının dövlət sərhədini sənədlər olmadan qanunsuz keçməsi, ölkəmizin ərazi bütövlüyünün parçalanmasına yönələn açıq çağırışlar etməsi faktına dair Cinayət Məcəlləsinin müvafiq maddələri ilə istintaqı aparılan cinayət işinə əlavə olunmaqla istintaq yolu ilə araşdırılması davam etdirilir.

Göstərilən xüsusatlarla əlaqədar cinayət işinin istintaqı çərçivəsində Rusiya Federasiyasının Baş Prokurorluğuna və digər ölkələrin hüquq mühafizə orqanlarına hüquqi yardımın göstərilməsi haqqında rəsmi vəsatətlər göndərilməklə, Semyon Peqov və digərləri ilə bağlı zəruri istintaq hərəkətlərinin keçirilməsi xahiş olunub.

Vəsatətlərin icra edilməsi ilə bağlı Baş Prokurorluq tərəfindən həmkarlarla daimi əlaqə saxlanılmaqla, istintaqın gedişatı və nəticəsi barədə ictimaiyyətə ətraflı məlumat veriləcək.

# Ermənistanın Azərbaycana qarşı təcavüzkar müharibə aparması və terrorçuluq əməlləri ilə bağlı cinayət işi başlanıb

Ermənistan Respublikasının işğalçı mahiyyətinin beynəlxalq müstəvidə bir daha ifşa edilməsi üçün Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən zəruri tədbirlər görülməkdədir.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, 2020-ci il sentyabrın 27-dən noyabrın 10-dək davam edən döyüşlərin son mərhələsində Azərbaycan Ordusunun rəşadəti nəticəsində geri çəkilən Ermənistan silahlı qüvvələri yeni metodlardan istifadə edərək növbəti cinayət əməlləri törədib.

Araşdırmalarla müəyyənləşdirilib ki, 2020-ci il 8 oktyabr, 3, 4 və 8 noyabr tarixlərində Ermənistan silahlı qüvvələri Azərbaycan Respublikasının işğal edilmiş ərazilərində, habelə Ermənistan Respublikasının ərazisində yerləşən hərbi birləşmələrinə rəhbərlik edən şəxslər və onların yaratdığı cinayətkar birliklər “Silahlı münaqişələr zamanı mülki şəxslərin müdafiəsinə dair” 1949-cu il tarixli Cenevrə Konvensiyasının tələblərini kobud şəkildə pozaraq genişmiqyaslı dağıntılara səbəb ola bilən müharibə üsullarından istifadə etməklə mülki əhalinin və ya döyüşlərdə iştirak etməyən ayrı-ayrı mülki şəxslərin sıx yaşadıqları Füzuli, Tərtər rayonları ərazilərində yerləşən yaşayış məntəqələrinə, habelə BMT-nin “Bioloji müxtəliflik haqqında” Konvensiyasının əsas təməl prinsiplərini pozaraq ətraf mühitə qəsd edən geniş, uzunsürən və ciddi ziyan vurmaq, insanları qəsdən öldürmək məqsədilə Füzuli rayonunun Arayatlı, Alxanlı, Tərtər rayonunun Səhləbad kəndinə və Şuşa şəhərinin ərazisində yerləşən Azərbaycan Respublikasının təbii sərvəti hesab edilən qiymətli və çoxillik ağacları olan meşələrə hər birinin içərisində 3,6 kiloqram P-4 kimyəvi tərkibli (ağ fosfor) olan D-4 tipli 122 millimetrlik ən azı 6 top mərmisi ilə atəş açaraq həmin ərazilərdə yerləşən təbii sərvətləri qəsdən yandırmaqla xüsusilə külli miqdarda ziyan vurub, Azərbaycan Respublikasına qarşı təcavüzkar müharibə planlaşdırılıb və aparılıb, habelə terrorçuluq cinayəti törədilib.

Bununla bağlı Baş Prokurorluqda ətraflı araşdırmalar aparılmaqla, noyabrın 20-də faktla bağlı Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 100.2-ci (təcavüzkar müharibəni aparma), 214.2-ci (terrorçuluq) və digər maddələri ilə cinayət işi başlanaraq istintaqın aparılması Baş Prokurorluğun İstintaq idarəsinə həvalə edilib.

Hazırda cinayət işi üzrə zəruri və intensiv istintaq tədbirləri aparılmaqla müvafiq sənədləşmə işləri aparılır və sübutlar toplanılır.

Baş Prokurorluq tərəfindən təqsirli şəxslərin müəyyənləşdirilərək beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilməsi üçün mümkün olan bütün tədbirlər görüləcək.

# “Regional İnkişaf” İctimai Birliyi Ermənistanın ölkəmizə qarşı törətdiyi ekoloji və humanitar terrorun dayandırılması ilə bağlı beynəlxalq təşkilatlara müraciət edib

“Regional İnkişaf” İctimai Birliyi (RİİB) Ermənistanın hərbi-siyasi hakimiyyətinin Azərbaycana qarşı yürütdüyü təcavüzkar siyasət nəticəsində uzun illərdir işğal altında saxladığı ərazilərdə törətdiyi cinayətlərin, xüsusilə ekoloji cinayətlərin, vandalizm aktlarının dayandırılmasına dəstək verilməsi ilə bağlı 40-dan çox beynəlxalq təşkilata müraciət ünvanlayaraq, baş verən hadisələrə laqeyd qalmamağa çağırıb.

İctimai birlikdən AZƏRTAC-a verilən məlumata görə, müraciətdə bildirilir ki, dünya ictimaiyyəti tərəfindən ərazi bütövlüyü birmənalı olaraq tanınan Azərbaycanın torpaqlarının 20 faizini işğal edən Ermənistan 1 milyondan çox soydaşımızın məcburi köçkün həyatı yaşamasına səbəb olmaqla, onların yaşamaq və mülkiyyət hüququnu pozmuş, illərdir bu torpaqlarda mədəni və ekoloji terror törətməklə Azərbaycana maddi-mənəvi zərər vurmuşdur.

Birinci Qarabağ müharibəsi dövründə işğal olunmuş torpaqlarda Azərbaycanın mədəni irsi - tarixi və dini abidələri məhv edilmiş, sənət əsərləri talan olunmuş, müxtəlif ölkələrdə hərraca çıxarılaraq satılmış, antik sikkələrin, qızıl və gümüş məmulatlarının, nadir və qiymətli daşların, xalçaların və əl işlərinin saxlandığı Kəlbəcər Tarix-Diyarşünaslıq Muzeyi, Şuşa Tarix Muzeyi, Ağdamda yerləşən və dünyada yeganə olan Çörək Muzeyi və Daş Abidələr Muzeyi dağıdılmışdır.

Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Silahlı Qüvvələri tərəfindən erməni işğalından azad edilmiş Zəngilan rayonundakı tarixi məscidin, Ağdam Cümə Məscidinin donuz tövləsi kimi istifadə edildiyi aşkar olunmuş, bu barədə müxtəlif xarici KİV-də məlumat yayımlanmışdır.

Azərbaycanın işğal altında olmuş 25 faiz meşə massivinə, həmin ərazilərdəki ekoloji mühitə, təbii sərvətlərə, bioloji müxtəlifliyə Ermənistan bu gün də qəsd etməkdə davam edir. Azərbaycan, Ermənistan və Rusiya arasında 10 noyabr 2020-ci il tarixdə əldə edilmiş üçtərəfli razılaşmaya əsasən, ermənilər qanunsuz olaraq məskunlaşdıqları əraziləri tərk edərkən ölkəmizin özünəməxsus ekosistemini məqsədli şəkildə məhv edir, ağacları kütləvi şəkildə kəsir, evləri yandırırlar. Şuşa şəhərinin meşə zolaqlarının zəhərli maddələrdən istifadə edilərək yandırılması təcavüzkar ölkənin qeyri-insani mahiyyətini bir daha nümayiş etdirir.

İndiyədək təqribi hesablamalara görə, ümumilikdə 1815 hektar meşə sahəsi məhv edilib. İşğalçı ölkənin təbiətə və ekologiyaya vurduğu zərər Ermənistanın 2002-ci ildən tərəfdaşı olduğu İqlim Dəyişikliyi üzrə BMT Çərçivə Konvensiyasının müddəaları ilə də qadağan edilir.

Müraciətdə həmçinin Ermənistanın Azərbaycanın Gəncə və Mingəçevir şəhərlərində, Tərtər, Naftalan, Bərdə, Ağcabədi, Ağdam, Xızı və Abşeron rayonlarında yaşayış məntəqələrinə raket zərbələri endirərək, mülki vətəndaşların həyatına son qoyması, yaşayış evlərinə, infrastruktura ciddi ziyan vurması barədə ətraflı məlumat verilib.

# Fransa erməni təcavüzkarının yedəyində gedir

## Paris Azərbaycana münasibətdə yürütdüyü siyasətin ciddi nəticələr doğuracağını nəzərə almalıdır

**Ermənistan-Azərbaycan münaqişəsinin indiki mərhələsində vəziyyəti sabitləşdirmək üçün maraqlı tərəflər səy göstərir. Hələliksə işğal olunmuş Azərbaycan ərazilərinin boşaldılması diqqət mərkəzindədir. Təcavüzkar ölkə prosesi ləngitmək üçün cidd-cəhd göstərir, Azərbaycana mümkün qədər çox ziyan vurmağa çalışır: ermənilərin çıxmalı olduğu yaşayış məntəqələrində evlər və meşələr yandırılır, infrastruktur dağıdılır, maddi mədəniyyət obyektləri məhv edilir.**

Belə bir şəraitdə beynəlxalq ictimaiyyətin diqqəti ilk növbədə ermənilərin Azərbaycan torpaqlarında törətdikləri vəhşiliklərə yönəlməli idi. Doğrudur, ikinci Qarabağ müharibəsi başlayandan bəri dünyanın aparıcı media orqanları münaqişə zonasında idi. Hadisələrin gedişi davamlı olaraq işıqlandırılırdı. Ermənistanın müharibə zamanı Azərbaycan ərazisində mülki obyektləri, o cümlədən münaqişə zonasından kənarda yerləşən şəhər və kəndləri hədəfə alması, nəticədə günahsız insanların həlak olması barədə çoxsaylı reportajlar oxucu, dinləyici və tamaşaçılara təqdim olunurdu. Eyni zamanda Prezident İlham Əliyevin xarici kütləvi informasiya vasitələrinə verdiyi müsahibələr dünya ictimaiyyətində münaqişə və onun ətrafında cərəyan edən hadisələr barədə obyektiv təsəvvür yaranmasına imkan verirdi.

Bununla bərabər, Azərbaycanın beynəlxalq hüquqa uyğun olaraq işğal altında olan ərazilərini silaha əl ataraq azad etməsi heç də hamının ürəyincə olmamışdı. Azərbaycan tərəfi təkrar-təkrar nəzərə çarpdırırdı ki, erməni təcavüzkarı münaqişəni tənzimləmək üçün hərbi güc tətbiq etməkdən başqa çıxış yolu qoymamışdı. Belə ki, ATƏT-in Minsk qrupunun vasitəçiliyi ilə 30 ilə yaxın davam etmiş danışıqlar Ermənistanın qeyri-konstruktiv mövqeyi ucbatından nəticəsiz qalmış, təcavüzkar dövlət Azərbaycan ərazisinin 20 faizini özününküləşdirmək xətti götürmüşdü.

Əlbəttə, Minsk qrupuna həmsədrlik edən üç nüfuzlu dövlət - ABŞ, Rusiya və Fransa təcavüzkar Ermənistana təzyiq göstərib münaqişənin tənzimlənməsi prosesini ölü nöqtədən çıxarıb irəliləyişə nail ola bilərdi. Amma beynəlxalq vasitəçilər bunun əvəzinə, mənasız bəyanatlar verməklə kifayətlənirdilər. Get-gedə məlum oldu ki, həmsədrlərin münaqişəni nizamlamaq yox, sonsuzluğadək dondurmaqdan başqa fikri yox imiş. Ona görə də Azərbaycan təcavüzkarı sülhə məcbur etməli oldu, nəticə etibarilə Bakının diktə etdiyi şərtlərlə münaqişə zonasında atəş dayandırıldı.

İkinci Qarabağ müharibəsi başlayan kimi beynəlxalq vasitəçilər, ilk növbədə Fransa Qarabağda döyüş əməliyyatlarını dayandırmaq üçün xüsusi canfəşanlıq göstərməyə başladı. Təbii ki, BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq Azərbaycanın hamı tərəfindən tanınmış ərazilərini işğaldan azad etmək hüququna heç kim etiraz edə bilməzdi. Ona görə də Azərbaycanın haqlı mövqeyinə kölgə salmaq üçün cürbəcür uydurmalar dövriyyəyə buraxılırdı. Məsələn, iddia olunurdu ki, Azərbaycan Qarabağda apardığı əks-həmlə əməliyyatına Suriyadan gətirdiyi ekstremist qruplaşmaları cəlb etmişdir. Bu iddianı irəli sürənlərdən biri də Fransa Prezidenti Emmanuel Makron idi. Özü də Fransa lideri bu cəfəngiyyatı azərbaycanlı həmkarı İlham Əliyevlə telefon danışığı zamanı dilə gətirmişdi. Cənab İlham Əliyev Fransa Prezidentindən iddiasını əsaslandırmaq üçün dəlil-sübut tələb etmiş, lakin Makrondan indiyədək səs çıxmamışdır.

Son vaxtlar Makron islamofob çıxışları ilə gündəmi zəbt etmişdir. O, gah Türkiyənin Suriya, Liviya və Şərqi Aralıq dənizində həkətlərindən narahatlıq keçirir, gah islam dinini təhqir edir, gah da təcavüzkar Ermənistana birmənalı əməli dəstəyini bəyan edir. Fransa lideri bütün bu hərəkətlərindən hələ ki heç nə qazanmamışdır. Əksinə, Parisin Türkiyə kimi NATO üzrə mühüm müttəfiqi ilə əlaqələri pisləşmiş, bir sıra müsəlman ölkələrində Fransa məhsulları boykot edilmiş, eləcə də Fransa Cənubi Qafqazın lider ölkəsi olan Azərbaycanı, demək olar ki, itirmək ərəfəsindədir.

İndi Makron hökuməti xarici siyasətdə düçar olduğu uğursuzluqların əvəzi kimi başqa bir avantüraya əl atmışdır: Paris meriyası “Dağlıq Qarabağ Respublikası”nın müstəqilliyini tanımaq fikrinə düşmüşdür. Belə bir “qiymətli” təşəbbüsü Fransa paytaxtının meri, ermənipərəstliyi ilə tanınan Ann İdalqo irəli sürmüşdür. O da məlumdur ki, mer çoxdandır yerli erməni icmasının təsiri altındadır. Merin müavinlərindən biri də ermənidir. Üstəlik, Paris Şurasında Makronun liderlik etdiyi “İrəli, Fransa” partiyasının üzvlərinin sayı çoxdur. Odur ki, Paris meriyasının ermənipərəstliyinin nədən qaynaqlandığını araşdırmağa dəyməz.

Bu arada məlum olmuşdur ki, Fransa Senatı gələn həftə hökuməti “Dağlıq Qarabağ Respublikası”nı tanımağa çağıran qətnamə layihəsini müzakirə etmək niyyətindədir. Parlamentin yuxarı palatasının qətnamələri icra üçün məcburi xarakter daşımır. Bununla belə, bu və ya digər məsələnin Senatda müzakirəyə çıxarılması ölkənin siyasi elitasının həmin məsələyə münasibətdə tutduğu mövqeyi öyrənməyə imkan verir.

Fransada hansısa yerli idarəetmə orqanının hansısa separatçı-terrorçu qurumu tanımasının heç bir hüquqi nəticəsi ola bilməz. Bir vaxtlar ölkənin ayrı-ayrı bələdiyyələri Dağlıq Qarabağ ermənilərin yaşadığı yaşayış məntəqələri ilə “qardaşlaşmışdı”. Sonralar Fransa məhkəməsinin hökmü ilə fransız-erməni “qardaşlar”ı bir-birindən ayrılmalı oldular.

Belə bir məqamı da nəzərə almaq lazımdır ki, fransız siyasətçilərinin heç də hamısı erməni icmasının çaldığı hava ilə oynamır. İkinci Qarabağ müharibəsi başlayandan sonra Ermənistan silahlı qüvvələrinin şəhər və kəndlərimizi raket atəşinə tutması kimi müharibə cinayətinin şahidi olanlar arasında fransız siyasətçiləri də vardı. Fransada milli maraqları hər şeydən uca tutan dövlət xadimləri də az deyil. Onlardan biri - Fransa Milli Assambleyasının (parlamentin aşağı palatası) Azərbaycanla dostluq qrupunun vitse-prezidenti Jerom Lamber Parisin Bakıya münasibətdə yürütdüyü siyasətin ölkəsi üçün zərərli olduğunu təkrar-təkrar vurğulayır. Onun fikrincə, Dağlıq Qarabağın müstəqilliyinin tanınmasına dair çağırış Fransa tərəfindən qəbul edilmiş beynəlxalq və ikitərəfli öhdəliklərə ziddir və ona görə də beynəlxalq hüquqa hörmətlə yanaşanlar tərəfindən qəbul edilə bilməz.

Lamber Fransa Sosialist Partiyasından olan həmkarlarının Dağlıq Qarabağla əlaqədar fikirlərinə etiraz əlaməti olaraq ünvanladığı məktubda qeyd etmişdir ki, BMT Təhlükəsizlik Şurasının qətnamələri ilə müəyyən edilmiş beynəlxalq hüquq prinsipləri Dağlıq Qarabağa dair məcburi kompasımız olaraq qalmalıdır. Üstəlik, bu, son onilliklər boyunca fransız diplomatiyasının dəyişməz mövqeyi olmuşdur. Lamber fransız siyasətçilərini bir qrup erməninin diktəsi ilə oturub-durmamağa, hər hansı qərarı qəbul edərkən diqqətli olmağa və onun nəticələri haqqında düşünməyə çağırmışdır.

Fransada hər hansı mərkəzi və ya yerli hakimiyyət orqanının Azərbaycanın ərazi bütövlüyünə qərəzli münasibəti rəsmi Bakının diqqətindən kənarda qala bilməz. Erməni icmasının cibinə göz dikmiş fransız siyasətçiləri anlamalıdırlar ki, separatçı-terrorçu rejimi tanımaqla heç nəyə nail ola bilməyəcəklər. Onlar bilməlidirlər ki, hər bir normal dövlət kimi, Azərbaycan da “səni sevəcəyəm, sən sevməsən də” prinsipi ilə işləmir. Parisin Bakıya münasibətdə yürütdüyü siyasət ən ciddi nəticələr doğura bilər. Prezident İlham Əliyev artıq xəbərdarlıq etmişdir ki, Bakı Qarabağdakı separatçı-terrorçu qurumu tanıyan hər hansı dövlətlə diplomatik münasibətləri dərhal kəsəcək.

***Allahverdi MEHDİYEV,***
***“Azərbaycan”***

# Komandası da Paşinyanın istefasını tələb edir

***Ermənistanda cərəyan edən son hadisələrin təhlili göstərir ki, Paşinyan hakimiyyətinin mövqeləri əhəmiyyətli dərəcədə sarsılıb. Ermənistan iqtidarına qarşı ictimai narazılığın miqyasının daha da genişlənməsi müşahidə olunur. Yerevanda hər gün keçirilən etiraz aksiyaları hakimiyyətin təzyiqləri nəticəsində yatırılsa da, gərginlik səngimir.***










Görünən həm də budur ki, dünənə qədər demokratiya və qanunçuluqdan dəm vuran Paşinyan vəzifəsini qoruyub saxlamaq üçün ən radikal addımlara gedir. Bütün ölkəboyu repressiv tədbirlər həyata keçirilir. Belə vəziyyətdə hakimiyyətin zorla dəyişdirilməsi ehtimalı da yüksəlir.

## “Kimsə görübmü ki, müharibəni uduzan rəhbər öz vəzifəsində qalsın?”

Baş nazirə qarşı çıxan qüvvələr indi sərt şəkildə Paşinyanı müxtəlif məsələlərdə ittiham edərək, ölkəni uçuruma doğru yuvarladığını bildirirlər. Hətta hakim “Mənim addımım” fraksiyasında təmsil olunan deputatlardan da Nikol Paşinyandan narazılıq halları artır. Noyabrın 10-da kapitulyasiyadan sonra fraksiyanın üç üzvü bloku tərk edib və bir neçə yüksəkvəzifəli məmur istefa verib. Hazırda iqtidar komandasında baş nazirin istefası tələbi ilə bağlı ciddi fikir ayrılığı yaranıb.

“İrates” nəşrinə açıqlama verən erməni deputatlardan biri deyib: “Əlbəttə, Nikol getməlidir. Kimsə görübmü ki, müharibəni uduzan rəhbər öz vəzifəsində qalsın? Baş verənlərlə barışmamışıq. Sadəcə olaraq, ölkəni daha da sarsıtmaq və sərt açıqlamalar vermək istəmirik. Özümüzə yer tapa bilmirik, məlum hadisələr hamı kimi, mənə də sürpriz oldu”.

Adı açıqlanmayan deputat fraksiya üzvlərinin təqribən 80 faizinin Paşinyanın istefasının tərəfdarı olduğunu bildirib: “Paşinyan getsə də, növbədənkənar parlament seçkilərindən əvvəl komandamızdan biri onu əvəz edəcək. Məsələn, baş nazirin müavini Tiqran Avinyan və ya digər nazir Suren Papikyan müvəqqəti bu vəzifəni icra edə bilər”.

## General dövlət sirrini yaymaqda ittiham olunur

Çətin duruma düşən Ermənistan rəhbərliyi isə vəziyyətdən çıxış yolu kimi Müdafiə Nazirliyində çoxsaylı həbslər aparmaqla, kadr dəyişiklikləri həyata keçirməklə ictimai qəzəbdən xilas olmaq istəyir. Bu arada “Aravot” nəşri yazıb ki, Ermənistanın müdafiə naziri David Tonoyan da istefa verib.

Ermənistan Müdafiə Nazirliyi Hərbi Nəzarət Xidmətinin keçmiş rəisi, general-polkovnik Movses Akopyan isə keçirdiyi mətbuat konfransında Ermənistanın müharibə yalanlarını ifşa edib. O, əvvəlcə istefasının səbəbini açıqlayıb. Bildirib ki, baş nazir Nikol Paşinyanın həyat yoldaşı Anna Akopyana irad tutduğuna görə vəzifəsindən ayrılmalı olub. Bundan əlavə, erməni general etiraf edib ki, Qarabağda müharibə zamanı döyüşlərlə bağlı yaydıqları məlumatların hamısı yalan olub. Akopyan həmçinin döyüşlərdə Azərbaycana qarşı “İsgəndər” raketindən istifadə etdiklərini də vurğulayıb.

Movses Akopyan həmçinin Qarabağda müharibə gedərkən baş nazir Nikol Paşinyanın arvadının komanda məntəqəsində olduğunu təsdiqləyib. Bildirib ki, Anna Akopyandan otağı tərk etməyi xahiş etdiyi üçün Yerevana geri çağırılıb. Xatırladaq ki, A.Akopyanın Qarabağda döyüş əməliyyatları zamanı erməni generallarının müşavirə keçirdiyi komanda məntəqəsində olduğu, bu zaman generallardan birinin ondan otağı tərk etməyi istədiyi üçün Paşinyan tərəfindən işdən çıxarıldığı haqda xəbərlər bir neçə gün əvvəl yayılmışdı. Movses Akopyan deyib ki, Paşinyanın arvadı hərbi müşavirə keçirilən komanda məntəqəsinə icazəsiz daxil olmuşdu. Hansı ki, kənar şəxslərin ora daxil olması qəti qadağan idi. Buna baxmayaraq, general içəri girəndə A.Akopyanı monitorun qarşısında oturub döyüşlərin videoyazısına baxdığını görüb. Bu vaxt general-leytenant Samvel Babayan da orada olub. Movses Akopyan deyir ki, Paşinyanın arvadı suallar vermirdi və heç nə danışmırdı. General ona yaxınlaşıb və komanda məntəqəsini tərk etməyi xahiş edib. Deyib ki, onun burada olması lazım deyil: “Bildirdim ki, burada kişilər danışır, söyüş söyürlər. O da dedi “yaxşı”. Dörd saat sonra məni Yerevana, müdafiə nazirinin yanına çağırdılar. Mən bu gözlənti ilə getdim ki, tezliklə Qarabağa geri qayıdacam. Amma nazir mənə dedi ki, daha ora getməli deyiləm”.

Ermənistan Müdafiə Nazirliyinin yaydığı məlumatda deyilir ki, nazirliyin Hərbi-Nəzarət Xidmətinin keçmiş rəhbəri Movses Akopyanın dedikləri nəinki həqiqətə uyğun deyil, həm də özündə dövlət sirrini ehtiva edir. Eyni zamanda qeyd edilir ki, M.Akopyanın açıqlamalarında Ermənistanın müdafiə sahəsində beynəlxalq əməkdaşlığına dair məlumatlar da yer alır. Açıqlamalardan sonra M.Akopyan Xüsusi İstintaq Xidmətinə çağırılıb. Bunu onun özü “İravunk” qəzetinin müxbirinə açıqlamasında təsdiqləyib.

## Gərginlik Ermənistanda bütün sahələri əhatə edir

Ermənistanda bir fikir hakimdir ki, N.Paşinyan bu ölkəyə rəhbərlik etmiş ən zəif rəhbərdir. O, sələfləri Robert Koçaryan və Serj Sarkisyanla müqayisədə Ermənistanı daha çox problemlərə düçar edib. “4rd.am” saytı yazır ki, onun rəhbər kimi uğursuzluqları demək olar ki, ölkə həyatının bütün sahələrini əhatə edir: “Onun baş nazirliyi dövründə müharibədə uduzmaqla yanaşı, ölkə iqtisadiyyatı davamlı eniş dövrünü yaşayıb, investisiyalar kəskin azalıb, yoxsulluğun səviyyəsi artıb. Ermənilər daha yaxşı həyat arzusu ilə kütləvi şəkildə başqa ölkələrə üz tuturlar. Ermənistan iqtisadiyyatı hazırda dəhşətli geriləmə yaşayır, üstəlik, heç bir sağlamlaşma perspektivlərinə malik deyil. Azərbaycanda isə tamam fərqli vəziyyət müşahidə olunur. Azərbaycanın sosial-iqtisadi inkişaf sahəsindəki uğurları beynəlxalq aləm tərəfindən təqdir olunduqca Ermənistanın dünya arenasındakı siyasi nüfuzu daha sürətlə azalır. Dünyanın aparıcı beynəlxalq təşkilatları, qurumları və tanınmış siyasətçilər, iqtisadçılar Azərbaycanın reallaşdırdığı hərtərəfli islahatları inkişaf etməkdə olan ölkələr üçün nümunə kimi göstərirlər. Bu fonda Ermənistan Azərbaycanla müqayisəyə belə gəlmir”.

Erməni mediası onu da yazır ki, əslində, Paşinyan komandasının üzvlərinin böyük əksəriyyətinin xaricdə çoxsaylı daşınmaz əmlakı var. Elə baş nazirin özünün də belə əmlaklara sahib olması inkar edilmir, sadəcə, onlar dövlət başçısına yaxın şəxslərin adına rəsmiləşdirilib. Bu səbəbdən də digər məmurlar çəkinmədən xaricdə daşınmaz əmlaka milyonlar yatırırlar. Çünki nəticə etibarı ilə məmurların hamısı korrupsiya sisteminin üzvləridir.

Mövqeləri sarsılan Nikol Paşinyanın yaxın zamanda hakimiyyətdən uzaqlaşdırılacağı şübhə doğurmur. Çünki indi tək müxalifət deyil, komandasının üzvləri və tərəfdarları da onun istefasını tələb edirlər.

***Elçin CƏFƏROV,***
***“Azərbaycan”***

# Biz birlikdə güclüyük!



# Daha bir qələbəmiz koronavirus üzərində olacaq

**Müzəffər Ordumuzun qələbəsindən sonra bizim mübarizəni hamılıqla davam etdirməli olduğumuz daha bir düşmən də qalır. Bu, bütün dünyanı çənginə almış koronavirus pandemiyasıdır.**

Təhlükəli xəstəliyin Çinin Uhan şəhərində ilk işartılarının görünməsindən artıq bir ildən çox vaxt ötür. Bu müddət ərzində koronavirus pandemiyası planetimizdə böyük dəyişikliklərə səbəb oldu. Müxtəlif ölkələrdə on minlərlə insanın həyatına son qoydu. Əfsuslar olsun ki, pandemiya Azərbaycandan da yan keçməydi. Hazırda isə bir çox ölkələrdəki kimi bizdə də koronavirusun növbəti dalğasının yayılmasına şahidik. Dövlətimizin həyata keçirdiyi qabaqlayıcı tədbirlər sayəsində Azərbaycan bu xəstəliklə mübarizədə ən az itki verən ölkələrdən olsa da, təhlükənin miqyası kifayət qədər böyükdür. Artıq gündəlik yoluxma statistikası iki mini keçir.





## İkiqat məsuliyyətli olmalı

Vətəndaşlarımız indi xəstəlikdən qorunmaq üçün tətbiq olunan qaydalara riayət edilməsi məsələsində ikiqat məsuliyyətli olmalıdırlar. Çünki işğalçı Ermənistana qarşı hərbi əməliyyatların gərgin mərhələsini yenicə başa vurmuşuq. Amma hələ hərbi vəziyyət davam edir. Apardığımız haqq davasında yaralanmış xeyli sayda qəhrəman hərbçimiz var. Onların bir qisminin müalicəsi xəstəxanalarda aparılır. Tibbi personalın mühüm hissəsi onların sağlamlığının bərpasına cəlb olunub.

Bizim də hazırda onların sağlamlığına ən böyük töhfəmiz özümüzü koronavirusdan qorumaq olardı. Çünki bu xəstəliyə yoluxan hər yeni şəxs bir xəstəxana çarpayısının tutulması, onlarca tibbi heyətin onun qayğısına qalması zərurətinin yaranması deməkdir.

Əlbəttə, həm koronavirusa yoluxmuş xəstələrin müalicəsi, həm testləşdirmə prosesinin aparılması və vaxtında qabaqlayıcı tədbirlərin görülməsi üçün dövlətimiz tərəfindən hazırda lazımi addımlar atılır. Ötən bir il müddətində koronaviruslu xəstələrin müalicəsi məqsədilə onlarca yeni xəstəxanalar istifadəyə verilib. Bu dövrdə tibb sektorunda yaranmış yeni vəziyyətin tənzimlənməsi məqsədilə də ardıcıl işlər görülür. Təxirəsalınmaz tədbirlər həyata keçirilir. Bununla belə, nəzərə almalıyıq ki, dövlətin resursları da hüdudsuz deyil. Ona görə indiki günlərdə tibbi personalın əsas diqqəti cəbhədə canları, qanları ilə zəfər qazanmış, bizi həsrətində olduğumuz böyük qələbəyə yetirmiş yaralı hərbçilərimizə yönəldə bilməsi üçün heç birimiz sağlamlığımıza etinasız yanaşmamalıyıq. Tətbiq olunan karantin qaydalarına ciddi əməl etməliyik.

## Qaydalara əməl etmək vacibdir

Bu xəstəlikdən qorunmanın yolları, əslində çox sadədir. Maska taxmaq, sosial məsafə saxlamaq və dezinfeksiya tədbirlərini unutmamaqla koronavirusa yoluxma hallarının qarşısını xeyli dərəcədə almaq olar. Nəzərə almalıyıq ki, hazırda xəstəliyə qarşı mübarizə prosesi də müharibənin başqa bir formasıdır. Əsas fərq odur ki, bu cəbhədə təkcə əli silahlı əsgər və zabitlərimiz yox, hamımız varıq. Təhlükəli xəstəlik öz simptomları ilə hər birimizə hücum çəkir. Gözəgörünməz düşmənlə hamımız üz-üzəyik.

Hərbi əməliyyatların gedişində cəmiyyətimizin nəbzi döyüş bölgəsində vururdu. Hər birimiz cəbhəyə can atırdıq. Azərbaycanın ərazi bütövlüyü uğrunda haqq davası aparan qəhrəman əsgər və zabitlərimizin yanında olmaq istəyirdik. Onlara necəsə fayda verməyimizə çalışırdıq. Qələbəmiz üçün nələrsə etməyə can atırdıq.

Həkim və başqa tibb işçilərimiz də koronavirusla mübarizə cəbhəsinin fədakar qəhrəmanlarıdırlar. Azərbaycanın indiyə qədər bu xəstəlikdən ən az itki vermiş ölkələr sırasında olması məhz koronavirusla mübarizədə gecəsini-gündüzünə qatan tibb işçilərimizin əzmkarlığı sayəsindədir. Azərbaycan Prezidenti İlham Əliyevin də vurğuladığı kimi, onlar qəhrəmandırlar.

Tibb işçiləri amansız xəstəliklə çarpışan xəstələrin pənahıdırlar. Şəfalı əlləri ilə insanları həyata qaytaran qüvvədirlər. Xəstə yaxınlarının ümid yeridirlər. Bəşəriyyət tezliklə bu bəladan da qurtulacaq. Biz birliyimizin gücü ilə koronavirusa da qalib gələcəyik və bu günlər hamımız üçün keçmiş haqqında bir xatirəyə çevriləcək. Həkimlərimizin fədakar əməyi isə heç zaman unudulmayacaq. Onların insanları xilas etməkdən ötrü çəkdikləri əziyyətləri, saatlarla əyinlərindən çıxarmadıqları xüsusi geyimlərin, gəzdirdikləri maskaların çöhrələrindəki izini, gözlərindəki yorğunluğu, amma, eyni zamanda, xəstəliklə mübarizə əzmini də həmişə sevgi ilə yada salacağıq.

## Vətəndaş sayıqlığı

Təəssüflər olsun ki, işğalçı Ermənistanla haqq savaşımızda şəhidlər verdiyimiz kimi, koronavirusla mübarizədə də dünyalarını dəyişənlərimiz oldu. Viruslu xəstələrin müalicəsində fəal iştirak edən bir neçə həkim və tibb işçimiz bu amansız xəstəliyin qurbanına çevrildi. Ona görə biz öz məsuliyyətli davranışlarımızla bu cəbhənin qəhrəmanlarını da qorumalıyıq. Səhhətimizə etinasızlıq göstərib xəstəliyin miqyasını genişləndirməklə onların da sağlamlığını təhlükə altında qoymamalıyıq. Bu qəhrəmanların bizim dəstəyimizə indi daha böyük ehtiyacları var. Cəmiyyət olaraq biz tibb işçilərimizə köməyimizi, yardımımızı əsirgəməməliyik. Bunun üçün bizdən böyük bir əziyyət tələb olunmur. Hazırkı durumda onlara ən böyük köməyimiz isə özümüzü təhlükəli xəstəlikdən qoruyub işlərini, qayğılarını daha da artırmamağımızdan ibarətdir. Bu, indi fərdi məsələ deyil, böyük vətəndaş məsuliyyətidir.

Koronavirusun yeni dalğasının miqyasını nəzərə alaraq hazırda dövlətimiz karantin tədbirlərini sərtləşdirmək məcburiyyətində qalıb. Virusun yayılmasının və onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə ölkə ərazisində xüsusi karantin rejiminin müddəti 2020-ci il 28 dekabr saat 06:00-dək uzadılıb. Xüsusilə həftəsonlarında ictimai nəqliyyatdan istifadə, həyati əhəmiyyətli fəaliyyət sahələri, o cümlədən aptek və ərzaq mağazaları istisna olmaqla, digər bütün sahələr üzrə yerində xidmətlərin dayandırılması ilə bağlı müəyyən məhdudiyyətlər tətbiq edilib. Xüsusi karantin rejiminin qüvvədə olduğu müddətdə ölkə üzrə bütün qapalı və açıq məkanlarda müvafiq qaydada tibbi maskalardan istifadə məcburi hesab olunur. Maskalardan istifadə qaydalarına nəzarət rejimi daha da sərtləşdirilib. Yüksək risk qrupuna daxil olan yaşı 65-dən yuxarı şəxslərin zərurət yaranmadan yaşayış yerlərini tərk etməmələri məsləhət olunur. Həmçinin özəl sektorda və digər sahələrdə fəaliyyət göstərən qurum və təşkilatlara da işçilərin say həddinin 30 faizədək azaldılması və digər əməkdaşların məsafədən iş rejiminə keçirilməsi tövsiyə edilir. Bütün bunlar dövlətimizin inzibati qərarları qədər həm də vətəndaş məsuliyyəti ilə bağlı məsələlərdir.

Ümid edirik ki, hər bir vətəndaşımız karantin qaydalarına bundan sonra öz səhhətinə diqqəti qədər həm də yaralı hərbçilərimizə ehtiramı, xəstəxanalarda insanları amansız xəstəliyin çəngindən almaq üçün çarpışan tibb işçilərinin fədakar əməyinə sayğısı kimi əməl edəcək. Və biz çox tezliklə koronavirus üzərində də zəfər qazanacağıq.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# Müsbət tendensiyanın yenidən əldə olunması özümüzdən asılıdır

**Koronavirus bütün dünyada tüğyan etməkdədir. Ümumilikdə dünya ölkələri üzrə yoluxma sayı artıq 57 milyonu ötüb. Ən çox yoluxma halı ABŞ-dadır. Sonrakı yerlərdə isə Hindistan və Braziliya qərarlaşıb, Fransa, Rusiya, İspaniya, Britaniya, Argentina siyahını davam etdirir. Pandemiya ərzində indiyədək dünyada 1 milyondan çox insan həyatını itirib.**



Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) xəbərdarlıq edərək bildirib ki, koronavirus pandemiyası ilə mübarizə çərçivəsində Avropanı qarşıda daha 6 ay çətin dövr gözləyir. ÜST-ün Avropa üzrə direktoru Hans Kluqe adıçəkilən qitədə keçən həftə rekord həddə - 29 mindən çox koronavirusla bağlı ölüm faktının qeydə alındığını bildirib. Onun sözlərinə görə, bu göstərici hər 17 saniyədə bir nəfərin ölməsini ifadə edir.

## Bəzi qadağalar tətbiq olunacaq

Göründüyü kimi, hazırda dünyada yeni növ koronavirus infeksiyasına yüksək yoluxma dinamikası müşahidə olunmaqdadır. Bu səbəbdən virusun geniş yayılmasının qarşısının alınması üzrə müvafiq tədbirlər həyata keçirilir, bir çox ölkələr sərt karantin qaydaları tətbiq edirlər.

Respublikamızda da virusun yayılmasının və onun törədə biləcəyi fəsadların qarşısının alınması məqsədilə ölkə ərazisində xüsusi karantin rejiminin müddəti 28 dekabradək uzadılıb. Bununla belə, son günlərdə COVID-19 virusuna yüksək yoluxma dinamikası qeydə alındığından, bəzi qadağaların yenidən tətbiq edilməsinə də qərar verilib. Belə ki, sərt karantin rejimi tətbiq edilən Şəki, Lənkəran şəhərləri, Qax, Zaqatala, Biləsuvar, Cəlilabad, Masallı, İsmayıllı, Quba, Xaçmaz rayonlarında bu tədbirlərin müddəti 7 dekabradək uzadılıb.

Bakı Metropolitenində sərnişindaşımanın fəaliyyətinə tətbiq olunan məhdudiyyət də 28 dekabradək uzadılıb və bütün ölkə ərazisində şənbə və bazar günləri ictimai nəqliyyatın fəaliyyəti dayandırılıb. Eyni zamanda şənbə və bazar günləri həyati əhəmiyyət kəsb edən fəaliyyət növləri, o cümlədən aptek və ərzaq mağazaları istisna olmaqla, digər bütün sahələr üzrə yerində xidmətlər dayandırılıb.

## Qapalı və açıq məkanlarda tibbi maskalardan istifadə məcburidir

21 noyabrdan etibarən xüsusi karantin rejiminin qüvvədə olduğu müddətdə ölkə üzrə bütün qapalı və açıq məkanlarda tibbi maskalardan istifadə məcburi hesab olunur. Bununla da maskalardan istifadə qaydalarına nəzarət rejimi daha da sərtləşdirilib.

Xatırladaq ki, tibbi maskadan istifadə olunmaması və ya tələb olunan normalara uyğun taxılmaması qanunla müəyyən edilmiş qaydada məsuliyyət yaradır.

Dünyadakı, o cümlədən Azərbaycandakı mövcud sanitar-epidemioloji vəziyyəti nəzərə alaraq yüksək risk qrupuna daxil olan yaşı 65-dən yuxarı şəxslərin zərurət yaranmadan yaşayış yerlərini tərk etməmələri tövsiyə olunur.

Həmçinin özəl sektorda və digər sahələrdə fəaliyyət göstərən qurum və təşkilatlara da işçilərin say həddinin 30 faizədək azaldılması və digər əməkdaşların məsafədən iş rejiminə keçirilməsi tövsiyə edilir.

Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) Xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva bildirib ki, Azərbaycanda gündəlik yoluxmalar iki mindən çoxdur. İyun-iyul aylarında yoluxma halları maksimum 600-ə bərabər idi. Səhiyyə sistemi yüklənmişdi və ciddi əziyyət çəkirdik. Hazırkı vəziyyətdə səhiyyə sistemimiz daha da yüklənib.

Y.Qarayeva koronavirusla mübarizə istiqamətində görülən işlərdən də bəhs edib: "Ölkəmizdə koronavirusla mübarizə məqsədilə 10-dan çox modul tipli xəstəxana açılıb. Bir çox xəstəxana COVİD xəstələrinə tibbi xidmət göstərmək üçün xüsusi avadanlıqlarla təchiz olunub. Tibb işçiləri xüsusi təlimlər keçib. Xarici ölkələrdən Azərbaycana istər qısa, istərsə də uzunmüddətli fəaliyyət göstərən tibbi mütəxəssislər gətirilib. Hər zaman qeyd etmişik ki, tibbi xidmətin keyfiyyəti bizim üçün əsasdır. Bütün bunlara baxmayaraq, belə tendensiya tibb sistemini yükləyir. Digər yandan, müharibədə yaralanan əsgərlərə tibbi xidmət göstərməyə davam edirik. Hələ də iki cəbhədə vuruşuruq. Cəmiyyətimizin köməyinə ehtiyacımız var. Hər kəsi müharibə zamanı göstərilən birliyi koronavirusla mübarizədə də göstərməyə səsləyirik".

## Sutkada 13 mindən çox test həyata keçirmək mümkündür

Y. Qarayeva onu da vurğulayıb ki, ölkəmizdə koronavirusa yoluxanların sayı çox olsa da, sağalanların da sayı az deyil. Lakin sağalanlarla yeni yoluxanların fərqinə xüsusi diqqət yetirmək lazımdır. Çünki onların arasında xəstəliyi ağır keçirənlərin hospitalizasiyaya ehtiyacı olur. Belə artım və fərq davam edərsə, gələcəkdə həmin xəstələrin yataqla təminatında problemlər yarana bilər.

Y.Qarayeva bildirib ki, xəstəliyə yoluxma hallarının müəyyənləşdirilməsinə başlanılan zaman maksimum 5 min test aparmaq mümkün idi. Lakin görülən tədbirlər, ölkəyə gətirilən xüsusi cihazlar nəticəsində testlərin sayı artırılıb: "Cihazların çoxu Bakıda deyil, regionlarda quraşdırılıb. Hazırda bütün regionlarda xaricdən gətirilmiş yüksək səviyyəli cihazlar vasitəsilə koronavirusun təyinolunması testlərini apara bilirik. Ölkə üzrə sutkada 13 mindən çox test həyata keçirmək mümkündür".

Onun sözlərinə görə, koronavirusdan həyatını itirənlərin sayı əvvəllər 10-a qədər olurdusa, hazırda həmin rəqəm 25-dək artıb. Bu da çox narahatlıq doğurur və daha ciddi tədbirlərin görülməsinin vaxtının çatdığını göstərir.

TƏBİB rəsmisi məlumat verib ki, hazırda tam hazır olan və tətbiqinə başlana biləcək koronavirus əleyhinə peyvənd yoxdur, vaksinlərin hazır olması və tətbiqi gələn ilin aprel ayına gözlənilir: "Qarşıdan gələn qış mövsümünü karantin rejimi qaydalarına və əks-epidemik tədbirlərə riayət edərək keçirməliyik".

Göründüyü kimi, hazırda dünyada olduğu kimi ölkəmizdə də sanitar-epidemioloji vəziyyət gərgindir. Yaranmış çətin vəziyyətin aradan qalxması, müsbət tendensiyanın yenidən əldə olunması isə öz əlimizdədir.

Buna görə də, hər kəs COVID-19 virusu ilə mübarizədə mövcud karantin tələblərinə ciddi riayət etməli, zərurət olmadıqda kənar şəxslərlə təmaslardan uzaq olmalı, maskadan istifadə etməlidir.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***








# Azərbaycanda koronavirus infeksiyasına daha 3169 yoluxma faktı qeydə alınıb, 1404 nəfər sağalıb

**Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 3169 yoluxma faktı qeydə alınıb, 1404 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 26 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 87 min 163 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 60 min 869 nəfər müalicə olunaraq sağalıb, 1079 nəfər vəfat edib. Aktiv xəstə sayı 25215 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 576 min 60 test aparılıb. Dünənki test sayı isə 13618-dir.



# Arxa cəbhə



## Bu il 1600-dək əlilliyi olan şəxs özünüməşğulluq proqramına cəlb edilib

**Əlilliyi olan şəxslərin özünüməşğulluq proqramı çərçivəsində kiçik təsərrüfat və müəssisələrinin qurulması işləri davam edir. Cari ilin ötən dövründə də Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən 1600-dək əlilliyi olan şəxs həmin proqrama cəlb olunub.**

Bu kateqoriyadan olan şəxslərin proqrama cəlb edilməsi prosesi hazırda da davam edir. Qeyd edək ki, proqramla əhatə olunanlar həssas qruplardan biri olan əlilliyi olan şəxslərə üstünlük verilir. Onlar seçdikləri iqtisadi fəaliyyət növləri üzrə və biznes planlarına uyğun mal və materiallar formasında aktivlərlə təmin olunurlar.

Eyni zamanda BMT İnkişaf Proqramı ilə birgə icra olunan "Əhalinin sosial cəhətdən həssas qrupları üçün inklüziv və layiqli iş yerlərinin yaradılması" layihəsi üzrə isə daha 500 nəfər əlilliyi olan şəxsin aktivlər verilməklə kiçik biznesi qurulur. BMT-nin İnkişaf Proqramı və BMT-nin Əhali Fondu ilə birgə Nazirliyin icra etdiyi layihənin əsas istiqamətlərindən biri kimi də əlilliyi olan şəxslərin özünüməşğulluğunun dəstəklənməsi işləri aparılır.

Çox fərəhli haldır ki, daha bir rayonumuz - Ağdam erməni faşizminin işğalından azad oldu və bu rayondan olan həmvətənlərimizin də yurd həsrətinə son qoyuldu. Onların sırasında xeyli sayda özünüməşğulluq proqramı iştirakçıları da var.




İndi sonsuz sevinc, qürur hissi ilə dədə-baba ocaqlarına qayıtmağa hazırlaşan həmin vətəndaşlar özünüməşğulluq proqramının dəstəyi ilə qurduqları ailə bizneslərini də Ağdama aparacaqlar. Kiçik ailə təsərrüfat və müəssisələrini öz rayonlarında genişləndirəcəklər.

Düşmən işğal etdiyi yurd yerlərimizdəki infrastrukturu vəhşicəsinə dağıdaraq yerləyeksan etsə də, artıq azad günlərinə qovuşan torpaqlarımız, o cümlədən Ağdam yenidən bərpa olunacaq, dirçələcək, abadlaşacaq. Həmin bölgələrdə sosial-iqtisadi həyat yenidən canlanacaq, inkişaf edəcək.

Özünüməşğulluq proqramı çərçivəsində yaradılmış kiçik təsərrüfat və müəssisələr də bu prosesə öz töhfəsini verəcək.

## Müharibə də Ağdam kəndlisinin əlini işdən soyuda bilmədi

*Qarabağda artıq atəş səsləri eşidilmir. Şanlı ordumuz, qəhrəman Azərbaycan əsgəri müqəddəs Vətən müharibəsində düşmənin silahlı qüvvələrini darmadağın etmişdir. Ermənistan həm hərbi, həm də siyasi cəhətdən rüsvayçı məğlubiyyətə uğramışdır.*



Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin müdrik siyasəti, qətiyyətli sərkərdə bacarığı sayəsində xalqımız 30 ildən bəri həsrətlə gözlədiyi parlaq qələbəyə qovuşmuşdur.

Ağdam cəbhə bölgəsidir. Rayonumuzun ümumi ərazisinin dörddəüç hissəsi uzun illərdən bəri Ermənistan silahlı qüvvələrinin işğalı altında idi. Biz ağdamlılar bu günü, düşməndən qisas alacağımız məqamı səbirsizliklə gözləyirdik. Müharibədə yeni mərhələ başladı və qəhrəman Azərbaycan əsgəri nəyə qadir olduğunu tam aydınlığı ilə göstərdi. Çox qısa bir zaman ərzində işğal altındakı torpaqlarımızın əhəmiyyətli hissəsi azad olundu. Üçrəngli müqəddəs bayrağımızın Cəbrayılda, Hadrutda, Zəngilanda, Qubadlıda, Şuşada və nəhayət Ağdamda, eləcə də digər yaşayış məntəqələrində ucaldılması təbii olaraq hər bir ölkə vətəndaşının ürəyini sonsuz qürur hissi ilə doldurdu.

Vətən müharibəsinin davam etdiyi günlərdə ağdamlılar döyüş meydanında olduğu kimi, arxa cəbhədə əmək meydanında da gerçək fədakarlıq nümunəsi göstərdilər. Başımıza artilleriya mərmiləri, raketlər yağdığı, evlərimizin dağıldığı, mülki əhali arasında həlak olanların olduğu çətin məqamlarda belə, ağdamlılar ruhdan düşmür, qələbə naminə gerçək hünər göstərirdilər. O ağır günlərdə təsərrüfat işləri inamla davam etdirilirdi. Həmin hünərin nəticəsidir ki, bu gün Ağdam kəndlisinin dövlət və xalq qarşısında üzü ağdır. Keçən illə müqayisədə kənd təsərrüfatı məhsullarının istehsalı və tədarükü nəinki azalmış, əksinə, xeyli artmışdır. Cari ilin 9 ayı ərzində rayon üzrə istehsal edilən kənd təsərrüfatı məhsullarının faktiki qiymətlərlə dəyəri 114,6 milyon manat olmuşdur ki, bu da ötən ilin eyni dövrünə nisbətən 4,5 faiz çoxdur. "Sarı kəhrəba" ustalarımız 14347 hektar sahədən 55530 ton taxıl istehsal etmişlər. Cari ildə 5545 ton kartof, 74975 ton tərəvəz, 2184 ton bostan məhsulları, 342 ton şəkər çuğunduru, 1006 ton meyvə, 210 ton üzüm tədarük olunmuşdur. Heyvandarlıq məhsulları istehsalında da keçən ilin müvafiq dövrü ilə müqayisədə xeyli artım əldə edilmişdir.

Bu il rayonumuzun təsərrüfatlarında 2120 hektar sahədə pambıq əkilmiş, aqrotexniki tələblərə ciddi əməl edilməsi sayəsində tarlalarda bol məhsul yetişdirilmişdir. Məhsul yığımı müharibənin qızğın çağına təsadüf etsə də, nisbətən təhlükəsiz ərazilərdə yığım davam etmişdir. İndiyədək tədarük məntəqələrinə 4500-dən çox ton pambıq təhvil verilmişdir. Hələ tarlalarda xeyli məhsul var. Böyük zəhmət, alın təri hesabına hasilə gələn bu qiymətli məhsulu son qozasınadək yığıb təhvil verməkən əzmindəyik.

Vətən müharibəsinin qələbə ilə başa çatması Ağdamda yüksək əhvali-ruhiyyə, gerçək bayram ovqatı yaratmışdır. Əminik ki, tezliklə biz işğaldan azad edilmiş doğma yurdumuza dönəcəyik. Qarşıda qürur doğuracaq görüləsi işlərimiz çoxdur. Biz dövlətimizin gücünə, qüdrətinə arxalanıb Ağdamı yenidən quracaq, hər qarışını cənnətə döndərəcəyik.

***Ramal MƏMMƏDOV,***
***Ağdam Dövlət Aqrar İnkişaf Mərkəzinin direktoru***

## Enerji sahəsində Azərbaycan-Britaniya əməkdaşlıq imkanları müzakirə olunub

**Energetika Nazirliyinin aparat rəhbəri Zaur Məmmədov ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının ölkəmizdəki səfirliyinin beynəlxalq ticarət departamentinin Azərbaycan üzrə direktoru və enerji məsələləri üzrə regional rəhbəri Joel Derbyshire arasında onlayn görüş keçirilib.**

Nazirlikdən AZƏRTAC-a bildirilib ki, Z.Məmmədov tarixi qələbəmizin və işğal altında olan torpaqlarımızın azad olunmasının ərazi bütövlüyümüzü bərpa etməklə yanaşı, enerji layihələrimizin də təhlükəsizliyini daha etibarlı təmin edəcəyini qeyd edib. Daha sonra Azərbaycanda energetika sahəsində islahatlar, ənənəvi energetika, liberal bazar mexanizmlərinə keçid, bərpaolunan enerji və enerji səmərəliliyi sahəsində hazırlanmış qanunvericilik aktları haqqında məlumat verilib və "Energetika haqqında" qanun layihəsinin hazırlanma prosesinin davam etdirildiyi bildirilib. Eyni zamanda bərpaolunan enerji sahəsində görülən işlər, günəş və külək enerjisi sahəsində həyata keçirilən pilot layihələr, sahə üzrə beynəlxalq əməkdaşlıq məsələləri, ölkəmizdə bərpaolunan enerji potensialı, o cümlədən dənizdə külək enerjisindən istifadə perspektivləri barədə məlumat verilib.

Görüşdə işğaldan azad edilmiş regionların bərpaolunan enerji mənbələri, xüsusilə günəş və külək enerjisi üzrə yüksək potensiala malik olması da xüsusilə vurğulanıb. Həm bu sahələr üzrə, həm də Azərbaycanda dənizdə külək enerjisi, enerjinin saxlanması, hidrogen enerjisi sahələrinin inkişafı istiqamətində birgə əməkdaşlıq imkanlarının araşdırılmasının məqsədəuyğun olacağı qeyd edilib və qarşı tərəfdən ünvanlanan suallar cavablandırılıb.

## Kürdəmir pambıqçıları rayon tarixində ən yüksək göstərici əldə ediblər

**Kürdəmir rayonunun pambıq yığımı davam edir və artıq hər hektardan məhsuldarlıq 27 sentnerə çatıb ki, bu da rayon tarixində ən yüksək göstəricidir. Qazanılan məhsuldarlıq təkcə ötənilki göstəricidən 6,9 sentner çoxdur.**

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən bu barədə AZƏRTAC-a verilən məlumatda bildirilir ki, cari ildə 1997,5 hektarda "ağ qızıl" yetişdirilib. İndiyədək tarlalardan 5433 ton məhsul yığılıb. Havaların soyumasına baxmayaraq, hazırda hər gün tarlalara 100 nəfərə yaxın işçi qüvvəsi çıxır, gündə 15-20 ton pambıq yığılır. Hər yerdə, xüsusilə daha çox pambıq yetişdirilən Kürqırağı ərazilərdə, o cümlədən Şilyan, Qarasu, Muradxan, Sor-Sor və bir sıra digər ərazi dairələrində məhsulun son qozasınadək yığılması üçün ciddi səy göstərilir.

Qeyd edək ki, tədarük edilən "ağ qızıl"ın çoxu - 4323,8 tonu pambıqyığan maşınların qüvvəsi, qalanı isə əl ilə yığılıb.

## BTC-nin 4595 tankerlik "qara qızıl" yükü



### Bədxahlarımıza göz dağı olan bu möhtəşəm kəmər fəaliyyətini uğurla davam etdirir

**Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəmərinin fəaliyyəti ahəngdarlıqla davam edir. Cari ilin 9 ayı ərzində BTC üzrə əməliyyat xərclərinə təqribən 67 milyon, əsaslı xərclərə isə təqribən 20 milyon dollar vəsait xərclənib. Bu barədə kəmərin operatoru olan BP şirkəti ilin ilk üç rübünün yekunlarına aid hesabatında məlumat verib.**

Uzunluğu 1768 kilometr olan BTC boru kəməri 2006-cı ilin ortalarında tam sistem kimi istismara veriləndən bəri beləcə fasiləsiz və təhlükəsiz şəkildə işləyir. Həmin vaxtdan cari ilin oktyabr ayının 1-nədək bu kəmər vasitəsilə ümumilikdə 469 milyon tondan artıq (3,52 milyard barel) xam neft nəql edilib. Bu neft həcmləri Ceyhanda 4595 tankerə yüklənərək dünya bazarlarına göndərilib.

BTC möhtəşəm kəmərdir, o, boruları torpağın altında olmaqla, üç ölkənin - Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazisindən keçir. Boru kəmərinə yerüstü obyektlər sistemi də daxildir. Bu, 2 terminal, 8 nasos stansiyası, 101 siyirtmə məntəqəsindən ibarətdir. BTC-nin baş nasos stansiyası Səngəçal terminalında yerləşir. Azərbaycandakı ikinci nasos stansiyası Yevlax rayonundadır. Kəmərin Gürcüstanda da iki stansiyası var. Qalan dörd stansiya Türkiyə ərazisindədir.

BTC-nin səhmdarları BP (30,1 faiz), AzBTC (25 faiz), MOL (bu il aprelin 16-dan "Şevron" şirkətini əvəz edib - 8,9 faiz), "Ekvinor" (8,71 faiz), TPAO (6,53 faiz), "Eni" (5 faiz), "Total" (5 faiz), İTOÇU (3,4 faiz), İNPEKS (2,5 faiz), "EksonMobil" (2,5 faiz) və ONGC (BTC) Limited (2,36 faiz) şirkətləridir.

Əvvəlcə gündə 1 milyon barel neft ötürmək gücündə layihələndirilən kəmərin nəqletmə qabiliyyəti sonralar 20 faiz də artırılıb. İndi BTC 1,2 milyon barel gündəlik ötürücülük gücünə malikdir.

Bu ilin ilk üç rübü ərzində BTC vasitəsilə təqribən 21,4 milyon ton (162 milyon bareldən artıq) xam neft və kondensat ixrac olunub. Kəmərin daşıdığı karbohidrogenlər Ceyhanda 214 tankerə yüklənib.

Hazırda BTC ilə "Azəri-Çıraq-Günəşli" yataqlarından çıxarılan neft, "Şahdəniz" yatağından əldə olunan kondensat, müəyyən miqdarda Türkmənistan, Qazaxıstan və Rusiya nefti də nəql edilir. Regionda enerji ixracının başlıca arteriyası hesab olunan bu boru kəməri zəngin enerji ehtiyatlarının dünya bazarlarına çıxarılmasında mühüm rol oynayır. Qapalı Xəzər hövzəsi və bütün dünya bazarlarına asan çıxışı olan Aralıq dənizi arasında ilk birbaşa əlaqəni də məhz BTC yaradıb.

BTC-nin uğurlar salnaməsi getdikcə zənginləşir. 2018-ci il mayın 30-da "Cənub qaz dəhlizi"nin açılış mərasimindəki nitqində Prezident İlham Əliyev demişdir: "2002-ci ildə artıq biz "Azəri-Çıraq" yatağından böyük neft gözləyərkən məhz burada - Səngəçal terminalının ərazisində Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməlini qoyduq. Bu kəmər 2006-cı ildə istifadəyə verildi və bu gün Azərbaycan xalqına, bütün dost ölkələrə xidmət edir. Bu gün Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə nəinki Azərbaycan nefti, eyni zamanda, digər ölkələrin nefti də nəql edilir. Xəzərin şərq sahilində digər ölkələr tərəfindən hasil edilən neft artıq bu kəmər vasitəsilə dünya bazarlarına çıxarılır. Azərbaycan bu gün, eyni zamanda, etibarlı tranzit ölkə kimi qonşu ölkələrə öz imkanlarını təqdim edir".

Mütəxəssislərin fikrincə, müasir dövrdə karbohidrogenlərin nəqli üçün ən etibarlı vasitə boru kəmərləridir. Ələlxüsus da borular torpağın altında basdırılıbsa. BTC də məhz yerin altından səs-küy yaratmadan keçən, boruları möhkəm izolyasiya edilmiş etibarlı kəmərdir. O eləcə də Bosfor və Dardanel boğazlarından yan keçməklə neft daşımalarının artımına, ekoloji risklərin azalmasına kömək edir.

BTC, həmçinin bütün regiona xeyirbərəkət gətirən kəmərdir. Birbaşa gəlirlər gətirməklə yanaşı, dolayısı ilə - kəmərboyu ərazilərdə sosial layihələr həyata keçirməklə orada yaşayan insanların güzəranına müsbət təsir göstərir.

Bütün bunları gözü götürməyən ermənilər BTC-ni və digər kəmərlərimizi hədəfə almışdılar. Hətta Səngəçəl terminalını atəşə tutacaqları ilə bizi hədələyirdilər. Onların bu mənfur niyyətləri də gözlərində qaldı.

BTC şaxtadan da qorxmur. Hazırda qış fəslinin astanasındayıq. Azərbaycanda BTC-nin keçdiyi bölgələrdə hələlik qar-çovğun olmasa da, marşrut boyu digər yerlərdə əsl şaxta hökm sürür. Lakin bunlar BTC üçün maneə törətmir. İxrac öz qaydasında davam edir.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Buğdanın yeni keyfiyyət standartı təsdiqlənib

**Əhalinin sağlam və keyfiyyətli un-çörək məhsulları ilə təmin edilməsi üçün xammalın keyfiyyətinin artırılmasına nəzarəti həyata keçirəcək yeni, sərtləşdirilmiş tələbləri ehtiva edən AZS 888:2020 "Buğda. Texniki şərtlər" dövlət standartı təsdiq olunub.**

Yeni standart keyfiyyətli buğdanın tədarükü (saxlanma) prosesinə nəzarəti də təmin edəcək. Dövlət standartı İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin Azərbaycan Standartlaşdırma İnstitutu publik hüquqi şəxs tərəfindən hazırlanıb.

Buğdanın əsas keyfiyyət göstəriciləri (natura, qlüten miqdarı, düşmə ədədi, zülal və s.) unun keyfiyyət göstəricilərinə təsir edən əsas faktordur. Yeni standarta görə, 1, 2 və 3-cü sinif ərzaqlıq buğda, eləcə də 4 və 5-ci sinif aşağı keyfiyyətli buğdanın keyfiyyət və təhlükəsizlik tələbləri sərtləşdirilib. 1, 2 və 3-cü sinif buğdaları çörək istehsalında istifadə olunur. 4-cü sinif buğda keyfiyyət göstəricilərinə görə birbaşa un və çörək istehsalına yaramır. Zəif buğda olduğundan daha bahalı buğda növlərinin qatılması ilə çörəkbişirmə üçün yararlı hala gətirilir. 5-ci sinif buğda isə keyfiyyət göstəricilərinə görə qida üçün tam yararsız buğda sayılır və əsasən heyvandarlıq, quşçuluq və digər sahələrdə istifadə edilir.

Standart layihəsinin müzakirəsində Kənd Təsərrufatı Nazirliyi, Səhiyyə Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Fövqəladə Hallar Nazirliyi, Qida Təhlükəsizliyi Agentliyinin nümayəndələri iştirak ediblər. AZS 888:2020 "Buğda.Texniki şərtlər" dövlət standartı ölkə ərazisində aparılan elmi-tədqiqat işləri, beynəlxalq, Avropa və regional standartlar əsasında hazırlanıb.

## Dekabrın 15-də hərraca 41 dövlət əmlakı çıxarılacaq

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən növbəti hərrac 15 dekabr tarixində təşkil ediləcək.

Hərraca 41 dövlət əmlakı (səhmdar cəmiyyətləri) çıxarılacaq.

Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən təşkil edilən hərraclarda hər kəsin sərbəst iştirakı təmin edilir. İştirak etmək istəyən şəxslərin seçdikləri dövlət əmlakı üzrə elektron sifariş verməklə yanaşı, hərraclara onlayn qoşulmaq imkanı da yaradılıb. Prosesə marağı olanlar hərrac günü həm Əmlak Xidmətləri Məkanına gəlməklə, həm də elektron resurslardan istifadə etməklə hərracları qeydiyyatsız formada izləyə də bilərlər.

Keçirilən hərraclarda iştirak etmək istəyən şəxslər Xidmətin rəsmi saytına (emlak.gov.az) və ya Özəlləşdirmə portalına (privatization.az) daxil ola, seçim etməklə qeydiyyatdan keçə, dövlət əmlakının ilkin hərrac qiymətinin 10%-i məbləğində behi ödəyib sifarişçi statusu ala bilərlər. Hərrac günü hər kəs Elektron Xidmətlər Portalından (e-emlak.gov.az) "Elektron hərrac" bölməsini seçərək özəlləşdirməyə qoşula bilər.

## Gələn aydan fermerlərə məhsul subsidiyasının ödənilməsinə başlanacaq

**Fermerlərə məhsul subsidiyasının ödənilməsinə dekabrın ikinci ongünlüyündə başlanacaq.**



Hazırda fermerlərdən təhvil alınan pambıq, tütün və şəkər çuğunduru məhsulları barədə məlumatlar tədarükçülər tərəfindən Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminə (EKTİS) yerləşdirilir. Məlumatlar yoxlandıqdan sonra fermerlərə ödəmə ediləcək. Noyabrın 20-nə olan operativ məlumata əsasən, 2020-ci ildə 99 902 hektar sahədən 309267 ton pambıq, 4 903 hektar sahədən 213801 ton şəkər çuğunduru və 3144 hektar sahədən 6065 ton quru tütün məhsul yığılıb.

Aqrar Kredit və İnkişaf Agentliyi fermerlərə təhvil verdikləri məhsulla bağlı məlumatların tədarükçü tərəfindən EKTİS-də yerləşdirildiyini dəqiqləşdirməyi tövsiyə edib. Qaydalara əsasən, tədarükçü tərəf fermerdən hansı məbləğdə nə qədər və hansı məhsulu aldığını təsdiqləyən alqı-satqı müqaviləsini və qəbzləri EKTİS-ə yükləməlidir.

Qeyd edək ki, dövlət tərəfindən fermerlər tədarükçüyə təhvil verdikləri pambığın hər tonuna görə 100, quru tütünün hər tonuna görə 50, yaş tütünün hər tonuna görə 5, şəkər çuğundurunun hər tonuna görə 4 manat subsidiya ödənilir.

## Tütünçülükdə orta məhsuldarlıq göstəriciləri yüksəlib

### Fermerlər sahələrdən bol məhsul götürürlər

**Bu il tütünçü fermerlər sahələrdən bol məhsul götürürlər. Aqrotexniki qulluq qaydalarına düzgün riayət edilməsi, şitil, gübrə və dərman təminatının yüksək səviyyədə təşkili sayəsində 2020-ci ildə tütünçülükdə orta məhsuldarlıq göstəriciləri yüksəlib.**

Cari il Azərbaycanda 3144 hektar sahədə tütün əkilib, 3141,5 hektar sahədə bitiş alınıb. Bu günədək sahələrdən 5949,8 ton tütün yığılıb. Fermerlər məntəqələrə 5078,2 ton quru tütün təhvil veriblər. Hazırda tütün üzrə orta məhsuldarlıq 18,9 sentner təşkil edir. Sahələrdə yığım davam edir, mövsümün yekununa kimi orta məhsuldarlıq göstəricisinin daha da artacağı gözlənilir.

2020-ci ildə Azərbaycanın 12 rayonunda və Naxçıvan Muxtar Respublikasında tütün əkilib. Əkin sahələrinin yarıdan çoxu ənənəvi tütünçülük bölgələrindən olan Şəki, Qax və Oğuz rayonlarının payına düşür. 2020-ci ildə Şəkidə 1108 hektar, Qaxda 496,5 hektar, Oğuzda isə 269 hektar sahədə tütün əkilib. Tütün üzrə orta məhsuldarlıq Şəkidə 32,1 sentner, Qaxda 13,5 sentner, Oğuzda 14,8 sentnerdir. Zaqatala, Balakən, Qəbələ, Tovuz, İsmayıllı, Goranboy, Lerik, Masallı və Yardımlı rayonlarında da fermerlər sahələrdən bol məhsul götürüblər.



Qeyd edək ki, ölkədə tütünçülüyün inkişafı dövlət tərəfindən dəstəklənir. Dövlət dəstəyi mexanizmlərinin genişləndirilməsi tütünçülüyün inkişafını stimullaşdırır. Tütün həm əkin, həm məhsul subsidiyası verilən kənd təsərrüfatı bitkiləri kateqoriyasına daxildir. Fermerlər tütün əkilmiş sahələrin hər hektarına görə dövlətdən 280 manat subsidiya alırlar. Bundan başqa, qəbul məntəqələrinə təhvil verilən quru tütünün hər tonuna görə fermerlərə 50 manat məhsul subsidiyası ödənilir.

Hazırda sahələrdə yığım davam edir, tütün yarpağı yığımının optimal müddətdə başa çatdırılması gözlənilir.

# Azərbaycanın haqq savaşı xarici mətbuatda




Argentinanın "Clarin" gündəlik qəzetinin saytında "Azərbaycan Ordusu Qarabağ üzrə razılaşma çərçivəsində Ağdama daxil olub" sərlövhəli material dərc olunub.

AZƏRTAC xəbər verir ki, Argentina nəşri döyüş əməliyyatlarının dayandırılması barədə Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladığı razılaşmaya müvafiq olaraq, Azərbaycan Ordusunun bu gün Ağdam rayonuna daxil olmasını diqqətə çatdırır.

Qəzet bildirir ki, Ağdam 1992-1994-cü illərdə Birinci Qarabağ müharibəsindən sonra erməni qüvvələrinin nəzarəti altında qalan Dağlıq Qarabağla həmsərhəd rayonlardan biridir. Bu işğal nəticəsində Ağdamın 120 min sakini öz evlərini tərk etmək məcburiyyətində qalıb.

Argentina nəşri diqqətə çatdırır ki, bundan əvvəl Azərbaycanın hakimiyyət orqanları erməni qoşunlarının Kəlbəcər rayonundan çıxarılması tarixinin 10 gün uzadılmasına razılıq verib, indi həmin tarix noyabrın 25-nə müəyyən edilib.

Qəzetdə, həmçinin qeyd edilir ki, 44 günlük müharibə Ermənistan cəmiyyətində ciddi siyasi böhran əmələ gətirib. Artıq 10 gündür ki, hazırkı hakimiyyətə qarşı keçirilən etiraz aksiyalarında hökumətin istefası tələb edilir.

❖ ❖ ❖




Ukraynanın aparıcı KİV-i Azərbaycanın Ağdam rayonunun işğaldan azad olunmasına dair xəbərləri geniş işıqlandırıb.

AZƏRTAC xəbər verir ki, Ukrinform, "RBK-Ukrayna" informasiya agentlikləri, "Segodnya", "Gordon" və digər portalların yaydıqları informasiyalarda Azərbaycan Silahlı Qüvvələrinin ordu birləşmələrinin Ağdam rayonuna daxil olması barədə məlumat verilib.

Qeyd edilib ki, Azərbaycan Prezidenti, Ermənistanın baş naziri və Rusiya Prezidentinin imzaladıqları üçtərəfli Bəyanata əsasən Azərbaycan Ordusunun bölmələri noyabrın 20-də Ağdam rayonuna daxil olub.

Yazılarda vurğulanır ki, 30 ilə yaxın müddətdə Ağdam rayonu Ermənistanın nəzarətində idi. Bildirilir ki, ermənilər Ağdamı tərk edərkən evləri, məktəbləri, xəstəxanaları yandırıblar.

❖ ❖ ❖




"Azərbaycan Ordusu 27 illik işğaldan sonra Ağdam rayonuna daxil olub".

AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, bu barədə noyabrın 20-də Malayziyanın BERNAMA Milli İnformasiya Agentliyi məlumat yayıb. Məlumatda Azərbaycanın Müdafiə Nazirliyinə istinadla Silahlı Qüvvələrimizin Azərbaycan, Rusiya və Ermənistan liderləri arasında imzalanmış üçtərəfli sənədə əsasən Ağdama daxil olduğu bildirilir. Qeyd edilir ki, 1993-cü ildə xarici havadarlarının köməyi ilə rayon ərazisinin 77 faizini işğal edən erməni silahlıları buradan 120 mindən çox azərbaycanlını zorla qovublar.

Yazıda münaqişənin tarixi barədə də məlumat verilir. Qeyd edilir ki, ötən əsrin 90-cı illərinin əvvəllərində başlayan münaqişə nəticəsində Ermənistan ordusu Dağlıq Qarabağ regionunu və ona bitişik 7 rayonu işğal edib. Vurğulanır ki, həmin ərazilər beynəlxalq ictimaiyyət tərəfindən Azərbaycan torpaqları kimi tanınır.

Xatırladılır ki, sentyabrın 27-də Ermənistan ordusunun dinc əhaliyə qarşı növbəti hərbi təxribatı Azərbaycan Silahlı Qüvvələrinin əks-hücumuna səbəb olub. Cəmi 44 gün davam edən döyüşlər nəticəsində Azərbaycan düşmən tapdağı altında olan bir neçə şəhəri və 300-dən çox yaşayış məntəqəsini azad edib.

Rusiyanın təşəbbüsü ilə imzalan üçtərəfli sənədə uyğun olaraq, hərbi əməliyyatlar noyabrın 10-da dayandırılıb və Ermənistan ordusu işğal etdiyi bütün əraziləri boşaltmağa başlayıb.

❖ ❖ ❖



Gürcüstanın aparıcı "report.ge", "24news.ge", "dalgatv.ge", "aktual.ge" və digər informasiya portalları Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin noyabrın 20-də xalqa müraciətini yayıblar.

AZƏRTAC xəbər verir ki, Azərbaycan Prezidentinin müraciətində səsləndirdiyi əsas fikirlər oxucuların diqqətinə çatdırılıb.

Bundan başqa, informasiya portalları işğaldan azad olunmuş Ağdam rayonu ərazisinə Azərbaycan Ordusunun bölmələrinin daxil olması ilə bağlı materiallar da yayıblar.

Xəbərlər oxuculara Azərbaycan, rus, ingilis və gürcü dillərində təqdim olunub.

❖ ❖ ❖




İşğaldan azad edilmiş Füzuli şəhərinə səfər edərək orada Ermənistanın törətdiyi müharibə cinayətlərinin ağır fəsadları ilə tanış olan xarici jurnalistlər arasında "Əl-Cəzirə" kanalının müxbiri də olub.

AZƏRTAC xəbər verir ki, kanal ermənilərin Füzuli şəhərində törətdikləri vəhşiliklərlə bağlı reportaj yayımlayıb.

Reportajda qeyd edilir ki, Füzuli 1993-cü ildə Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunub və şəhər demək olar bütünlüklə xarabalığa çevrilib. On minlərlə Füzuli sakini məcburi köçkünə çevrilmişdi.

Reportajda Füzuli sakinlərinin bir neçəsinin fikirlərinə də yer verilib. Onlar evlərinin, məscidlərinin ermənilər tərəfindən dağıdıldığını bildirirlər. Qeyd edilir ki, Füzulidəki ən qədim binalardan biri də 100-dən çox yaşı olan teatr binası idi. İndi həmin bina tanınmaz haldadır.

Reportajda Ermənistanın Azərbaycana qarşı ağ fosfor tərkibli silahlardan istifadə etməsindən də bəhs olunur. Qeyd edilir ki, fosfor tərkibli silah insan orqanizmində ciddi fəsadlar yaradan və istifadəsi qadağan edilmiş silahdır. Azərbaycan rəsmiləri Ermənistanın bu silahdan mülki əhaliyə qarşı istifadə etdiyini bildirib.

Diqqətə çatdırılır ki, Füzulidəki Qorqan postunda yeraltı bunkerlər və səngərlər yerləşib. Geri çəkilməyə məcbur olan Ermənistan silahlı qüvvələri silah-sursatlarını burada qoyub.

Reportajda qeyd edilir ki, Azərbaycan Prezidenti İlham Əliyev azad edilmiş ərazilərdə artıq quruculuq işlərinə başlanıldığını bildirib. Füzulidən Şuşaya çəkiləcək yolun tikinti işlərinə başlanılıb. Dövlət başçısı ermənilərin törətdikləri əməllərə görə beynəlxalq məhkəmələrdə cavab verəcəklərini qeyd edib.

Müxbir deyir ki, bu şəhərdəki dağıntılara baxanda burada vaxtilə on minlərlə insanın yaşadığını təsəvvürə gətirmək çox çətindir. Bu gün həmin sakinlər öz rayonlarına qayıtmağa hazırdırlar.

Süjetdə Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Prezident Administrasiyasının xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin fikirləri də yer alıb.

Prezidentin köməkçisi bildirib ki, Ermənistan vandalizm və insanlığa qarşı müharibə cinayəti əməllərinə görə məsuliyyət daşıyır. Bu ərazilərdə qiymətləndirmə aparıldıqdan sonra Azərbaycan müvafiq beynəlxalq təsisatlara, məhkəmələrə müraciət edəcək.

❖ ❖ ❖




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ağdamın işğaldan azad olunması ilə əlaqədar xalqa müraciəti Türkiyə kütləvi informasiya vasitələri (KİV) tərəfindən qardaş ölkə ictimaiyyətinə canlı yayımla təqdim edilib.

AZƏRTAC xəbər verir ki, birgə bəyanata əsasən təcavüzkar Ermənistanın silahlı dəstələrinin geri çəkilməsi nəticəsində Ağdam rayonunun düşməndən azad edilməsi münasibətilə dövlət başçısının noyabrın 20-də Azərbaycan xalqına müraciəti Türkiyə ictimaiyyətinin həsrətlə gözlədiyi xəbərlərdən idi. Prezident İlham Əliyevin müraciətindəki əsas fikirlər və çağırışlar Türkiyə mediasının manşet xəbərinə çevrilib.

Ümumiyyətlə, Azərbaycan Silahlı Qüvvələrinin işğaldan azad edilmiş Ağdam rayonu ərazisinə daxil olmasına dair proseslər iki gündür ki, Türkiyə KİV-lərinin əsas xəbəri kimi qalmaqdadır.

❖ ❖ ❖




Ərəb ölkələrinin nüfuzlu televiziya kanalları Azərbaycan Ordusunun bölmələrinin Ağdama daxil olması barədə geniş reportajlar yayımlayır.

AZƏRTAC xəbər verir ki, xəbərlər proqramlarında efirə gedən süjetlərdə Azərbaycan Müdafiə Nazirliyinin məlumatına istinad edilir.

Qətərin "Əl-Cəzirə" telekanalının xüsusi müxbiri Ağdamdan hazırladığı reportajda noyabrın 10-da Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladığı bəyanata əsasən Ermənistan silahlı qüvvələrinin Ağdamı Azərbaycan Ordusuna təhvil verdiyini, şəhərdə çoxlu dağıntılar olduğunu qeyd edir. Vurğulanır ki, 30 ilə yaxın işğal altında qalan bu şəhərin azad edilməsi Azərbaycan Ordusunun 44 gün ərzində apardığı uğurlu döyüşlərdə Qələbəsinin nəticəsidir.

Ağdamın işğaldan azad edilməsi barədə Səudiyyə Ərəbistanının "Əl-Ərəbiyyə", Misirin "ExtraNews", habelə "Sky News Arabia", "Al-Mamlaka", "Alhadath" və "İ24 Arabic" telekanalları da reportajlar yayımlayıb.

❖ ❖ ❖




Meksikanın nüfuzlu "Canal Once" televiziya kanalında tanınmış siyasi şərhçi Federiko Lamontun Azərbaycan və Rusiya prezidentləri, Ermənistanın baş naziri tərəfindən Ermənistan ilə Azərbaycan arasında atəşkəsin əldə edilməsi üzrə imzalanmış birgə bəyanat haqqında müsahibəsi yayımlanıb.

Müsahibədə 10 noyabr tarixindən qüvvəyə minən üçtərəfli bəyanatla bütün cəbhəboyu atəşkəs elan olunduğunu deyən F.Lamont sənədin tələblərinə əsasən Ermənistanın 30 ilə yaxındır hərbi işğal altında saxladığı Azərbaycan ərazilərini azad etməli və 1 milyona yaxın azərbaycanlı məcburi köçkünün geri qayıtmasını təmin etməli olduğunu bildirib.

AZƏRTAC xəbər verir ki, meksikalı ekspert Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal altında qalan ərazilərindən çıxarılması ilə paralel olaraq, razılaşmanın müddəalarının icrasına nəzarət məqsədilə Rusiya və Türkiyənin daxil olduğu Birgə Monitorinq Mərkəzinin yaradılacağını söyləyib. Razılaşmanın əldə olunmasında Türkiyənin də önəmli rolu olduğunu vurğulayan F.Lamont bundan sonra regionda davamlı sülhün bərqərar olacağına ümid etdiyini bildirib.

Azərbaycanın dünyada çoxmillətli ölkə kimi tanındığını və məhz bu səbəbdən Roma Papası Fransisk tərəfindən də təqdir edildiyini deyən ekspert azərbaycanlı məcburi köçkünlərin öz torpaqlarına qayıtmasından sonra Azərbaycan ərazisindəki digər millətlərin nümayəndələri kimi, ermənilərin də onlarla birlikdə sülh şəraitində yaşaya biləcəklərini söyləyib.

F.Lamont ermənilərin Azərbaycanın işğal edilmiş ərazilərini tərk edərkən yerli infrastruktura və ətraf mühitə ciddi zərər vurduğunu, habelə Azərbaycan Ordusu tərəfindən hərbi əməliyyatlar yolu ilə azad edilmiş şəhər və qəsəbələrdə infrastruktura və tarixi-mədəni irsə qarşı kütləvi talançılıq hallarının törədildiyinin müşahidə olunduğunu vurğulayıb.

❖ ❖ ❖

İspaniyanın dövlət telekanalının (RTVE) "Xəbərlər" proqramında ermənilərin Azərbaycanın Kəlbəcər rayonunda vandalizm aktları, ekoloji cinayətlər törətməsi ilə bağlı süjet efirə gedib.

AZƏRTAC xəbər verir ki, süjetdə Kəlbəcərdə qanunsuz olaraq məskunlaşmış erməni əhalinin rayondan çıxarkən vandalizm aktları törətdikləri diqqətə çatdırılır. Yayımlanan videogörüntülərdə əhalinin özləri ilə apara bilmədiyi əşyaları, yaşayış evlərini, məktəbləri yandırması faktı öz təsdiqini tapır.

Həmçinin Prezident, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyev tərəfindən qəhrəman Azərbaycan Ordusunun Ermənistanın işğalından azad etdiyi ərazilərimizdə üçrəngli dövlət bayrağımızın ucaldıldığı qeyd olunur.

Bildirilir ki, Azərbaycan torpaqlarının Ermənistanın işğalından azad olunması Azərbaycan xalqı tərəfindən böyük ruh yüksəkliyi ilə qeyd edilir.

Prezident İlham Əliyevin sözlərinə istinadən bildirilir ki, Azərbaycanın işğaldan azad olunmuş ərazilərində Ermənistan tərəfindən sosial-iqtisadi infrastruktura, tarixi-mədəniyyət və dini abidələrə, ətraf mühitə, fərdi və çoxmənzilli yaşayış evlərinə vurulmuş zərər beynəlxalq ekspertlər tərəfindən qiymətləndiriləcək və Ermənistan tərəfindən təzminatın ödənilməsinin təmin edilməsi məqsədilə beynəlxalq tribunala müraciət olunacaq.

Proqramda, həmçinin Azərbaycan və Rusiyanın prezidentləri, Ermənistanın baş naziri tərəfindən imzalanmış birgə bəyanatın Ermənistanda kütləvi etirazlara səbəb olduğu, etirazçıların hökumət və parlament binalarını ələ keçirdiyi, baş nazir N.Paşinyanın istefasının tələb edildiyi diqqətə çatdırılır.

❖ ❖ ❖



Fransanın "Paris Match" jurnalında dərc olunmuş məqalədə Ermənistanın Azərbaycana qarşı hərbi təxribatlarından, Azərbaycan şəhərlərinə raket hücumları etməsindən, mülki əhalini qətlə yetirməsindən bəhs olunur.

AZƏRTAC xəbər verir ki, məqalədə Ermənistanın Bərdəyə raket hücumu nəticəsində şəhərdə yaranmış vəziyyət təsvir edilir.

Bərdə şəhərində raket zərbəsinin endirildiyi ərazidə olan fransalı jurnalist buranın qan çanağına döndüyünü, 21 mülki azərbaycanlının cəsədini gördüyünü qeyd edir. O yazır ki, xilasedicilər yanmış maşınları aparırdılar. Ətrafdakı meyvə-tərəvəz mağazasının sahibi olan qadın indi həmin mağazanın yerində böyük bir çuxur yarandığını görəndə göz yaşlarına qərq oldu. Yaxınlıqdakı ət mağazası da əsl qırğın səhnəsini xatırladırdı. Həlak olan mülki insanların xatirəsini yad etmək üçün bu yerlərə güllər düzülürdü.

Müəllif Azərbaycanda hər tərəfdə "Qarabağ bizimdir!" şüarını eşitdiyini və gördüyünü bildirir.

Fransalı jurnalist cəbhə bölgəsinə də getdiklərini, yolboyu zirehli, yanmış, mərmilərdən yararsız vəziyyətə düşmüş maşınları gördüyünü yazır.

Məqalədə qeyd edilir ki, 1993-cü ildə ermənilər azərbaycanlı əhalini yurdlarından didərgin salıb, hətta onların qəbiristanlıqlarını belə dağıdıblar. Müəllif yolda dağıdılmış, vandalizmə məruz qalmış qəbirlərin yanında dayandıqlarını bildirir, onu müşayiət edən Samir adlı şəxsin bu acınacaqlı vəziyyət, hətta ermənilərin cəsədlərdən qızıl dişləri belə çıxarmaları haqqında məlumat verdiyini yazır.

"Azərbaycanlılar kilsələrə və qəbiristanlıqlara toxunmur", - deyən Samir vurğuladı ki, bu ermənilər hara gedirlərsə, düşünürlər ora onlara məxsusdur. Görəcəksiniz, Fransada yaşayan ermənilər də bir gün deyəcəklər ki, ora onların ölkəsidir.

Müəllif yazır ki, Birinci Qarabağ müharibəsi haqqında xatirələrini bölüşən insanlar həmin vaxt demək olar əliyalın vuruşduqlarını deyirlər. İndi isə Azərbaycanın inkişaf etdiyi, hərbi büdcəsini qat-qat artırdığı qeyd edilir.

Məqalədə, həmçinin Azərbaycanın öz torpaqlarını bir aydan artıq müddət ərzində azad etməsindən söhbət açılır. Azad edilmiş ərazilərdə artıq elektrik çəkilişinin həyata keçirildiyi, oralarda yeni həyatın başladığı diqqətə çatdırılır.

❖ ❖ ❖




Avstraliyanın "The Sydney Morning Herald" qəzetində Ermənistanın Azərbaycan ərazilərində törətdiyi ekoloji terrorla bağlı məqalə dərc olunub. Məqalədə bildirilir ki, Azərbaycan, Rusiya və Ermənistan liderlərinin imzaladıqları sənədə əsasən, Azərbaycan noyabrın 15-də nəzarətə almalı olduğu Kəlbəcər rayonundan ermənilərin çıxması müddətini 10 gün artırdığı halda, ermənilər evləri, meşələri yandıraraq ekoloji terror törədirlər.

Məqalədə xatırladılır ki, üçtərəfli sənədə əsasən Azərbaycanın Dağlıq Qarabağ regionu və ətraf ərazilər uğrunda altı həftə davam etmiş müharibə dayandırılıb. Azərbaycan Ermənistan tərəfindən ötən əsrin 90-cı illərinin əvvəllərində işğal edilmiş əraziləri dekabrın 1-dək öz nəzarətinə götürməlidir. Azərbaycan Prezidentinin köməkçisi Hikmət Hacıyevə istinadla bildirilir ki, ilkin olaraq Kəlbəcər rayonunun Azərbaycanın nəzarətinə qaytarılması razılaşdırılsa da, Ermənistan tərəfinin xahişi ilə bu müddət noyabrın 25-dək uzadılıb. Bunun əvəzində isə ermənilər tərk etməli olduqları evlərə od vururlar: "Ermənilər ətraf mühitə və mülki obyektlərə böyük zərər vururlar. Vurulan ekoloji zərərin, ekoloji terrorun qarşısı alınmalıdır".

Məqalədə vurğulanır ki, 1993-cü ilədək Kəlbəcərdə yalnız azərbaycanlılar yaşayıblar. Lakin sonradan ermənilər silah gücünə bu əraziləri işğal ediblər. Azərbaycan heç vaxt bu işğalla barışmayıb.

Məqalədə Qarabağın tarixi Azərbaycan torpağı olması, 1991-1994-cü illərdə baş vermiş I Qarabağ müharibəsi zamanı Ermənistan tərəfindən işğal edildiyi qeyd olunub. Həmin döyüşlər zamanı 20 min nəfərin həlak olduğu, 100 minlərlə insanın məcburi köçkünə çevrildiyi vurğulanıb.

Sentyabrın 27-də Ermənistan ordusu tərəfindən törədilən növbəti təxribata cavab olaraq Azərbaycan Silahlı Qüvvələrinin qısa müddətdə böyük zəfər qazandığı və Qarabağın strateji şəhəri sayılan Şuşanı azad etdiyi də yazıda əksini tapıb.

❖ ❖ ❖




Moldovanın nüfuzlu NOİ.md saytında Azərbaycanın bu ölkədəki səfiri Qüdsi Osmanovun ermənilərin Kəlbəcər, Laçın və Ağdam rayonlarında ekoloji fəlakətlər törətməsinə dair bəyanatı dərc olunub.

AZƏRTAC xəbər verir ki, bəyanatda ermənilərin işğal altındakı rayonlarımızı tərk edərkən törətdikləri vandalizm hərəkətləri qeyd olunub.

Bəyanatda bildirilir ki, son günlərdə Kəlbəcərdən çəkilən görüntülər bütün dünyanı təəccübləndirib, ermənilərin oradan çıxmazdan əvvəl yolboyu evləri, dükanları, məktəbləri, xəstəxanaları yandırdıqlarını göstərir.

"Meşələrin yandırılması və ağacların kütləvi şəkildə kəsilməsi vandalizm, ekoloji terrordur, çünki söhbət canlı təbiətdən gedir. Qarabağın meşələri onun zənginliyidir. Oradakı ağacların orta yaşı 165 ildir. Ağaclar o qədər sıx böyüyür ki, meşə yarı kol kimi görünür", - deyə Q.Osmanov vurğulayıb.

Səfir, həmçinin bu vandalizm hərəkətlərinə dair video və fotoların tanınmış erməni KİV tərəfindən yayımlandığını, bu hərəkətləri öz nəşrlərində "əsaslandırdıqları"na və məqalələrin altında bir çox üsyankar şərhlərin yer almasına da təəccübləndiyini bildirib.

Bəyanatda Azərbaycanın rəsmi qurumlarının ermənilərin bu vandal hərəkətlərinə dair mövqeyi də yer alıb.

❖ ❖ ❖



İordaniyanın Əmman şəhərində fəaliyyət göstərən Yaxın Şərq Araşdırmaları Mərkəzi ilə əməkdaşlıq əsasında səfir Rasim Rzayevin "Biz və dünya" mövzusunda mühazirəsi təşkil edilib.

Mühazirə Türkiyənin Əmmandakı səfirinin, İordaniyada akkreditə olunan səfirliklərin diplomatlarının, eləcə də İordaniya Silahlı Qüvvələrinin təqaüddə olan generallarının, ali təhsil müəssisələrinin sabiq rektorlarının, Senatın sabiq və hazırkı üzvlərinin və Krallığın beyin mərkəzlərinin mütəxəssislərinin iştirakı ilə keçirilib.

Səfir R.Rzayev Azərbaycan xalqının rəşadətli Azərbaycan Ordusunun əldə etdiyi şanlı Qələbəni geniş qeyd etdiyini bildirib. O, ordumuzun Ermənistan rəhbərliyini kapitulyasiya etməyə məcbur etdiyini vurğulayıb.

Mühazirəsində səfir Azərbaycanın Yaxın Şərq ölkələri ilə əlaqələrindən ətraflı bəhs edib. O, Yaxın Şərq regionunda cərəyan edən münaqişələrin tezliklə aradan qalxmasını və bu regiona sülh, əmin-amanlıq, sabitlik arzulayıb.

Sonra səfir Ermənistan-Azərbaycan münaqişəsi barədə danışıb. O, BMT Təhlükəsizlik Şurasının münaqişənin həlli üzrə 4 qətnamə, eləcə də İslam Əməkdaşlıq Təşkilatının, Qoşulmama Hərəkatının və digər beynəlxalq təşkilatların münaqişə ilə bağlı sənədlər qəbul etdiyini diqqətə çatdırıb.

Diplomat həm ikitərəfli müstəvidə, həm də beynəlxalq təşkilatlar çərçivəsində haqq işimizə göstərdiyi davamlı dəstəyə görə İordaniyanın rəhbərliyinə, hökumətinə və xalqına təşəkkürünü bildirib.

Sonra təqdimatla çıxış edən səfirliyin müşaviri E.Şahhüseynov Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin enerji strategiyası başda olmaqla, milli inkişaf strategiyasını işləyib hazırladığını bildirib. Məhz Ulu Öndərin sayəsində 1994-cü ildə "Əsrin müqaviləsi"nin imzalandığını diqqətə çatdırıb.

E.Şahhüseynov Prezident İlham Əliyevin düşünülmüş xarici siyasəti nəticəsində dövlətimizin son 17 il ərzində istər daxildə, istərsə də xaricdə əldə etdiyi uğurlardan da bəhs edib. O, həmçinin Azərbaycanın son 17 il ərzindəki sosial-iqtisadi göstəriciləri, koronavirusla mübarizəyə verdiyi töhfələr barədə məlumat verib.

Azərbaycan-İordaniya əlaqələrindən də söhbət açan səfirliyin müşaviri daha sonra Ermənistan- Azərbaycan münaqişəsi mövzusunda geniş təqdimat edib.

Müşavir Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Azərbaycan Ordusunun 44 gündən sonra Ermənistanın baş nazirini kapitulyasiya etməyə məcbur etdiyini, 10 noyabr tarixində Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistanın baş naziri tərəfindən birgə Bəyanatın imzalandığını bildirib.

Tədbirdə erməni işğalçılarının məscidlərimizdə donuz saxladıqlarını və Kəlbəcərdəki evləri yandırdıqlarını əks etdirən fotolar nümayiş etdirilib.

Təqdimatın sonunda mühazirə iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

## AMEA akademik Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu Akademik Y.Məmmədəliyev adına Muzeyin lektoriyasının yaradılması və bədii tərtibatı işlərinin satın alınması üzrə

### *açıq tender elan edir*

Maraqlanan şəxslər tenderdə iştirak etmək üçün institutun aşağıdakı hesabına 100 (bir yüz) manat məbləğində iştirak haqqı ödəməklə **www.etender.gov.az** - dövlət satınalmalarının vahid internet Portalı (Portal) vasitəsilə tenderin Əsas şərtlər toplusunu əldə edə bilərlər.

**Bank rekvizitləri:**
**AZ 1025, Bakı şəh., Xocalı pr.30**
**VÖEN: 2000146301**
**Hesab №: AZ78CTRE00000000000004137901**
**Dövlət Xəzinədarlığı Agentliyi**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**M/h №: AZ41NABZ01360100000000003944**
**SWIFT BIK: CTREAZ22**
**Büdcə təsnifatının kodu - 142319**
**Büdcə səviyyəsinin kodu - 7**

Tenderdə iştirak etmək üçün iddiaçılar Portal vasitəsilə aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya reyestrdən çıxarış və s.) surətləri;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

İddiaçılar iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **11 dekabr 2020-ci il saat 10:00-a** qədər, tender təklifi və bank təminatını **21 dekabr 2020-ci il saat 17:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər. Zərflər **22 dekabr 2020-ci il saat 17:00-da** açılacaqdır.

İddiaçılar tərəfindən tenderlə bağlı bütün sorğular və onlara dair izahatlar yalnız dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə həyata keçirilməlidir.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi tərəfindən qaz sayğaclarının təmiri və alınıb-quraşdırılması işlərinin satın alınması məqsədilə 04.11.2020-ci il tarixdə keçirilmiş açıq tender prosedurlarının nəticəsinə əsasən, "ZAMİN XXI ƏSR" MMC qalib elan edilmişdir.

Həmin təşkilatla müvafiq satınalma müqaviləsi bağlanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Aparatın inzibati binasında xidməti iş otaqları üçün məlumatverici lövhələrin kotirovka sorğusu üsulu ilə satınalınmasını həyata keçirir. Maraqlanan təşkilatlar (012) 596-44-09 telefon nömrəsi ilə əlaqə saxlaya bilərlər. Kotirovka sorğularında iştirak etmək üçün sənədlər 2020-ci il 25 noyabr saat 15:00-dək Bakı şəhəri, Salatın Əsgərova küçəsi, 85 ünvanında qəbul olunur.

*Tender komissiyası*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu PHŞ

### *açıq tender elan edir*

İnsan resursları üzrə strategiya sənədinin hazırlanması üzrə xidmətin satın alınması ilə əlaqədar açıq tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**Tender 1 LOT üzrə keçirilir.**
**İştirak haqqı: 300,00 (üç yüz) manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: -142330**
**Büdcə səviyyəsinin kodu : - 4**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

1. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri* ***(Sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir)***
2. *Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
3. *Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
4. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması* ***(sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);***
5. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti* ***(2019-cu il üzrə);***
6. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı* ***(sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); - 20.11.2020-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir;***
7. *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması*
8. *Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
9. *Mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Statistika Komitəsindən alınmalıdır. Sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
10. *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
11. *Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
12. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər.Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **11.12.2020-ci il saat 14:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **21.12.2020-ci il saat 14:00-a** qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər. İddiaçıların təklifləri **22.12.2020-ci il saat 14:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.*

*Tender komissiyası*

## Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondu PHŞ

### *açıq tender elan edir*

Vətəndaş məmnunluğunun təmin edilməsi sahəsində metodoloji konsaltinq xidmətlərinin göstərilməsinə dair xidmətlərin satın alınması ilə əlaqədar açıq tenderə dəvət edir.

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/** - dövlət satınalmalarının vahid internet Portalına (Portal) elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə, texniki imkanlara və təcrübəyə malik olmalıdırlar.Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən edilən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üzrə təkliflərini Portal vasitəsi ilə təqdim edə bilərlər.

**İştirak haqqı: 300,00 (üç yüz) manat**
**VÖEN: 1300050781**
**Bank: Dövlət Xəzinədarlığı Agentliyi**
**H/h: AZ46CTRE00000000000007018504**
**M/h: AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**SWIFT: CTREAZ22**
**Büdcə gəlirlərinin təsnifat kodu: -142330**
**Büdcə səviyyəsinin kodu: - 4**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

1. *İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri* ***(Sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);***
2. *Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
3. *Tender təklifi dəyərinin 1%-i həcmində bank təminatı (tender təklifinin təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);*
4. *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması* ***(sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);***
5. *İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti* ***(2019-cu il üzrə);***
6. *İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı* ***(sənədin orijinalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir); - 20.11.2020-ci il tarixdən sonrakı tarixdə alınmış bank arayışı qəbul ediləcəkdir;***
7. *Satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması;*
8. *Satınalma müqaviləsini bağlamaq səlahiyyətinin olması;*
9. *Mikro, kiçik və orta sahibkarlıq meyarlarına uyğun olması barədə məlumat (Statistika Komitəsindən alınmalıdır. Sənədin originalı skan edilməli və pdf formatında yerləşdirilməlidir. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
10. *Öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması;*
11. *Müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;*
12. *Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə Satınalan Təşkilata ünvanlaya bilərlər.Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **11.12.2020-ci il saat 15:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **21.12.2020-ci il saat 15:00-a** qədər PORTAL VASİTƏSİLƏ təqdim etməlidirlər. İddiaçıların təklifləri **22.12.2020-ci il saat 15:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsi ilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada PORTAL vasitəsilə aparılır.*

*Tender komissiyası*

## Silahlı Qüvvələrin Ali Baş Komandanının rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusunun işğaldan azad etdiyi Füzuli, Cəbrayıl, Qubadlı, Zəngilan, Ağdam və bu kimi tamamilə dağıdılmış rayonlarda elektrik enerji sisteminin sıfırdan yaradılması, o cümlədən işğaldan azad olunan və olunacaq digər ərazilərdə enerjisistemin yenidən qurulması üçün "Azərenerji" ASC aşağıdakı vəzifələr üzrə kadr ehtiyatının yaradılması məqsədilə

### *müsabiqə elan edir*

**Vəzifələr:**

- ⇨ 330/220/110 və 110/35/10 kV-luq yarımstansiyalar üzrə növbətçi mühəndislər, istismar üzrə mühəndislər, növbətçi elektrik montyorları
- ⇨ Su elektrik stansiyaları üzrə hidromexaniklər, hidrotexniklər, elektriklər
- ⇨ Mühərrik və generator avadanlıqlarına xidmət edən mütəxəssis
- ⇨ Elektrik maşın, aparat və cihazların sazlayıcısı
- ⇨ Elektrik stansiyalarının ölçü cihazlarına və avtomatikasına xidmət edən mütəxəssis
- ⇨ Rele mühafiəsi və avtomatika üzrə mühəndis
- ⇨ Nəzarət ölçü cihazları və avtomatika üzrə mühəndis
- ⇨ İzolyasiya və ifrat gərginlikdən mühafizə üzrə mühəndis
- ⇨ Quraşdırma və sazlama üzrə usta, çilingər, tornaçı

**Tələblər:**

- Elektroenergetika mühəndisliyi, elektrik mühəndisliyi və istilik energetikası üzrə ali texniki təhsil (bakalavr və ya magistr pilləsi), orta-ixtisas təhsili və ya peşə ixtisası (vəzifədən asılı olaraq)
- İddiaçının vəzifəyə görə 6 aydan 5 ilədək iş təcrübəsi (iş stajı)
- İstilik energetikası və elektroenergetika üzrə nəzəri və praktik (təcrübi) biliklər
- Avtomatika, nəzarət ölçü cihazları və elektron cihazlar üzrə biliklər
- Kompüter biliyi: MS office
- Məhsuldar işləmək bacarığı, islahat və yeniliklərə meyillilik, komandada işləmək qabiliyyəti olması

**Tələb olunan sənədlər:**

- Fotoşəkilli şəxsi vərəqə (CV) forması
- Şəxsiyyət vəsiqəsinin surəti
- Təhsil haqqında sənədin surəti

Qeyd edək ki, müraciət edən namizədlərin bilik səviyyələri "Azərenerji" ASC üzrə yaradılmış Mərkəzi Müsahibə Komissiyası tərəfindən yoxlanıldıqdan sonra müsahibədən keçmiş namizədlər kadr ehtiyatı bankına daxil ediləcək və işlə təmin olunacaqlar. Eyni zamanda namizədlər komissiyanın rəyi əsasında təlim-tədris kurslarına cəlb oluna bilərlər.

Sənədlər həftə içi **5 gün saat 09:00-dan 18:00-dək** "Azərenerji" ASC-nin Kadrlar şöbəsinə təqdim olunur.

**Ünvan:** Bakı şəhəri, Səbail rayonu, Ak.Əbdulkərim Əlizadə küçəsi,10 AZ1005. Müsabiqədə iştirak etmək istəyənlər əlaqə üçün (+99412) 490-09-43 telefon nömrəsinə zəng edə və ya **cv@azerenerji.gov.az** ünvanına CV-lərini göndərə bilərlər.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin "Bakı Telefon Rabitəsi" Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən etender.gov.az portalında 22.09.2020-ci il tarixdə elan edilmiş "BTR" MMC-nin RXM-lərində xətt təsərrüfatında istifadə etmək üçün su pompası və ehtiyat hissələrinin satın alınması üzrə keçirilmiş açıq tenderin qalibi "AKTİF ELEKTRİK" MMC müəyyən edilmişdir.

"Bakı Telefon Rabitəsi" MMC və "AKTİF ELEKTRİK" MMC arasında 17.11.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Dövlət Pedaqoji Universiteti tərəfindən mətbəə mallarının satın alınması ilə bağlı elan edilmiş müsabiqə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin 17 noyabr 2020-ci il tarixli AİBNDX-15/01-7/6741 nömrəli məktubuna əsasən ləğv edilmişdir.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

AMEA akademik Y.Məmmədəliyev adına Neft-Kimya Prosesləri İnstitutu tərəfindən Akademik Y.Məmmədəliyev adına Muzeyin lektoriyasının yaradılması və bədii tərtibatı işlərinin satın alınması üzrə 19.11.2020-ci il tarixdə elan olunmuş açıq tender ləğv olunur.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun Avtomobillərin satın alınması məqsədilə 15.10.2020-ci il tarixdə elan etdiyi açıq tenderdə iddiaçılardan daxil olmuş tender təkliflərinin qiymətləndirilməsi həyata keçirilmiş, qiymətləndirmənin nəticəsində **"Subaru Azərbaycan" MMC** qalib müəyyən edilmişdir.

Qalib təşkilatla müvafiq satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti Dəftərxana ləvazimatlarının satın alınması

### *məqsədilə müsabiqə elan edir*

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 30 noyabr 2020-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti, 152, "Çinar plaza", 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili: 1176.**

*Tender komissiyası*

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

Qəzetin daim yenilənən rəsmi internet ünvanı: www.azerbaijan-news.az





# Mobil Ödəmə xidməti indi “Azercell” Fakturalı Xətt abunəçiləri üçün də mümkün oldu

**Ölkənin lider mobil operatoru “Azercell Telekom” bütün abunəçilərinin işini asanlaşdıran “Kabinetim” tətbiqi çərçivəsində Mobil Ödəmə xidməti ilə bağlı növbəti yeniliyi təqdim edir.**




Belə ki, ilin əvvəlində Sim-Sim abunəçiləri üçün istifadəyə verilən Mobil Ödəmə xidməti artıq “Azercell” Fakturalı Xətt abunəçiləri üçün də mümkün oldu.

Rəqəmsal həlləri daha da əlçatan etməyi hədəfləyən “Azercell” bu gunə qədər “Kabinetim” mobil tətbiqi ilə bir sıra yenilikləri abunəçilərinin ixtiyarına verib. Bunlardan biri və gələcək inkişaf baxımından xüsusilə önəmli olanı Mobil Ödəmə xidmətidir. Mobil Ödəmə xidməti nağd puldan, ödəmə kartından istifadə etmədən yalnız mobil telefon nömrəsinin balansından vacib gündəlik ödəmələri həyata keçirməyə imkan verir.

“Azercell”in Mobil Ödəmə xidməti gündəlik həyatın bir çox sahələrini əhatə edir. Abunəçilər sadəcə “Azercell” balansı hesabına heç bir əlavə prosedurdan keçmədən kommunal (qaz, elektrik enerjisi, su, istilik) xərclərini ödəyirlər. Burada, həmçinin internet və kabel televiziya xidmətlərinin haqqını ödəmək,eləcə də, E-İmza, stasionar telefon rabitəsi xidmətləri üçün ödəniş etmək imkanı yaradılıb. Mobil Ödəmə vasitəsilə, həm də, digər “Azercell” abunəçilərinin balansını artırmaq, müxtəlif əyləncəli oyunların hesabına pul yatırmaq mümkündür.

Mobil Ödəmə xidmətinin təqdim etdiyi ən son əhəmiyyətli imkanlardan biri də “Azercell” abunəçilərinin “Silahlı Qüvvələrə Yardım Fondu”na birbaşa ianə etmək imkanının mümkünlüyü oldu. Eyni zamanda bu xidmətdən istifadə etməklə qlobal cəmiyyətin mühüm problemi olan “Koronavirusla Mübarizəyə Dəstək Fondu”na da ianə etmək olar.

Qeyd edək ki, xidmətdən istifadənin digər şərtləri ilə “Azercell”in rəsmi saytı, eləcə də tətbiq vasitəsilə Mobil Ödəmə Xidmətindən istifadə qaydaları bölməsindən tanış olmaq mümkündür.

Bank və mobil şəbəkələrin birləşməsindən irəli gələn yeni rəqəmsal yanaşma təklif edən Mobil Ödəmə layihəsi çərçivəsində xidmətlərin sayının genişləndirilməsi, xidmət spektrinin artırılması və digər servislərdən istifadə üçün şərait yaradılması nəzərdə tutulur. Mobil Ödəmə xidməti abunəçilərə “Azercell”in “Kabinetim” mobil əlavəsinin tərkibində təqdim olunur. “Kabinetim” tətbiqi abunəçiyə öz nömrəsinə tam nəzarət etmək, nömrə ilə bağlı əməliyyatları idarə etmək, ödəmələri həyata keçirmək, “Azercell” tətbiqlərinə abunə olmaq imkanını yaradır. “Kabinetim”lə balansı artırmaq, internet paketləri və rominq internet paketlərini aktivləşdirmək, tarif paketini dəyişmək və bir çox başqa əməliyyatları rahatlıqla icra etmək olar. Azərbaycan, rus və ingilis dillərini dəstəkləyən “Kabinetim” tətbiqi üzərindən onlayn çat vasitəsilə “Azercell” müştəri xidmətlərinə müraciət etmək və QR skan ilə xidmətlərə qoşulmaq da mümkündür.

Daim təkmilləşən və funksionallığı artırılan “Kabinetim” tətbiqi “App Store” və ya “PlayStore”dan yüklənilir. Tətbiq avtomatik yenilənməyibsə, yükləmə üçün bit.ly/Kabinetim keçidindən istifadə etmək olar.

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən etender.gov.az portalında 17.09.2020-ci il tarixdə elan edilmiş İnternet data mərkəzlərində texniki stabilliyin artırılması və texniki rezervləşdirmənin təmin olunması, hər iki data mərkəzi arasında texniki sistemlərin çalışması üçün məlumatların avtomatik rejimdə surət olunması üçün tələb olunan yeni serverlərin satın alınması üzrə keçirilmiş açıq tenderin qalibi **“R.İ.S.K. Elmi İstehsalat şirkəti” QSC** müəyyən edilmişdir.

“Bakı Telefon Rabitəsi” **MMC və “R.İ.S.K. Elmi İstehsalat şirkəti” QSC** arasında 18.11.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin “Bakı Telefon Rabitəsi” Məhdud Məsuliyyətli Cəmiyyəti tərəfindən etender.gov.az portalında 05.11.2020-ci il tarixdə elan edilmiş EATS-in elektrik təsərrüfatında istifadə etmək üçün tələb olunan mal-materialların satın alınması üzrə keçirilmiş kotirovka sorğusunun qalibi **“D.M.F.İnşaat-Servis” MMC** müəyyən edilmişdir.

“Bakı Telefon Rabitəsi” MMC və **“D.M.F.İnşaat-Servis” MMC** arasında 18.11.2020-ci il tarixli satınalma müqaviləsi imzalanmışdır.

*Tender komissiyası*

## “Bakı Metropoliteni” QSC
## Bakı Metropoliteninin tikinti sahələri üçün tikinti mallarının satın alınması üzrə *açıq tender elan edir*

Tender 1 (bir) LOT üzrə keçirilir: **Bakı Metropoliteninin tikinti sahələri üçün tikinti mallarının satın alınması**

Tender iştirakçılarına təklif edilir ki, **https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalına (Portal)** elektron imzaları vasitəsilə daxil olsunlar və tender haqqında ətraflı məlumatı əldə etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən təşkilatlar LOT üzrə müəyyən edilən məbləğdə iştirak haqqını yalnız “ASAN Ödəniş” vasitəsilə həyata keçirdikdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu **https://www.etender.gov.az/ - dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə** adıçəkilən tender bölməsindən əldə edə bilərlər. Əlaqələndirici şəxs: Rauf Yusifov, telefon: 490-01-01.

**İştirak haqqı - 300 manat**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müvafiq mallar üzrə mənşə və uyğunluq sertifikatları.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender proseduru “Dövlət satınalmaları haqqında” Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün ixtisas göstəricilərinə dair sənədləri **11 dekabr 2020-ci il saat 11:00-a** qədər və tender təklifi ilə bank təminatı sənədlərini **21 dekabr 2020-ci il saat 11:00-a** qədər Portal vasitəsilə təqdim etməlidirlər.

İddiaçıların təklifləri **22 dekabr 2020-ci il saat 11:00-da** açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

**QEYD:** *Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.*

*Tender komissiyası*

## “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti
## Yuyucu vasitələrin satın alınması məqsədilə müsabiqə elan edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər **www.asco.az** səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumatı əldə edə bilərlər. Müraciət üçün son müddət 30 noyabr 2020-ci il saat 18:00-dəkdir.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

**Ünvan: Bakı şəhəri, Heydər Əliyev prospekti, 152, “Çinar plaza”, 24-cü mərtəbə.**
**Əlaqə telefonu: (012) 404-37-00, daxili:1176.**

*Tender komissiyası*

# OXUCULARIN NƏZƏRİNƏ
# “AZƏRBAYCAN”

*qəzetinə 2021-ci il üçün abunə yazılışı kampaniyası başlayıb!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *“Azərmətbuatyayımı” ASC* | *(012) 440-46-94, (070) 244-17-34* |
| *“Azərpoçt” ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *“Qaya” firması* | *(012) 564-63-45, (050) 214-04-05* |
| *“Kaspi” MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *“Region Press” MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *“Səma-M” MMC* | *(012) 594-09-59* |
| *“Ziya” LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *“Pressinform” MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *“City press” MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı Ağalar Vəliyev Azərbaycanın Milli Qəhrəmanı

**MƏHƏMMƏD HƏSƏNOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı Ağalar Vəliyev Masallı Rayon İcra Hakimiyyətinin başçısı Şahin Məmmədova anası

**SƏRFİNAZ XANIMIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Hüquq kafedrasının kollektivi kafedranın dosenti Asif Qədirova əzizi

**CƏMİL XƏQANİ OĞLU BİLALOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin prokuroru Aqil Əlizadəyə qardaşı

**YÜKSƏL ƏLİZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Səbail rayonundan Vüqar Zeynalov Yusif İldırımzadəyə atası, əməkdar jurnalist

**ƏLİ İLDIRIMOĞLUNUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Sumqayıt Apelyasiya Məhkəməsinin sədri Səadət Bəktaşi və məhkəmənin kollektivi Zeqam Hüseynova

**ANASININ**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7465
Sifariş 2646
Qiyməti 40 qəpik